# TƏHSİLDƏ ANTİKORRUPSİYA TƏDRİSİ METODİKASI

**Ümumtəhsil və ali məktəblər üçün metodik vəsait**



# TƏHSİLDƏ ANTİKORRUPSİYA TƏDRİSİ METODİKASI

**Ümumtəhsil və ali məktəblər üçün metodik vəsait**

# TƏHSİLDƏ ANTİKORRUPSİYA TƏDRİSİ METODİKASI

ISBN 9952243608-4

Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi

2007

# TƏHSİLDƏ ANTİKORRUPSİYA TƏDRİSİ METODİKASI

**Ümumtəhsil və ali məktəblər üçün metodik vəsait**



MÜASİR DİDAKTİKALAR MƏRKƏZİ

UDK 37.035
An-143

Sponsorlar:

- Litva Açıq Cəmiyyət Fondu
- Litvada Danimarka Krallığı Səfirliyi
- Təhsildə Dəyişiklik Fondu
- Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramı
- Litva Respublikası Hökuməti

Layihələr üzrə partnyorlar:

- Litva Respublikası Xüsusi Təhqiqat Xidməti
- Litva Respublikası Təhsil və Elm Nazirliyi
- Transparency İnternational Litva bölməsi

Üz qabığının dizaynı: Alvidas Ladiqa
Maket: Rokas Gelajus

Üz qabığında - 9-cu sinif şagirdi Odetta Petraviçutenin rəsmi

Tərcümə və redaktə: Xavər Qambayzadə

Nəşriyyat: AmiBi

© Litva Respublikası Təhsil və Elm Nazirliyi, 2006
© Müasir Didaktikalar Mərkəzi, 2006
© AmiBi, 2007

# MÜNDƏRİCAT

**GİRİŞ**
**Ümumtəhsil məktəblərində korrupsiyaya qarşı tədqiqatlar**
**GİRİŞ**
**QISACA KORRUPSİYA HAQQINDA**
Korrupsiya nədir? .....13
Korrupsiyanın formaları .....14
Korrupsiyanın "lehinə" və "əleyhinə" dəlillər .....14
Korrupsiyanı doğuran nədir? .....16
Korrupsiyaya qarşı strategiyalar .....17
**MƏKTƏBDƏ KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İMKANLARI**
**KORRUPSİYAYA QARŞI TƏHSİLDƏ İSTİFADƏ EDİLƏN ƏSAS MƏFHUMLAR**
**MƏKTƏBDƏ KORRUPSİYAYA QARŞI TƏRBİYƏNİN MƏĞZİ**
Dar və geniş (kontekstual) yanaşma .....25
Korrupsiyaya qarşı tədrisin əsas mövzuları .....25
Korrupsiyaya qarşı tərbiyənin inteqrasiya edilmiş proqramı .....26
İnteqrasiya edilmiş proqram nümunəsi .....27
**MƏKTƏBDƏ ANTİKORRUPSİYA TƏRBİYƏSİNƏ DAİR DİDAKTİK MƏSLƏHƏT**
Məlumatlandırma .....30
Münasibətin aşılanması .....30
Münasibətin dəyişdirilməsi .....31
Əxlaqi və konvensional (ənənəvi) mövqelər .....32
Korrupsiyaya qarşı fərdi proqramın hazırlanması .....35
**MƏKTƏBDƏ MÜXTƏLİF FƏNLƏR ÇƏRÇİVƏSİNDƏ KORRUPSİYAYA QARŞI TƏRBİYƏ PRQRAMININ TƏTBİQ EDİLMƏSİNƏ DAİR NÜMUNƏLƏR**
Tarix .....38
Vətəndaşlıq tərbiyəsi, politologiya .....54
Etika, psixologiya, din .....74
**ƏLAVƏLƏR**
Tənqidi təfəkkür inkişafı sxemi üzrə mətnlərlə işə necə hazırlaşmaq olar? .....101
**ƏDƏBİYYAT VƏ DİGƏR MƏNBƏLƏR**
Ali məktəblərdə korrupsiyanın tədqiqi
**ÖN SÖZ**
Korrupsiya fenomeni .....108
*Yolanta Piliponite*
Ali təhsil sistemində korrupsiyanın taksonomiyası .....129
*Nataliya Rumyantseva*

Litva ali məktəblərində korrupsiya:
nəzər nöqtələri, problemlər, həll yolları ........................................142
*Tadas Tamoşunas*
**KORRUPSİYA QARŞI TƏRBİYƏNİN TƏDRİS PROQRAMLARINA İNTEQRASİYASİ**
Korrupsiya deviasiya forması kimi ................................................148
Sosial təşkilat kursu modulu ........................................................148
*Tadas Tamoşunas*
Korrupsiya və hüquq ...................................................................150
Hüquq əsasları kursu modulu........................................................150
*Çintare Şatene*
**ƏSAS MƏFHUMLAR LÜĞƏTİ**
Məktəbdə mənəvi tərbiyə və antikorrupsiya təhsili.........................166

# GİRİŞ

İki hissədən ibarət olan bu kitaba 2005-ci ildə Litva dilində yazılmış və çap olunmuş və ümumtəhsil və ali məktəb müəllimləri üçün nəzərdə tutulmuş metodik işlər daxildir.

Birinci hissə - *"Ümumtəhsil məktəblərdə korrupsiyaya qarşı tərbiyə imkanları: metodik vəsait"* - korrupsiyaya qarşı tərbiyəni öz fənləri üzrə proqramlara daxil etmək istəyən və bunu etməyə imkanı olan müəllimlər üçündür. Bunun üçün tarix, vətəndaşlıq tərbiyəsi, etika, din dərsləri əla yarayır. Ədəbiyyat və dil dərslərində də münasib mövzulardan istifadə etmək olar. Kitabın birinci hissəsində müəllimlər əlavə saat ayırmadan, mövcud proqram, dərslik və metodik vəsaitlərdən istifadə edərək bunu həyata keçirmək üsulları haqqında məsləhət tapa bilərlər.

İkinci hissə - *"Ali məktəblərdə korrupsiyanın tədqiqi: baxışlar, problemlər, həllin mümkün yolları"* - tədris proqramları, tədris edilən fənlərin mövzuları korrupsiya haqqında məlumatın yayılması və korrupsiyaya qarşı tərbiyə, korrupsiya əleyhinə münasibətin aşılanması, fəal vətəndaş mövqeyi və ictimai dəyərləri olan şəxsiyyətin yetişdirilməsi üçün yarayan ali məktəb, universitet müəllimləri üçün nəzərdə tutulub. Bu hissədə korrupsiyaya qarşı tərbiyənin bu məqsədlə uzlaşan tədris modulları və proqramlarına inteqrasiyası, habelə korrupsiyaya qarşı ayrıca tədris kursunun hazırlanması nümunələri təklif edilir.

Bu kitabda həmçinin müzakirə edilən məsələləri və əsas məfhumları daha yaxşı anlamağa kömək edən nəzəri material təqdim edilir. Burada həm də aparılmış tədqiqatların materialları, əlavə mənbələr və ədəbiyyat göstərilir.

Kitab bilavasitə tədrislə məşğul olan müəllimlər tərəfindən işlənib. Burada təqdim edilən bütün nümunələr məktəb siniflərində və tələbə auditoriyalarında sınaqdan keçib.

Xarici iş yoldaşlarımızın korrupsiyaya qarşı tərbiyəyə və Litvanın bu sahədə təcrübəsinə göstərdikləri böyük maraq kitabın tərcüməsinə səbəb oldu.

Kitabın tərtibçiləri sponsorlara - Litvada Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramına, Litva Respublikası Xüsusi Təhqiqat Xidmətinə, Açıq Cəmiyyət İnstitutu RE: FINE proqramına, bu kitabın hazırlanıb işıq üzü görməsinə kömək edən bütün adamlara minnətdarlıq bildirirlər.

Ümid edirik ki, başqa ölkələrin müəllimləri bu kitabda onlara əməli kömək edən və ölkələrində korrupsiyaya qarşı təhsilin genişləndirilməsini stimullaşdıran fikirlər və faydalı nümunələr tapacaqlar.

DAYVA PENKAUSKENE

# Ümumtəhsil məktəblərində korrupsiyaya qarşı tədqiqatlar

**Metodik vəsait**

**Bu metodik vəsait**
**“Təhsil korrupsiya əleyhinə” (2002-2003) və**
**“Korrupsiyaya qarşı tərbiyə proqramlarının təkmilləşdirilməsi və yayılması” (2004) layihələri materialları əsasında tərtib edilib**

Məsləhətçilər:
Arne Nielsen, PLS Ramboll Management, Danimarka
Evaldas Bakonis, Təhsil İnkişafı Mərkəzi
Dr. Vaiva Vaicekauskiene, Təhsil İnkişafı Mərkəzi
Arturas Paliuşis, Litva Respublikası Xüsusi Təhqiqat Xidməti
Aida Martinkeniene, Litva Respublikası Xüsusi Təhqiqat Xidməti

Metodik vəsaitin tərtibçiləri:
Evaldas Bakonis, Təhsil İnkişafı Mərkəzi
Dr. Vaiva Vaicekauskiene, Təhsil İnkişafı Mərkəzi
Daiva Penkauskiene, Müasir Didaktikalar Mərkəzi

# GİRİŞ

## Bu metodik vəsait nə üçün hazırlanmışdır?

Bu metodik vəsait "Təhsil korrupsiya əleyhinə" və "Korrupsiyaya qarşı tərbiyə proqramlarının təkmilləşdirilməsi və yayılması" layihələri materialları əsasında yaradılmışdır. Bu layihələr 2002-2006-cı illər əzində həyata keçirilən Litva Respublikası Korrupsiya Əleyhinə Milli Proqram çərçivəsində aparılmışdır. Litva Respublikasının Seymi Korrupsiya Əleyhinə Milli Proqramın həyata keçirilməsi üçün nəzərdə tutulan tədbirləri təşkil etməyi Hökumətə və Xüsusi Təhqiqat Xidmətinə həvalə etmişdi (2002). Bu proqramda Litva Respublikasının bir sıra nazirlikləri, Litvada Cinayətkarlığın Qarşısı Alınması Mərkəzi, PHARE ekspertləri iştirak edirlər. Proqramın əsas məqsədi - cəmiyyətin maarifləndirilməsi, habelə korrupsiya əleyhinə fəaliyyət və preventiv tədbirlər haqqında məlumatın yayılmasıdır.

Bir qayda olaraq hesab edilir ki, başqa qərb ölkələrinə nisbətən post-kommunist ölkələrində korrupsiya daha aktual problemdir. Kommunist sistemlərində korrupsiya birləşdirici qüvvə rolunu oynayır, kleptokratiya və sifarişçilik isə norma hesab edilirdi. Belə davranış adətləri və düşüncə stereotipləri demokratik dövlətlərin və azad rəqabətə əsaslanan özəl iqtisadiyyatın yaranmasına əngəl törədir. Korrupsiya ilə bağlı cinayətlərin mürəkkəbliyi və özünəməxsus cəhətlərinə görə 1997-ci ilin payızında Litvada korrupsiya ilə mübarizə aparmaq üçün xüsusi idarə - Xüsusi Təhqiqat Xidməti (XTT) yaradılmışdı.

Litva Respublikası Seymi tərəfindən təsdiq edilmiş Korrupsiya Əleyhinə Milli Proqramı tədbirlərinin məqsədi təkcə cinayətlərin açılması deyil. Korrupsiyanın qarşısı alınması və cəmiyyətin maarifləndirilməsinə də böyük diqqət yetirilir. Proqram ən vacib vəzifələrindən birini belə görür:

> *"Korrupsiya təzahürlərinə dözülməzliyi hər vəchlə dəstələmək, bu məqsədlə qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələri ilə sıx əməkdaşlıq etmək, xüsusi tədris proqramları yaradıb maarif və təhsil sistemində tətbiq etmək".*

Proqramın həyata keçirilməsi üçün tədbirlər planı korrupsiyaya qarşı tərbiyə üzrə metodik məsləhətlər layihəsinin hazırlanması və bu metodik məsləhətlərin tətbiq edilməsini nəzərdə tutur.

Ümumtəhsil məktəblərin korrupsiyaya qarşı maarifləndirmədə iştirakını Litva Respublikası Seymi tərəfindən qəbul edilmiş Korrupsiyanın Qarşısı Alınması Haqqında Litva Respublikası Qanununun (2002) 10-cu Maddəsi də nəzərdə tutur:

> "1. Cəmiyyətin korrupsiyaya qarşı maarifləndirilməsi şəxsiyyətin mənəviyyatını yüksəltmək, vətəndaşlıq hisslərini aşılamaq, cəmiyyət və Litva dövləti qarşısında şəxsi hüquq və öhdəliklərini anlatmaq, habelə korrupsiyanın qarşısı alınması üçün aparılan tədbirləri həyata keçirmək məqsədilə cəmiyyətin məlumatlandırılmasının tərkib hissəsidir.
>
> 2. Cəmiyyətin korrupsiyaya qarşı maarifləndirilməsi hazırlanmış tədris proqramlarına əsasən növündən və səviyyəsindən asılı olmayaraq bütün

ümumtəhsil müəssisələrində, kütləvi informasiya vasitələri yolu ilə, habelə başqa üsullarla aparılır."

Metodik materialların hazırlanmasında ümumtəhsil məktəblər fəal iştirak ediblər. Layihədə iştirak üçün müsabiqə elan ediləndən sonra 70-dən artıq məktəb iştirak etmək arzusunu bildirdi. Bunlardan 11 məktəb komandası seçildi ki, bunların tərkibində psixologiya, etika, tarix, politologiya və vətəndaşlıq tərbiyəsi müəllimləri var idi. Layihə iştirakçıları korrupsiya əleyhinə məşğələlərdə aldıqları bilikləri və sınaqdan keçmiş üsulları öz dərslərində və tərbiyə işlərində tətbiq edib. 2004-cü ildən isə layihədə iştirak etməmiş müəllimlər üçün ixtisasartırma seminarları təşkil edilməyə başlandı.

**Bu metodik vəsaitdən necə istifadə etmək olar?**

Vəsaitin yaradıcıları ümid edirlər ki, bu nəşr korrupsiyaya qarşı maarifləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən müəllimlərə "korrupsiya" anlayışının özü haqqında, korrupsiyaya qarşı tərbiyəni tədris fənlərinə və məktəbdənkənar fəaliyyətə inteqrasiya etmək imkanları haqqında daha çox bilik toplamağa imkan verəcək, ölkənin ictimai həyatı ilə daha fəal şəkildə maraqlanmağa və hamımız üçün əhəmiyyətli məsələlər haqqında öz vətəndaşlıq mövqelərini daha fəal və əsaslandırılmış qaydada bildirməyə vadar edəcək. Dərsdə və əlavə tədris çərçivəsində aparılan tədbirlərin praktiki nümunələri korrupsiyaya qarşı tərbiyənin məğzini, bu üsulların tətbiq edilməsi imkanlarını daha yaxşı anlamağa kömək edəcək.

Daha ətraflı məlumat almaq istəyənlərə əlavə materiallar, mənbələrə istinad, İnternet səhifələri təklif edilir. "Ümumtəhsil məktəblərdə korrupsiyaya qarşı tərbiyə imkanları" ixtisasartırma proqramı ilə maraqlananlar aşağıdakı ünvanda yerləşən Müasir Didaktikalar Mərkəzinə müraciət edə bilərlər: Studentu 39-401, LT-08106 Vilnius; tel./faks (+370 5) 275 14 10; email: daiva.dcvpu.lt; http://www.vpu.lt/sdc

# QISACA KORRUPSİYA HAQQINDA

Korrupsiya haqqında çox danışılır, amma ictimai fikir və ya kütləvi informasiya vasitələri tərəfindən korrupsiya kimi qələmə verilən halların heç də hamısı sözün əsl mənasında korrupsiya deyil. Digər tərəfdən, korrupsiya heç də həmişə cinayət kimi tanınmır. Bəzən isə korrupsiyanın səbəbləri, ilkin şərtləri, nəticələri və ona qarşı mübarizə haqqında səthi düşüncə də mövcuddur. Buna görə müəllimlər korrupsiyaya qarşı tərbiyəyə başlamaqdan öncə korrupsiyanın bir fenomen kimi mənasını özləri üçün aydınlaşdırmalıdır.

## Korrupsiya nədir?

Vaxt var idi ki, "korrupsiya" sözü dağılma və əxlaqi tənəzzül mənasını daşıyırdı. Bu gün onun qısa tərifi **şəxsi faydalanma məqsədilə ictimai vəzifədən sui istifadədir**. KQMP korrupsiyaya "dövlət qulluqçusu və ya buna bərabər statuslu şəxsin özü və ya digər şəxslər üçün qazanc məqsədi güdərək və beləliklə başqa şəxslərin və dövlətin maraqlarına xələl gətirərək ona verilən səlahiyyətə və ya qəbul edilmiş etika standartlarına uyğun olmayan hər hansı davranışı və ya belə davranışı təşviq etməsi" kimi tərif verir.

Korrupsiyanın bir çox tərifi mövcuddur və bu fenomen haqqında təsəvvürlər dəyişdikcə onlar da daim dəyişir. Buna görə, korrupsiyanı onun tərifi ilə deyil, onun xüsusiyyətləri ilə müəyyənləşdirmək daha asandır. Korrupsiyanın müxtəlif təriflərinin müqayisəsi göstərir ki, ***korrupsiya kimi qiymətləndirilən əməllər adətən aşağıdakı elementlərdən ibarətdir***:

1. cəmiyyətə aidiyyatı olan qərarlar qəbul etmək səlahiyyəti (gücü) olan şəxs;
2. qərarverməni tənzimləyən qanun normaları (qanunvericilik, prinsiplər, meyarlar, üsullar);
3. öz mənafelərinə uyğun qərarın qəbul edilməsində marağı olan şəxs və ya şəxslər;
4. qərar qəbul edənlə həmin qərarda marağı olan şəxs və ya şəxslər arasında hər iki tərəf üçün sərfəli mübadilə;
5. qərarvermə normalarının pozulması, cəmiyyətə vurulan ziyan [Van Duyne, 2001:74-76]

Başqa sözlə, korrupsiya, ədaləti pozaraq qərarların alınması və ya satılmasıdır. Ədalətsizlik ya qanuni (yazılı norma pozulursa) və ya əxlaqi forma (müəyyən davranış standartları mövcud olmasa belə sağlam düşüncə əməlin ədalətsizliyinə dəlalət edirsə) ala bilər.

Yuxarıda verilən təriflərə müvafiq olaraq yalnız o qərarlar korrupsiondur ki, dövlət qulluqçuları və siyasətçilər tərəfindən "satılır", korrupsiyanın özü isə ya dövlət və ya siyasi ola bilər. Əslində, korrupsiya qeyri-hökumət sektorunda da baş verə bilər və cəmiyyətin maraqlarını pozduqda cinayət hesab edilir.

## Korrupsiyanın formaları

Satılmış qərarlar bir çox müxtəlif məsələlərə təsir edə bilir (xidmətlərin göstərilməsi, icazə və vizaların verilməsi və bunun asanlaşdırılması; işə qəbul edilmə və işçilərin irəliləməsi; qanunların qəbul edilməsi; cəzanın ləğv edilməsi; cinayətin ört-basdır edilməsi; mükafatlandırılma və digər maddi üstünlüklər; qrantlar; dövlət qərarları; məxfi məlumatın verilməsi; vergilərdən azad edilmə və s.). Belə qərarların əvəzi bir çox müxtəlif formalarda təklif edilə bilər, yəni ***korrupsiyanın bir çox forması var və bunları təsnif etmək çətindir***. Bu işi çətinləşdirən bir də odur ki, müxtəlif ölkələrdə müxtəlif cinayətlər korrupsiya hesab edilir (burada yəqin ki, rüşvətxorluq istisna təşkil edir). Müxtəlif ölkələrin qanunvericiliyinə daxil edilmiş korrupsiya cinayətləri aşağıdakılardır:

1. rüşvət alma, istəmə və vermə;
2. dövlət əmlakından sui istifadə və ya onun mənimsənilməsi;
3. məxfi dövlət məlumatından qanunsuz istifadə;
4. vəzifədən sui və ya şəxsi mənafe üçün istifadə;
5. seçkilərin saxtalaşdırılması və ya seçkilərin gedişinə müdaxilə;
6. saxta məlumatın yayılması və ya müstəntiqləri aldatmaq məqsədilə saxta məlumatın verilməsi;
7. qanunsuz varlanma;
8. dövlət sifarişləri bazarının pozulması və ya ona müdaxilə;
9. dövlət qulluqçularının ləyaqətsiz davranması haqqında məlumat verən şəxslərin cəzalandırılması;
10. vəzifələrin yerinə yetirilməməsi;
11. dövlət xidmətinə zərər gətirmə [Grosse, 2000].

Korrupsiya üçün mövcud qarma-qarışıq imkanlar sırasını təsnif etmək təşəbbüsü ilə P. Van Dayne onları sektorlara bölüm sistemini təklif etmişdir [Van Dayne, 2001:76]. Bu sistem göstərir ki, korrupsiya üç sektorun (dövlət, özəl və siyasi) hamısında, habelə onların arasında da mümkündür:

| | Dövlət sektoru | Özəl sektor | Siyasi sektor |
|---|---|---|---|
| Dövlət sektoru | | | |
| Özəl sektor | | | |
| Siyasi sektor | | | |

Bu təsnifata əsasən altı cinayət qrupu mümkündür. Eyni cinayət forması (məsələn, rüşvət) hər qrupda baş verə bilər.

## Korrupsiyanın "lehinə" və "əleyhinə" dəlillər

Korrupsiya nəticələrinin ilk sistemli araşdırmalarından çox vaxt keçməyib. Əvvəllər bəzi iqtisadçı və siyasətçilər korrupsiyanın faydalı olmağını deyirdilər, ona görə ki o:

• dövlət maşını mexanizmini yağlayaraq qərarverməni sürətləndirir və beləliklə iqtisadi səmərəliliyi artırır;
• vaxta qənaət edir və "vaxt puldur"sa, pula da qənaət edir;
• azad bazar rəqabəti prinsiplərini dövlət qərarları sahəsinə keçirir, ona görə ki, hər hansı dövlət qərarının qəbul edilməsində rəqabət edərkən hər hansı şirkətin təklif etdiyi rüşvətlərin miqdarı onun gücünə dəlalət edir;
• dövlət qulluqçularının aşağı maaşlarını müvazinətləndirir və beləliklə büdcə vəsaitlərinə qənaət edir.

Bununla belə korrupsiya nəticələrinə, onun müxtəlif ölkələrdə səviyyəsinə və bu ölkələrin iqtisadiyyatına daha yaxından baxanda cəmiyyət həyatının bir sıra sahələrində korrupsiyanın oynadığı mənfi rolu görmək olar.

## İqtisadiyyata təsir:

• korrupsiyalı dövlətlərdə işgüzar dairələr vəsaitlərinin bir hissəsini korrupsiyaya ayırmalı olurlar ki, bu da sərmayələrin və ümumi milli məhsulun azalmasına gətirir;
• korrupsiya azad rəqabəti məhdudlaşdıraraq ən böyük ziyanı kiçik şirkətlərə vurur;
• rəqabət azaldıqca malların və xidmətlərin keyfiyyəti aşağı düşür;
• dövlət gəlirləri aşağı düşür, kölgə iqtisadiyyatı isə inkişaf edir;
• korrupsiyaya yol verilən yerlərdə dövlət məmurları aşağı maaş alır, bununla belə büdcə xərclərinə qənaət edilsə də, adi vətəndaşlar onlara öz ciblərindən rüşvət verməli olurlar;
• xarici sərmayəçilərin belə dövlətə inamı az olur və onların ölkə iqtisadiyyatında payı azalır.

## Dövlət idarəçiliyinə təsir:

• dövlət sərmayəsi azalır və dövlət sifarişilə yerinə yetirilən işlərin səmərəliliyi aşağı düşür;
• hökumətin fəaliyyət sahələri və məsrəflərin strukturu dəyişə bilir - rüşvətxor dövlət məmurları daha yüksək gəlirlər təmin edən layihələrə üstünlük verir;
• korrupsiyalı hökumət zəif və təzyiqə məruzdur;
• dövlət məmurlarının xudbinliyi dövlətin ehtiyacları haqqında strateji düşünməyi kölgədə qoyur, buna görə də iqtisadi və sosial problemlərə lazımi diqqət yetirilmir;
• dövlət xidmətlərinin keyfiyyəti aşağı düşür.

## Sosial-siyasi nəticələr:

• rüşvətxor siyasətçilərə və dövlət məmurlarına inamı olmayan vətəndaşlar dövlətə də inamlarını itirir;
• ictimai fəaliyyətdə iştirak və demokratik qurumların işinə maraq azalır;

- avtokratik ideologiyalar daha populyar olanda siyasi rəqabət azalır;
- sosial gərginlik artır və dövlətin siyasi stabilliyi zəifləyir.

## Korrupsiyanı doğuran nədir?

Korrupsiyanın əsas səbəbi insan tamahkarlığıdır. Buna görə biz korrupsiyanı davranışın müstəsna və ya patoloji forması kimi qiymətləndirə bilmərik: bizim hamımız və hər birimiz öz maraqlarımızı güdməyə meylliyik. İstehlakçı meylləri genişləndikcə və şəxsi firavanlıq əldə etmək həvəsi cəmiyyətin rifahından daha üstün yer tutduqca və ya bu anlayış tamamilə yaddan çıxarıldıqca korrupsion şəkildə davranmaq tamahı artır. Buna görə siyasətçilər və məmurlar öz vəzifələrindən şəxsi firavanlıqları üçün istifadə etməyə başlayır. Bunu müşahidə edən gənclər dövlət qulluğuna əlverişli və cəlbedici həyat tərzi kimi baxırlar. İstehlak meylli cəmiyyət korrupsiya qalmaqallarından hiddətlənir, amma bu hiddət ikili xarakter daşıyır: korrupsiya faktının özündən kiminsə varlanması daha çox hiddət doğurur.

Bununla belə, insan təbiətinin hər yerdə eyni olmağına baxmayaraq cəmiyyətlərin korrupsiya səviyyəsi müxtəlif olur. ***Korrupsiyanın səviyyəsi cəmiyyətin mədəniyyəti, mentaliteti və ənənələri ilə bağlı ola bilər.*** Məsələn, hesab edilir ki, korrupsiya bəla kimi protestant cəmiyyətlərində daha asan dərk edilir, ona görə ki, protestant etikasında ictimai və fərdi dəyərlər aydın fərqləndirilir. Korrupsiyanın demək olar ki, qanuniləşdirilmiş olduğu cəmiyyətlərdə, məsələn, himayəçiliyin birləşdirici qüvvə rolunu oynadığı kommunist sistemlərində, həyat və düşüncə tərzində vərdişləri dəyişmək daha çətindir. İctimai inkişaf səviyyəsi aşağı olan və vətəndaş dərketməsi yetişməmiş ölkələrdə korrupsiya daha asan kök salır.

Korrupsiyanı törədən və onu saxlayan ***bir sıra sosial və iqtisadi amillər*** vardır: zəif iqtisadiyyat, iş yerlərinin çatışmazlığı, dövlət büdcəsinin zəif idarə edilməsi, daha güclü xarici dövlətlərin və korporasiyaların müdaxiləsi. Dövlət məmurlarının düşkünlüyünə aşağı maaşlar, daha yüksək vəzifəyə keçirildikdə iş keyfiyyətinin nəzərə alınmaması, təşkilat məqsədlərinin aydın olmaması, habelə müdirlərlə onların tabeçiliyində olan işçilər arasında bərqərar olmuş himayəçilik qaydası səbəb ola bilər. Müdiriyyətin uzun müddət vəzifədə qalması və hakimiyyətin şəxsləndirilməsi əsasında qurulmuş idarəçiliyin aşağı səviyyəsi, nəzarət və hesabatın zəifliyi, qərar qəbul edilmə qaydalarının çatışmazlığı belə münasibətlərə kömək edir. Bundan başqa, vəzifəli şəxsin nəzarətində olan nemətlərin həcmi nə qədər çox olarsa və bunların paylanması nə qədər gizli və monopolist üsulla aparılarsa, korrupsion davranış ehtimalı o qədər yüksək olar.

Korrupsiyanın səviyyəsi həm də ***hüquq sisteminin kamilliyindən*** asılıdır. Anlaşılmaz, ziddiyyətli və daim dəyişdirilən qanunvericilik, səviyyəsiz məhkəmələr, şahidlərin müdafiəsi proqramların çatışmazlığı və bununla bağlı hüquqmüdafiə orqanlarına etimadsızlıq korrupsiyaya kömək edir. Buna görə hüquq və demokratiyanın qədim ənənə əsasında qurulduğu və dövlətçiliyi çoxdan formalaşmış dövlətlərdə korrupsiyanın səviyyəsi daha aşağı olur.

## Korrupsiyaya qarşı strategiyalar

Son zamanlar demokratik ölkələrdə korrupsiyaya qarşı yönəlmiş ictimai-siyasi təşəbbüslərinin sayı artır. *Transparency İnternational* təşkilatı məhz korrupsiyaya qarşı mübarizə aparmaq üçün yaradılmışdır. Bu təşkilat müxtəlif dövlətlərdə korrupsiya səviyyəsinin tədqiqi, habelə korrupsiyaya qarşı standartların hazırlanması və təbliği ilə məşğul olur. Korrupsiyaya qarşı tədbirlər Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı tərəfindən dəstəklənir. Litva Respublikasında korrupsiyaya qarşı mübarizə aparan əsas orqan, 1997-ci ilin sonlarında təşkil edilmiş Litva Respublikası Xüsusi Təhqiqat Xidmətidir.

Korrupsiya səviyyəsinin aşağı salınması çətin və ağır prosesdir. Bir halda ki, korrupsiyanı doğuran zəif iqtisadi siyasət, cəmiyyətin təhsil səviyyəsinin aşağı olması, vətəndaş cəmiyyətinin zəifliyi, dövlət orqanlarının hesabatvermə çatışmazlıqları, yerli adətlər və s. bir-birilə bağlı olan və ya olmayan səbəblər ola bilər, korrupsiyaya qarşı mübarizə müxtəlif tədbirlər kompleksi əsasında qurulmalıdır. Nə qədər ki, korrupsiya sistem xarakter daşıyır, korrupsion vəzifəli şəxslərin cəzalandırılması sadəcə olaraq bir neçə "qapazaltı"nın açıq mühakiməsinə çevrilir, baxmayaraq ki, bir çox başqaları cəzadan boyun qaçıra bilsələr də, onların eyni dərəcədə günahkar olmaqları hamıya bəllidir.

Müəyyən dövlətdə korrupsiyanı dəstəkləyən və ona kömək edən səbəbləri nəzərə almaq şərtilə korrupsiyaya qarşı strategiyalar bir sıra müxtəlif tədbirlərdən ibarət ola bilər, məsələn:

- dövlət məmurlarının işə qəbulu və vəzifə irəliləyişi üçün aydın meyar və qaydaların təsdiq edilməsi;
- cəmiyyət və dövlət üçün əhəmiyyətli və bütün vətəndaşların rifahına yönəlmiş və ədalətə əsaslanan qərarların qəbul edilməsi üçün aydın (şəffaf) qaydaların təsbit edilməsi;
- siyasi vəzifələrlə dövlət vəzifələrinin ayrılması, yerli özünüidarə qulluqçularının siyasi partiyaları təmsil etməyinin qadağan edilməsi;
- yerli özünüidarə qulluqçuların ticarət fəaliyyəti ilə məşğul olmağının qadağan edilməsi;
- siyasi partiyaların gəlir və xərclərinin şəffaflığı və qanuniliyi tələbi;
- siyasətçilərin gəlirləri üzərində nəzarət, gəlirlərin açıqlanması (bəyan edilməsi);
- siyasətçilərin aldıqları hədiyyələrinin qeydiyyatı;
- hüquq sistemini tamamlayan dövlət xidməti və siyasətçilərin etik kodekslərinin işlənməsi;
- qanunvericiliyə korrupsion əməllərin dəqiq tərifini verən əlavələrin edilməsi;
- dövlət məmurları tərəfindən qəbul edilmiş qərarların təsdiq edilməsi və xüsusilə vacib olan qərarların kollegial qaydada qəbul edilməsi;
- dövlət tədarükü və dövlət əmlakının özəlləşdirilməsi qaydalarının təkmilləşdirilməsi.

Litvada korrupsiyaya qarşı mübarizə tədbirləri Korrupsiyaya Qarşı Milli Proqramda əksini tapıb. Cəmiyyətin məlumatlandırılmasının artırılmasında və vətəndaşlıq dərketməsinin aşılanmasında təhsilin böyük əhəmiyyəti var.

# MƏKTƏBDƏ KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İMKANLARI

Məktəbdə korrupsiyaya qarşı tərbiyə həm formal, həm də qeyri-formal şəkildə aparıla bilər. Formal tərbiyə korrupsiyaya qarşı tədris elementlərinin ümumtəhsil proqramlarına daxil edilməsi, qeyri-formal tərbiyə isə - əlavə tədrisdə vətəndaş hərəkatları, şagird konfransları və s. müxtəlif təşəbbüslərin dəstəklənməsini nəzərdə tutur.

Bir halda ki, korrupsiyaya qarşı tərbiyənin əsas məqsədi vətəndaş dərketməsinin formalaşmasıdır, vətəndaşlıq tərbiyəsi, tarix, politologiya, etika kimi ictimai fənlər bu tərbiyəni aparmaq üçün ən əlverişli yerdir. Göstərilən fənlərlə əlaqə bir də ona görə labüddür ki, korrupsiya problemi hüquq, siyasət, tarix və iqtisadiyyat elmləri məfhumlarından istifadə edərək təhlil edilir.

Korrupsiyaya qarşı tərbiyənin ümumi təhsillə inteqrasiyası, bunun üçün münasib mövzu konteksti yaradılmadan mümkün deyil. Məsələn, dövlət xidmətinin məqsədini, habelə dövlət qulluqçuları qarşısında qoyulan etik və hüquqi tələbləri müzakirə etmədən korrupsiya problemini anlamaq çox çətindir. Bu məsələlər vətəndaşlıq tərbiyəsi və ya politologiya dərslərində öyrənilmirsə, korrupsiya məsələsini inteqrasiya etmək çətin ola bilər. Dİgər tərəfdən, korrupsiyaya qarşı tərbiyə yalnız korrupsiya haqqında maarifləndirmə deyil, həm də məlumatlandırmadır. Korrupsiyaya qarşı hisslərin formalaşması üçün mühüm dəyərlər başqa mövzuların müzakirəsi zamanı da aşılana bilər.

Hər dəfə ümumi təhsil proqramına yeni mövzuların daxil edilməsi təklif ediləndə tədris proqramlarının artıq dərəcədə yüklənməsi və vaxt azlığı narahatlıq doğurur. Korrupsiyaya qarşı tərbiyə məsələsi də istisna deyil. Bu narahatlığa son qoymaq üçün düşünmək kifayətdir ki, belə inteqrasiya üçün bir neçə yol var. Korrupsiyaya qarşı tərbiyə problemlərini aydın ifadə edərək bir neçə dərsdən ibarət ayrıca modul yaratmaq olar, ya da korrupsiya problemini müəyyən məsələnin açıqlanması üçün və ya misal şəklində başqa mövzu və məsələlərin tərkib hissəsi kimi müzakirə etmək olar. Aşağıda hər iki üsul - inteqrasiya edilmiş modul və inteqrasiya edilmiş proqram təqdim edilir. Vacib odur ki, korrupsiyaya qarşı tərbiyə digər fənlərdən ayrılmadan aparılmalıdır.

Korrupsiyaya qarşı tərbiyənin xüsusi problemi bu proqramın korrupsion davranış imkanları haqqında məlumatlandırma kursuna çevrilməsi təhlükəsinə yol verməməkdən ibarətdir. "Rahat" davranışa zidd olan dəyərləri məktəbdə təbliğ edən digər hallar kimi, korrupsiyaya qarşı tərbiyə də müəllimlərdən müdriklik, psixoloji bəsirət və metodoloji bacarıq tələb edir.

**Korrupsiyaya qarşı tərbiyənin məqsədi** gənclərdə korrupsiyaya qarşı vətəndaş mövqeyinin formalaşması üçün vacib olan dəyərlərin aşılanması və bacarıqların inkişaf etdirilməsindən ibarətdir.

## Korrupsiyaya qarşı tərbiyənin vəzifələri:

1. Korrupsiya fenomeni, onun məğzi, səbəbləri və nəticələri ilə tanış etmək.
2. Korrupsiya halları ilə barışmazlıq mövqeyini alqışlamaq.

3. Korrupsiyaya qarşı mübarizə aparmaq imkanlarını nümayiş etdirmək.
4. Ümumi təhsil proqramlarına artıq daxil edilmiş standartlara öz töhfəsini vermək, yəni:

- özündə müvafiq dəyərlər aşılamaq (demokratik dəyərlərə hörmət; ətrafda baş verənlərə biganə qalmama; düzlük, hərəkətlərinə, əməllərinə cavabdehlik; daimi özünütəkmilləşdirmə, sosial və mədəni bilikləri və bacarıqları artırma və s.);
- şəxsi imkan və bacarıqları inkişaf etdirmək (ünsiyyət saxlamaq, məlumat tapmaq, ondan istifadə etmək və ötürmək; tənqidi düşünmək və problem həll etmək; səmərəli planlaşdırmaq və fəaliyyəti təşkil etmək; vaxt, maliyyə ve digər vəsaitlərdən səmərəli istifadə etmək; yaradıcı surətdə, mənalı hərəkət etmək, təşəbbüs göstərmək, müstəqil olmaq, öz əməllərinə cavabdeh olmaq, ünsiyyət saxlamaq və əməkdaşlıq etmək, narazılıq və münaqişələri konstruktiv şəkildə həll etmək; məktəbin, yerli ictimaiyyətin və cəmiyyətin ictimai həyatında iştirak etmək; lazım gəldikdə planların və s. həyata keçirilməsində liderlik nümayiş etdirmək və s.).

**Gözlənilən nəticə** - cəmiyyətin rifahı və dövlətin təhlükəsizliyi üçün korrupsiya təhlükəsini anlayan, korrupsiya hallarına laqeyd olmayan, onları aradan qaldırmaq bacarığı və istəyi olan bir şəxsin yetişdirilməsidir.

# KORRUPSİYAYA QARŞI TƏHSİLDƏ İSTİFADƏ EDİLƏN ƏSAS MƏFHUMLAR

**Korrupsiya** - Vəzifələrinin yerinə yetirilməsi və ya yetirilməməsi üçün dövlət qulluqçusu və ya buna bərabər statuslu şəxsin özü və ya başqası üçün birbaşa və ya dolayı şəkildə maddi və ya başqa qazanc (hədiyyə, xidmət, vəd və ya imtiyaz) axtarması, tələbi və ya əldə etməsi, habelə dövlət qulluqçusu və ya buna bərabər statuslu şəxsin özü və ya başqası üçün birbaşa və ya dolayı şəkildə maddi və ya başqa qazanc axtarması və ya tələbi məqsədilə fəaliyyət və ya fəaliyyətsizliyi və ya belə qazancın əldə edilməsi, habelə vəzifələrinin yerinə yetirilməsi və ya yetirilməməsi üçün dövlət qulluqçusu və ya buna bərabər statuslu şəxsə birbaşa və ya dolayı şəkildə maddi və ya başqa qazancın (hədiyyə, xidmət, vəd və ya imtiyaz) təklif edilməsi, habelə burada göstərilmiş əməllərin həyata keçirilməsində vasitəçilik fəaliyyətidir [Litva Respublikası Xüsusi Təhqiqat Xidməti haqqında Qanunu, 2000].

**Korrupsiyanın qarşısının alınması** - müvafiq tədbirlər sisteminin işlənməsi və tətbiqi vasitəsilə korrupsiyanı doğuran səbəb və şəraitin üzə çıxarılması və ləğv edilməsi, habelə korrupsiya cinayət əməllərindən üzlərini döndərmək üçün şəxslərə təsir edilməsi.

**Korrupsiya cinayət əməlləri** - rüşvət alma, vasitəçinin köməyi ilə rüşvət alma, rüşvət təklif etmə, habelə dövlət sektorunda və ya dövlət qulluğu zamanı şəxsi varlanma və ya başqalarının varlanması məqsədilə səlahiyyətləri aşma və ya vəzifədən sui istifadə, rəsmi səlahiyyətlərdən sui istifadə, sənədlərin və ya ölçü vasitələrinin saxtalaşdırılması, əmlakın mənimsənilməsi və ya israf edilməsi, xidməti və ya kommersiya sirrinin açılması, gəlirlər, qazanclar və ya əmlak haqqında saxta məlumatların verilməsi, cinayət yolu ilə əldə edilmiş gəlir və ya əmlakın qanuniləşdirilməsi, dövlət qulluqçusu və ya dövlət xidmətində olan şəxsin fəaliyyətinə müdaxilə, yaxud rüşvət almaq və ya vermək və ya rüşvət alma və ya vermə əməlini gizlətmək məqsədilə törədilən digər cinayət əməllərindən ibarətdir.

**Rüşvət alma** [Litva Respublikası Cinayət Məcəlləsi, 2000, Maddə 225].

Dövlət qulluqçusu, rəsmi şəxs və ya buna bərabər statuslu şəxs özünün və ya başqasının mənafeyini güdərək öz səlahiyyətlərini icra etdiyi dövrdə qanuni və ya qanunsuz fəaliyyət və ya fəaliyyətsizlik əvəzində rüşvət alır, almağı vəd edir və ya almağa razılıq verir, tələb edir və ya onu verməyə təhrik edir (Bu, təzahürün ən sadə formasıdır).

İri məbləğdə - 250 MAM [Minimum aylıq maas] (hazırda MAM = 125 LTL)

Cinayət məsuliyyəti dasıyan huquq pozuntusu - 1 MAM-a qədərdir.

Rüşvətxorluğa görə təkcə fiziki şəxslər deyil, hüquqi şəxslər də məsuliyyət daşıyır (hüquqi şəxslərə qarşı pul cərimələri, fəaliyyətin məhdudlaşdırılması və s. tətbiq edilir) [Litva Respublikası Cinayət Məcəlləsi, 2000, Maddə 20].

**Rüşvət vermə** [Litva Respublikası Cinayət Məcəlləsi, 2000, Maddə 227]

Dövlət qulluqçusu, rəsmi şəxs və ya buna bərabər statuslu şəxsə səlahiyyətlərini icra etdiyi dövrdə qanuni və ya qanunsuz fəaliyyət və ya fəaliyyətsizlik əvəzində (və ya həmin nəticələr əldə etmək üçün vasitəçiyə) birbaşa və ya dolayı yolla rüşvət təklif edən, verməyi vəd edən və ya vermiş şəxs < >

Bir şəxsdən rüşvəti tələb ediblərsə, onu verməyə təhrik ediblərsə və onu verəndən dərhal sonra o, hüquqmühafizə orqanlarına bu barədə xəbər veribsə və ya bu rüşvəti hüquqmühafizə orqanlarının razılığı ilə təklif edib, vəd edib və ya veribsə, həmin şəxs rüşvət verməyinə görə məsuliyyətdən azad edilir.

Rüşvət alan və rüşvət verən tərəflərin hər ikisi məsuliyyət daşıyır.

**Vəzifədən sui istifadə** [Litva Respublikası Cinayət Məcəlləsi, 2000, Maddə 228]

Vəzifəsindən sui istifadə edən və ya səlahiyyətlərini aşan dövlət qulluqçusu və ya buna bərabər statuslu şəxs - o halda ki, belə fəaliyyət dövlətə, beynəlxalq ictimai quruma, hüquqi və ya fiziki şəxsə böyük ziyan vurur.

**Xidməti vəzifələrin yerinə yetirilməməsi** [Litva Respublikası Cinayət Məcəlləsi, 2000, Maddə 229]

Səhlənkarlıq üzündən öz xidməti vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən dövlət qulluqçusu və ya buna bərabər statuslu şəxs - o halda ki, belə əməllər dövlətə, beynəlxalq ictimai təşkilata, hüquqi və ya fiziki şəxsə böyük ziyan vurur.

Belə cinayət əməllərinə görə cəza tədbirlərinə aşağıdakılar daxildir:

- müəyyən işi görmək və ya müəyyən fəaliyyətlə məşğul olmağın qadagan edilməsi;
- üç ilə qədər (iri məbləğdədirsə, iki ildən səkkiz ilə qədər) müddətinə azadlıqdan məhrum edilmə.

**Dövlət vəzifəli şəxsi** - dövlət hakimiyyət orqanlarında, idarə və özünüidarə orqanlarında, hüquqmühafizə, dövlət təftiş və nəzarət qurumlarında və ya bunlara bərabər qurumlarda çalışan, dövlət nümayəndəsi vəzifələrini yerinə yetirən və ya inzibati səlahiyyətlərə malik olan şəxsdir [Litva Respublikası Cinayət Məcəlləsi, 2000, Maddə 290].

Aşağıdakılar dövlət vəzifəli şəxsləri hesab edilir: Litva Respublikasının Prezidenti, Seym üzvləri, Baş Nazir, Litva Bankı Şurasının Sədri, Dövlət Nəzarətçisi, nazirlər, Seym Ombudsmanı, əyalətdə hökumət nümayəndəsi, əyalət qubernatorları, bələdiyyə şurasının üzvləri, merlər, kəndxudalar, hakimlər, dövlət notariusları, prokurorlar, müstəntiqlər, Milli Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Departamenti, Maliyyə Nazirliyi nəzdində Gömrük Departamenti işçiləri, polis zabitləri, təftiş və nəzarət vəzifələrini yerinə yetirən qurumların başçıları, müfəttişlik başçıları, onların müavinləri, müfəttişlər və s.

Dövlət vəzifəli şəxsləri - nizamnaməyə əsasən xidmət edən dövlət qulluqçularıdır. Bu o deməkdir ki, Dövlət Xidməti Haqqında Qanundan başqa onlar öz nizamna-

mələrinə də tabe olmalıdır. Məsələn, Xüsusi Təhqiqat Xidmətində çalışan vəzifəli şəxs XTX nizamnaməsini rəhbər tutmalı və ona riayət etməlidir. Bu, bütün nizamnaməli hüquqmühafizə orqanlarına aiddir.

**Dövlət qulluqçusu** - dövlət xidmətində olan şəxsdir - dövlət siyasətçisi, Dövlət Xidməti Haqqında Qanuna müvafiq olaraq dövlət idarəçiliyində işləyən dövlət qulluqçusu, habelə dövlət və ya bələdiyyə orqanlarında ya qurumlarında, məhkəmə və hüquqmühafizə orqanlarında, dövlət nəzarəti və təftiş orqanlarında və bunlara bərabər tutulan orqanlarda işləyən zaman hakimiyyət nümayəndəsi vəzifələrini yerinə yetirən və ya inzibati səlahiyyətlərə malik olan digər şəxslər, habelə göstərilən vəzifələrə rəsmi namizədlərdir [Litva Respublikası Cinayət Məcəlləsi, 2000, Maddə 230].

Xarici dövlətin hər hansı qurumunda, beynəlxalq təşkilatda və ya beynəlxalq məhkəmə orqanında müəyyən səlahiyyətlərə malik olan şəxslər, habelə göstərilən vəzifələrə rəsmi namizədlər **dövlət qulluqçusuna bərabər tutulur**.

Bundan başqa, təsərrüfat və ya texniki xidmət göstərən şəxslərdən başqa hər hansı dövlət, qeyri-dövlət və ya özəl qurumda, təşkilatda ya müəssisədə işləyən, yaxud professional fəaliyyətlə məşğul olan və dövlət inzibati idarəçiliyi sahəsində müəyyən səlahiyyətlərə malik olan ya dövlət xidmətləri göstərən şəxs **dövlət qulluqçusuna bərabər tutulur.**

**Dövlət xidmətində işləyən şəxslər** - dövlət siyasətçiləri, Dövlət Xidməti Haqqında Qanuna müvafiq olaraq dövlət idarəçiliyində işləyən dövlət qulluqçuları, habelə dövlət və ya bələdiyyə orqanlarında ya qurumlarında, məhkəmə və hüquqmühafizə orqanlarında, dövlət nəzarəti və təftiş orqanlarında və bunlara bərabər tutulan orqanlarda işləyərək, hakimiyyət nümayəndəsi vəzifələrini yerinə yetirən və ya inzibati səlahiyyətlərə malik olan digər şəxslər, habelə Dövlət və bələdiyyə büdcələrindən və fondlarından maliyyələşdirilən ictimai qurumlarda işləyən və inzibati səlahiyyətlərə malik olan şəxslərdir [Dövlət Xidmətində ictimai və şəxsi mənafelərin uzlaşdırılması haqqında Litva Respublikasının Qanunu, 1997].

**Korrupsiyaya qarşı standartlar** - korrupsion davranışın məhdudlaşdırılmasına kömək edən davranış və hüquqi normaların məcmusu.

**İctimai mənafe** - dövlət xidmətində olan şəxslərin qərəzsiz və ədalətli qərarlar qəbul etməsində ictimaiyyətin marağı deməkdir [Dövlət Xidmətində ictimai və şəxsi mənafelərin uzlaşdırılması haqqında Litva Respublikasının Qanunu, 1997].

**Şəxsi mənafe** - dövlət xidmətində olan şəxsin və ya namizədin xidməti vəzifələrini yerinə yetirərkən qəbul edəcəyi qərarlara təsir göstərə biləcək özünün (yaxud onun yaxın qohumu və ya ailə üzvünün) şəxsi maddi və ya qeyri-maddi maraqları deməkdir [Dövlət Xidmətində ictimai və şəxsi mənafelərin uzlaşdırılması haqqında Litva Respublikasının Qanunu, 1997].

**Mənafelər ixtilafı** - dövlət xidmətində olan şəxsin vəzifələrini və ya tapşırığı yerinə yetirdiyi zaman öz şəxsi mənafelərinə toxunan qərar qəbul etməli, yaxud belə qərarın qəbul edilməsində iştirak etməli, yaxud belə tapşırığı yerinə yetirməlı olduğu vəziyyətdir [Dövlət Xidmətində ictimai və şəxsi mənafelərin uzlaşdırılması haqqında Litva Respublikasının Qanunu, 1997].

**Lobbizm** - məlumat mübadiləsi nəticəsində müəyyən qrup, təşkilat və ya bunun bir hissəsinin əldə etdiyi ümumi fikrinin öz mənafelərinə uyğun olan qərarın qəbul edilməsi üçün hakimiyyətdə olan (istər seçilən, istərsə də təyin edilən) vəzifəli şəxslərə çatdırılması prosesidir.

**Sifarişçilik** - hami ilə digər şəxs və ya şəxslər (sifarişçilər) arasında hər iki tərəf üçün əlverişli öhdəliklər və əlaqələr əsasında qurulmuş münasibətlər sistemidir.

**Nepotizm** - *müəyyən vəzifəyə ən yararlı işçi* prinsipinə riayət etmədən, müsabiqəsiz qohum, dost və yaxın tanışların işə götürülməsi. Bunun nəticəsində bir-birinə borclu olan işçilər sistemi yaradılır ki, bundan da qərar qəbul edildikdə istifadə edilir.

# MƏKTƏBDƏ KORRUPSİYAYA QARŞI TƏRBİYƏNİN MƏĞZİ

## Dar və geniş (kontekstual) yanaşma

Məktəb təcrübəsində korrupsiyaya qarşı tərbiyənin azı iki üsulundan istifadə etmək olar. Birinci üsul ondan ibarətdir ki, məktəb proqramı və fakultativ dərslərə korrupsiyaya aid olan mövzular əlavə edilsin. Bu asanlıqla təşkil edilir, çox vaxt tələb etmir, amma, buna baxmayaraq, proqramda "yamaq" və bir-dəfəlik tədbir kimi görsənir. İkinci üsul ondan ibarətdir ki, korrupsiya fenomeninin hansı ilkin dəyərlər və anlayışlarla bağlı olmasını təhlil edərək mövcud məktəb fənləri proqramlarına müəyyən dəyişikliklər etmək ki, indiyə qədər diqqətdən kənar qalmış məqamlara xüsusu yer ayrılsın.

Korrupsiyaya qarşı tərbiyənin birinci üsulu təkcə təşkiledilmə baxımından deyil, həm də nəzarət baxımından daha asandır: sadəcə bütün məktəblərin və siniflərin korrupsiya əleyhinə tədbirlərdə iştirakını təmin etmək kifayətdir. İkinci üsul bir neçə il davam edən sosial tərbiyəyə əsaslanır. Bu üsulu seçənlər əmin olmalıdırlar ki, ictimai fənlərdən dərs deyən müəllimlərin hamısı korrupsiyaya qarşı tərbiyənin məqsədləri, tərkibi və imkanları ilə tanışdır.

Əlbəttə, üçüncü üsul da mövcuddur - şagirdləri korrupsiya əleyhinə ictimai hərəkatlara və ictimai maarifləndirmə proqramlarına cəlb etmək. Lakin bu hərəkatlar məktəb tərəfindən yalnız qismən tənzimlənə bilər, ona görə onların çeşidləri bu proqramda müzakirə edilmir.

Bu kitabda məktəbdə korrupsiyaya qarşı tərbiyənin hər iki mümkün üsulu təqdim edilir - həm dar, həm də geniş (inteqrasiya edilmiş). Dar proqramın məqsədi şagirdlərə korrupsiyanı bir fenomen kimi təqdim etməkdir. Geniş proqrama isə korrupsiyaya qarşı tərbiyənin inteqrasiya edilə biləcək bir sıra mövzular daxildir. Bundan başqa, artıq tətbiq olunmuş inteqrasiya edilmiş proqramın nümunəsi - yəni müxtəlif siniflər və fənlər üçün dərsliklərə inteqrasiya edilmiş korrupsiya ilə bağlı mövzuları göstərən cədvəl - əlavə edilir.

## Korrupsiyaya qarşı tədrisin əsas mövzuları

**Korrupsiya anlayışı**. Müxtəlif təriflər. Korrupsiya ilə digər cinayətlər arasında fərqlərin əsasında duran meyarlar. Korrupsiya cinayətlərinin subyektləri və forma müxtəlifliyi.

**Korrupsiyanın nəticələri**. Korrupsiyanın iqtisadi, ictimai, siyasi, hüquqi, əxlaqi nəticələri. Aşkar və gözlə görünməyən ziyan. Korrupsiya cinayətlərinin qurbanları.

**Korrupsiyanın mənşəyi**. Korrupsiyanın müxtəlif dövrlərdə, cəmiyyətlərdə və dövlət quruluşlarında yayılması. Korrupsiyanın psixoloji, mədəni, ictimai, iqtisadi və siyasi səbəbləri. Demokratik qurumlarda (siyasi partiyalar, seçkilər, parlament, hökumət,

məhkəmələr və yerli özünüidarə orqanları) korrupsiya imkanları. İctimai və şəxsi mənafelər.

**Korrupsiyaya qarşı mübarizə imkanları.** Vətəndaş cəmiyyətinin rolu (öz-özünü təhlil etmə, barışmazlıq, şüurluluq). Kütləvi informasiya vasitələrinin rolu (aşkarlıq). Hüquqi bazanın möhkəmləndirilməsi: qanunlar, etika normaları, qaydalar. Korrupsiya səbəblərini və ilkin şərtlərini aradan qaldırmaq üçün strategiyalar və proqramlarda təklif olunan yollar.

**Korrupsiyaya qarşı mübarizənin problemləri**. Litvada korrupsiya səviyyəsi (sorğu nəticələri). Cəmiyyətin öz ölkəsinə qarşı münasibətinin formalaşmasında sorğu nəticələrinin və kütləvi informasiya vasitələrində qalmaqalların rolu. İri və xırda, cəzalandırılan və cəzalandırılmayan korrupsiya cinayətləri. Korrupsiya cinayətlərinin açılmasında çətinliklər. Korrupsiyaya qarşı mübarizə - sonsuz mübarizədir.

## Korrupsiyaya qarşı tərbiyənin inteqrasiya edilmiş proqramı

### Şəxsiyyət və davranış

- Avtoportret: mən kiməm və nə olmaq istəyirəm?
- Şəxsi dəyər və əqidələr
- Həyatın məğzi və məqsədi
- Kənardan təsir edən amillər: nümunələr, nüfuzlu şəxsiyyətlər, sosial rollar, vəziyyətlər
- Yaxşını pisdən, düzgün davranışı nalayiq davranışdan ayırmaq üçün meyarlar
- Qərarlar və seçimlər, səbəblər və nəticələr
- Məsuliyyət

### Davranışı tənzimləyən normalar

- Əxlaqi norma, əxlaqi xeyir və şər
- Əxlaq və konvensiya
- Vərdişlər, adət-ənənələr və sosial normalar
- Qanuni və qeyri-qanuni davranış
- Əxlaq və qanun arasında əlaqə
- Qanunların qeyri-mükəmməlliyi problemi
- Sosial tənzimləmə normaları ilə şəxsi azadlıq arasında əlaqə

### Ədalət

- Ədalət düzgünlük kimi
- İnsan hüquqları, bərabərlik və qərəzsizlik
- Sosial ədalət (bərabər bölüşdürmə)
- Ədalət qanunun aliliyi kimi

## Təqsir və cinayət

- Ziyan və inciklik təqsirin əxlaqi səbəbləri kimi
- Cinayət qanun pozulması kimi
- Cinayətlərin səbəbləri
- Cəzalandırma və digər sanksiyalar
- Cəzaları tənzimləyən qanunlar (Cinayət Məcəlləsi və digər qanunlar)
- Ədalətin bərpa edilməsi

## Vətəndaş cəmiyyəti və dövlət

- Demokratiya prinsipləri: iştirak, səlahiyyət vermə və nümayəndəlik
- Hakimiyyətin üç qolu
- Dövlət xidməti: vəzifələr və səlahiyyətlər
- Dövlət nəzarəti: hesabatvermə, məlumatvermə vəzifəsi
- Kütləvi informasiya vasitələri hakimiyyətin dördüncü qolu kimi

## Karyera planlaşdırılması

- Nə bacarıram və nə istəyirəm
- İxtisas seçimində meyarlar
- İş yeri seçimində meyalar
- İşə götürmə meyarları və üsulları

## İnteqrasiya edilmiş proqram nümunəsi

| MÖVZULAR | | PSİXOLOGİYA | ETİKA | VƏTƏNDAŞ TƏRBİYƏSİ | TARİX | POLİTOLOGİYA |
|---|---|---|---|---|---|---|
| ŞƏXSİYYƏT VƏ DAVRANIŞ | Fərdi xüsusiyyətlər | Fərdi xüsusiyyətlər nəzəriyyəsi (11 sinif) | Sən kimsən? (5 sinif)<br>Cəm və məcmu (8 sinif) | Nəcib əməl (8 sinif) | | Xarizmatik şəxsiyyət (11 sinif) |
| | Ətraf mühitin davranışa təsiri | Sosial təcrübə mənimsəməsi nəzəriyyəsi (11 sinif) | Davranış səbəbləri (7-8 sinif)<br>Mən mənsubam (7 sinif) | | SSRİ durğunluq dövründə (10 sinif) | Aşkar və qeyri-aşkar hakimiyyət (11 sinif) Vətəndaşlarla hökumət arasında münaqişələr (11 sinif) |
| | Şəxsi münasibət və davranış | Münasibət və stereotiplər (10 sinif) | Malik olma və vermə (6 sinif)<br>Qüsur və ləyaqət (5 sinif)<br>Mən düşünürəm və seçirəm (7 sinif) | ”Davranış - özümüzü gördüyümüz güzgüdür” (8 sinif)<br>Anadangəlmə və qazanılmış keyfiyyətlər (10 sinif) | Fransada mütləqiyyət (8 sinif) | |

| MÖVZULAR | | PSİXOLOGİYA | ETİKA | VƏTƏNDAŞ TƏRBİYƏSİ | TARİX | POLİTOLOGİYA |
|---|---|---|---|---|---|---|
| MƏSULİYYƏT | Vəzifələr və öhdəliklər | Sosial rollar (12 sinif) | Qaydalar, qaydalar… (7 sinif) | Əsas uşaq hüquqlarının müdafiəsi haqqında Litva Respublikasının Qanunu (8 sinif) | | |
| | Eqoizm və altruizm | | | | | |
| | Öz qarşında öhdəliklər | | Vəzifə (8, 11,12 sinif) | ”Sən və məktəb icması” (7 sinif) | | |
| SƏADƏT VƏ RİFAH | Ehtiyac və nəfs | Ehtiyaclar və səbəblər | | | Sosialist ölkələrində nomenklatura (10 sinif) | |
| | Gözəl həyat və səadət anlayışı | | Dəyər və dəyərlər (6 sinif)<br>Ümumi rifah (6 sinif)<br>Xoşbəxtlik (8 sinif)<br>Mülkiyyət (7 sinif)<br>Həyatın mənası (10-11 sinif) | “Gözəl həyat anlayışı” (açıq müzakirə, 8 və 10 sinif) | SSRİ-də defisit fenomeni (10 sinif) | |
| | Məqsəd və vasitələr | | | ”Məqsəd vasitələrə bəraət qazandırır” (8 sinif) | | Siyasi doktrinalar (11 sinif) |
| BƏRABƏRLİK/ ƏDALƏT | Ədalət əxlaqi məfhumu | | Ədaləti necə tapmaq olar? (6 sinif)<br>Yaxşı qanunlar (7 sinif)<br>Ədalət (7-10 sinif) | | | |
| | Bərabərlik hüquqi məfhumu | | Hüquqlar (7 sinif) | Hüquqi əsas (10 sinif) | | |
| | Qanunun aliliyi | | Yaxşı qanunlar (6 sinif) | Qanunlar öz-özünə işləmir (8 sinif)<br>Hakimiyyət (10 sinif) | | Hakimiyyət (11 sinif)<br>Legitimlik (11 sinif) |
| | Cinayət məfhumu | | Cinayət və cəza (6 sinif) | ”Korrupsiya - cinayətdir?” (müzakirə, 10 sinif) | Rumıniyada N. Çauşesku diktaturası (10 sinif)<br>Holokost (10 sinif) | |
| HÜQUQLAR VƏ AZADLIQLAR | Müsbət və mənfi hüquqlar | | | | | |
| | Qanun qarşısında bərabərlik | | | İnsan hüquqları (8 və 10 sinif) | Böyük Fransız İnqilabı (8 sinif) | |
| | Hüquqların müdafiəsi və pozulması | | Uşaq hüquqları (5 sinif)<br>İnsan hüquqları (8-9 sinif) | Hüquqlarımızı kim müdafiə edir? (8 sinif) | Üçüncü dünya ölkələrinin inkişaf xüsusiyyətləri (10 sinif) | |

| MÖVZULAR | | **PSİXOLOGİYA** | **ETİKA** | **VƏTƏNDAŞ TƏRBİYƏSİ** | **TARİX** | **POLİTOLOGİYA** |
|---|---|---|---|---|---|---|
| **VƏTƏNDAŞLIQ MÖVQEYİ** | İctimaiyyətçilik | | | Siyasət: ideallar və mənafelər (10 sinif) | | |
| | Qanuna hörmət | | | Mən - vətəndaşam (10 sinif) | | |
| | Uzaqgörənlik və məsuliyyət | | | İki Milliyət Respublikasında islahat cəhdləri(8 və 11 sinif) | | |
| **DEMOKRATİYA** | İştirak | | | Demokratiya cəmiyyətdə, məktəbdə və evdə (8 sinif) | Roma respublikası (7 və 11 sinif) | Seçkilər (11 sinif) |
| | Səlahiyyətvermə və nümayəndəlik | | | Litvanı kim və necə idarə edir? (10 sinif) | Post-kommunist ölkələrin qarşılaşdığı problemlər (10 sinif) | Seçkilər (11 sinif) |
| | Hökumətin üç qolu | | | Demokratiya: bu nədir? (8 sinif) | ABŞ Müstəqillik Bəyannaməsi və Konstitusiyası (8 sinif) | |
| | Dövlət xidməti. Davranış kodeksi | | | Siyasətdə demokratiya (10 sinif) | | |
| | Şəffaflıq. İnformasiya əldə etmək imkanı | | | Demokratik cəmiyyətdə kütləvi informasiya vasitələrinin rolu (10 sinif) | | Demokratiyada və diktaturada kütləvi informasiya vasitələrinin rolu (11 sinif) |
| | Etimad. Nəzarət. Hesabatvermə | | | Daha ədalətli cəmiyyətin yaradılması (10 sinif) | | |
| **İQTİSADİYYAT** | Dövlət əmlakı və onun idarə edilməsi | | Dövlət məqsəd və vasitə kimi (8 sinif) | Mənafelərin uzlaşdırılması (10 sinif) | Müasir Litvanın problemləri (10 sinif) | İcra hakimiyyəti (11 sinif) |
| | Dövlət idarəçiliyi. Bürokratiya | | | | Fransa mütləqiyyəti (8 sinif) SSRİ durğunluq dövründə (10 sinif) | Bürokratiya (11 sinif) |
| | Korrupsiyanın qiyməti | | | | Litvada mətbuatın qadağan edilməsi (9 sinif) | Maraq qrupları (11 sinif) |

# MƏKTƏBDƏ ANTİKORRUPSİYA TƏRBİYƏSİNƏ DAİR DİDAKTİK MƏSLƏHƏT

## Məlumatlandırma

Korrupsiya əleyhinə hərəkat artıq dərəcədə emosional olur. Bu heç də pis deyil, amma bəzən bu emosiyalar əleyhdarların əksinə çıxdıqları fenomen haqqında çox səthi və dumanlı təsəvvürünə əsaslanır, buna görə də onlar nəticə etibarılə heç bir şeyi dəyişməyə nail ola bilmir. Belə olduğu halda, məktəbdə korrupsiya əleyhinə tərbiyənin qarşısında duran əsas vəzifələrdən biri şagirdlərə zəruri bilikləri verməkdən ibarətdir ki, onlar:

- korrupsiyanı tanımağı (və başqa cinayətlərdən seçməyi) öyrənsin;
- korrupsiyanın şər olmağını sübut edən dəlillər əldə etsin;
- korrupsiya səviyyəsinin aşağı salınması üsulları ilə tanış olsunlar.

Korrupsiyaya qarşı tərbiyəyə dair məlumatın əldə edilməsi və verilməsi üçün adətən məktəb sosial tərbiyəsində istifadə edilən üsullar istifadə edilə bilər: mühazirələr, müxtəlif yazılı məlumat mənbələrinin (məqalələr, araşdırma hesabatları, tarixi mənbələr) təhlili; müxtəlif adamlarla (hüquqmühafizə orqanları işçiləri, şahidlər, siyasətçilər, dövlət qulluqçuları) söhbətlər; videomateriallara baxış və s. Bununla belə, korrupsiyaya qarşı tərbiyə ilə məşğul olarkən sırf məlumatın verilməsinin gənclərin korrupsion davranış imkanları ilə metodik şəkidə tanış edilməsinə dönməsindən, habelə yaşadığımız cəmiyyətin və onun qurumlarının şagirdlərin gözündə dağılmasına kömək etməsindən həmişə ehtiyat etmək lazımdır. Buna görə şagirdlərə korrupsiya haqqında danışarkən hədd və ədəbi saxlamaq lazımdır, ona görə ki, əsas məqsəd şagirdlərin mümkün qədər çox məlumat toplamağından deyil, mümkün qədər dəqiq qiymətləndirmə qabiliyyəti əldə etməkdən ibarətdir.

## Münasibətin aşılanması

Münasibət - müəyyən obyektə qarşı qiymətləndirmə mövqeyidir və dərk etmə, emosional reaksiya, davranış təcrübəsi və niyyətlərə əsaslanır [Zimbardo, Leippe, 1991]. Məsələn:



Bu beş elementin hamısı bir-birinə bağlıdır və bir-birini əvəz edə bilir. Bizim misalda emosional reaksiya ilə adi davranış modeli və dərk etmə arasında uyğunsuzluq var, buna görə korrupsiyapərəst münasibət qəti deyil. Bir elementdə dəyişiklik digər elementlərin dəyişməsinə gətirib çıxara bilər. Məsələn, davranış niyyətləri və davranış dəyişərsə, dərk etmə, emosional reaksiya və münasibətdə də dəyişiklik baş verə bilər.

Şagirdlərə korrupsiya haqqında danışarkən müəllimlər dərk etmə əsasında münasibət aşılamağa çalışır. Bu məqsədə nail olmaq üçün şagirdlər:

1. **Məlumatı anlamalıdır**. Korrupsiyanın vurduğu ziyan adətən iqtisadi və sosial-siyasi dəlillərin köməyi ilə izah edilir. Kiçik yaşlı şagirdlər üçün bunları başa düşmək çətin olar, onların əksəriyyəti üçün isə bunlar o qədər də əhəmiyyətli deyil. Buna görə dəlilləri şagirdlərin dilinə "tərcümə" edərək korrupsiyanın onların, ailələrinin və dostlarının mənafelərinə nə cür toxunmağını göstərmək lazımdır.
2. **Yadda saxlamalıdır**. Şübhəsiz ki, "təkrar, öyrənməyin anasıdır". Amma bir şey üç dəfədən artıq təkrar edilsə, adam təngə gəlir və özünü seçmək hüququndan məhrum edilmiş hiss edir. Buna görə məlumatı təqdim etmə üsulunu dəyişərək onu mümkün qədər gözlənilməz və təsirli şəkildə vermək lazımdır.
3. **Özlərini inandırmalıdır**. Münasibət o zaman daha güclü olur ki, o, kənardan zorla yeridilmir, intensiv düşünmə və təhlil nəticəsində yaranır. Deməli, şagirdlərə məlumatı verərkən müəyyən hadisənin qiymətləndirilməsini "çeynəmək" lazım deyil. Şagirdlər məlumatı özləri təhlil edər, əsaslandırar və ümumiləşdirərsə, başqa sözlə, fəal öyrənmə metodikasından istifadə edilərsə, bu daha təsirli nəticə verər.

"Özünüinandırma effekti" o zaman daha güclü olar ki, fəal düşünmənin nəticələri (xülasə, tezis, məsləhət və s. şəklində) yazılı surətdə qeyd edilib açıq şəkildə təqdim edilsin. Bundan başqa, insan alovlu müdafiə etdiyi şeyə inanmağa meyllidir. Buna görə korrupsiyaya qarşı tərbiyə üçün bir tərəfin korrupsiyapərəst mövqedən çıxış etməli olduğu debatlar yaramır: insanın özünün ifadə etdiyi dəlillər uzun müddətə yaddaşda həkk olunur. Əgər məktəbdə mütləq bu cür debat keçirmək istəyirsinizsə, onda korrupsiyanın tərəfdaşları mövqeyindən yalnız müəllimlər özləri çıxış edə bilər. Amma belə olduqda etik məsələ ortaya çıxır (müəllimlər nəyi təbliğ edir?).

Dərin və daimi münasibətin aşılanması üçün başqa üsul, şagirdləri fəaliyyətə cəlb etməkdir. İnsanlar özləri haqqında göstərdikləri fəaliyyət mənasında düşünməyə meyllidir (özünüidentifikasiya qanunu: "Mən yaxşıyam, ona görə ki, dostlarımla birlikdə sosial yardım fəaliyyəti ilə məşğulam"). Gənclərin korrupsiya əleyhinə layihə və hərəkatlara cəlb edilməsi onların korrupsiyaya qarşı münasibətlərini möhkəmləndirir.

## Münasibətin dəyişdirilməsi

Dəyərlərin aşılanması ilə məşğul olan müəllimlərə həmişə mane olan bir şey şagirdlərdə müəllimin müdafiə etdiyi dəyərlərdən fərqlənən münasibətin artıq mövcud olmasıdır. İnkar və müqavimətlə rastlaşanda bəziləri özlərini aciz hiss edir. Müna-

sibət dəyişməsinin psixoloji qanunauyğunluğundan xəbərdar olsalar özlərini daha güclü hiss edərlər. Doğrudan da, ilkin münasibət insanın bildiyinə əks olan bir məlumatın qarşısına sədd qoyur (məsələn: "Yenə də korrupsiya haqqında bu boşboğazlıq"). Belə hala yol verməmək üçün məlumatı gözlənilmədən (məsələn, dərsin mövzusu və ya məqsədi haqqında qabaqcadan xəbər vermədən) və qeyri-adi üslubda (eksperiment-oyun, paradoks əhvalat və s. kimi) təqdim etmək lazımdır.

Münasibətin dəyişdirilməsi üçün başqa strategiya o fakta əsaslanır ki, biliklərlə münasibətlər yaddaşda biri-birindən ayrı saxlanılır və onların bir-birilə uzlaşması üçün müəyyən vaxt tələb olunur. Buna görə korrupsiyapərəst münasibətlərə inandırma vasitəsilə hücum etmək məsləhət görülmür. Müəllim korrupsiyanı gözdən salan informasiyanı məntiqli və təsirli surətdə təqdim edib onun haqqında fəal düşünmə prosesini təhrik edə bilsə, vaxt keçdikcə bu münasibətlər özləri dəyişəcək. "Təxirəsalma effekti" adlanan reaksiyaya görə informasiyanın əvvəlcə inamsızlıqla qarşılanması mümkündür, amma vaxt keçdikcə qavrama emosional münasibətləri kölgədə qoyacaq.

## Əxlaqi və konvensional (ənənəvi) mövqelər

Korrupsiyaya qarşı tərbiyə, dəyərlərin aşılanmasına əsaslanır. Dəyərlərin aşılanması isə sosial tənzimləmənin iki forması - əxlaq və konvensiya arasında o qədər də aydın fərq qoyulmur. Buna görə dəlillər və şərhlər bəzən yersiz olur. Əxlaq fəlsəfəsinin dərinliklərinə varmadan sadəcə onu qeyd edək ki, əxlaq baxımından yaxşı davranış o zaman yaxşı hesab edilir ki, bu, bir adamın düşündüyündən asılı olmayaraq universal qaydada hamı üçün yaxşıdır və hamı üçün məcburidir. Bundan başqa, əxlaq baxımından hər hansı hərəkətin yaxşı və ya pis olması onun nəticələri ilə müəyyən edilir: bu hərəkət başqa insanların qəlbinə toxunurmu, onlara zərər gətirirmi, ədaləti (bərabərliyi, qərəzsizliyi) pozurmu? Hərəkətin əxlaq baxımından keyfiyyəti həm də onu edən adamın niyyətləri nöqteyi-nəzərindən qiymətləndirilə bilər: hərəkət o zaman pislənir ki, onu edən şəxs qəsdən pislik etmək niyyətində olub (müəyyən səbəbdən nəticələr pis olmasa belə) və o zaman ona bəraət qazandırıla bilər ki, adam yaxşılıq etmək niyyətində olub, amma nəticə etibarılə edə bilməyib.

Konvensiyalar - müəyyən cəmiyyətdə müəyyən vaxt çərçivəsində mövcud olan ümumi razılaşmalara əsaslanan normalardır, buna görə bu normalar başqa cəmiyyətlərin üzvləri üçün məcburi deyil və universal hesab edilmir. Real həyatda əxlaq və konvensiyalar bir-birinə bağlı ola bilər: ümumi əxlaq prinsipləri konkret normalara çevrilir (məsələn, "oğurlama", "aldatma" və ya "hamı ilə eyni surətdə ədalətli ol"), cəmiyyət üçün çox mühüm konvensiyaların (məsələn, ənənəvi ölənləri yad etmə mərasiminin) pozulması isə əxlaqı da poza bilər, ona görə ki, başqa adamların qəlbinə toxuna bilər. Buna baxmayaraq, əxlaq və ictimai razılaşma (konvensiya) məfhumları biri-birindən fərqlidir və məntiqin başqa-başqa formalarına əsaslanır.

Korrupsiyaya qarşı tərbiyə zamanı bu fərqlər barədə və əxlaq nöqteyi-nəzərilə konvensiya nöqteyi-nəzəri arasında yarana bilən gərginlik barəsində unutmaq olmaz. Konvensiya baxımından, "qadağan edilməyən hər şeyə icazə verilir". Əxlaq baxımından, hər hansı əməl, onu tənzimləyən konkret normanın olub-olmamağından asılı olmayaraq qiymətləndirilir. Əxlaqi yanaşma insana dəyən ziyan nöqteyi-nəzərindən da-

ha həssasdırsa, konvensional yanaşma daha çox razılaşmaların, ardıcıllığın, qaydanın, nüfuz ümidlərinin pozulmasından narahatdır. Əxlaq prinsiplərinin pozulması konvensiyaların pozulmasından daha güclü emosional reaksiya (qəzəb, narazılıq, qəm, ağrı, təqsir hissi, utanma, təəssüf) yaradır. Eyni qayda ilə adamın davranışı da əxlaqı da yoxsa konvensiyanı pozmaqda günahlandırılmağından asılı olaraq fərqlənir. Əxlaqı pozmaqda günahlandırılan adam ya üzr istəyir, ya vurduğu ziyanı düzəltməyə və ya onun əvəzini ödəməyə çalışır, ya əməlini başqa cür izah etməklə (düşünülməmiş hərəkət etdiyini, heç bir ziyan vurmadığını, öz hərəkətilə nə vaxtsa pozulmuş ədaləti bərpa etdiyini deyərək) özünü müdafiə etməyə çalışır. Əxlaq prinsipinin özü və ya onu müəyyən edən norma şübhə doğurmur. İctimai razılaşmanı (konvensiyanı) pozan şəxs isə ya bu normanı, ya da onun mənbəyini tənqid edərək özünə bəraət qazandırır. Normanı pozan uşaqların intizama alışdırılması üsulları da fərqli olur: əxlaqı pozana əksər hallarda özünü incidilmiş şəxsin yerində təsəvvür etmək təklif edilirsə, konvensiyanı pozan, qarışıqlıq yaratmaqda, razılaşmalara riayət etməməkdə, ümidləri doğrultmamaqda, şəraiti nəzərə almamaqda və ya nəzakətsiz olmaqda günahlandırılır. Beləliklə, adamlar əxlaqla konvensiyanın arasındakı fərqi intuitsiya ilə hiss edirlər.

Əxlaqla konvensiyanın (ictimai normaların) müxtəlif dərəcədə unversal və məcburi olması, habelə onların pozulmasına reaksiyanın müxtəlifliyi korrupsiyaya qarşı tərbiyə üsullarının seçimində mühüm rol oynayır. Hüquq mühafizəsi baxmından korrupsion davranış qanunun pozulması, cəmiyyət baxımından isə bu, ilk növbədə əxlaq qaydalarının pozulmasıdır. Bu, daha çox uşaqlar və yeniyetmələrə xas olan xüsusiyyətdir: onlar əxlaqın pozulmasına böyüklərdən daha həssas, ictimai razılaşmanın (konvensiyanın) pozulmasına isə böyüklərə nisbətən xeyli az fikir verirlər. “Korrupsiya şərdir, ona görə ki, qanunu pozur” - dəlili şagirdlər tərəfindən eşidilməmiş qala bilər.

Uşaqlar böyüdükcə onların əxlaqi və konvensional təfəkkürü də inkişaf edir, amma oxşayır ki, bunlar bir-birinə paralel şəkildə, bir nöqtəyə gəlmədən inkişaf edir. Aşağıdakı cədvəldə L. Kohlberqin əxlaq inkişafı nəzəriyyəsinə əsaslanan L.Nucci əxlaqi və konvensional təfəkkürün inkişafı proseslərini göstərir.

## Əxlaqi və konvensional təfəkkürün inkişaf səviyyələri (Nucci L. P. 2001)

| Yaş | Əxlaq sahəsi | Konvensiya sahəsi |
|---|---|---|
| 5-7 | Əsas vəzifələrin qavranması (başqalarını incitmə). Amma yaxşı və ya düzgün davranış xudbincəsinə anlanır. | Konvensiyalar mövcud təcrübədən yaranır (qadınlar ətək geyinməlidir, ona görə ki, qadınlar onu geyinir, kişilər isə yox). |
| 8-10 | Yaxşı və ya düzgün davranış anlamı "qarşılıqlı ədalət"ə qədər genişlənir. Bu, ilk növbədə müəyyən qərəzsizlik elementləri olan qəti bərabərçilik kimi başa düşülür (ədalət, fərqləri nəzərə almalıdır). | Konvensiyanın təcrübi qaydada təsdiqlənmiş qanun kimi mənfi anlamı. Konvensiyalarda istisnalar (bəzi qadınlar şalvar geyinir, şotlandiyalı kişilər isə - ətək) konvensiyanın zorla qəbul etdirilməsini (razılaşdırılmasını) sübut edir. Normanın mövcud olması artıq ona riayət etmək üçün yetərli əsas hesab edilmir. |
| 10-12 | Yaxşı və ya düzgün davranış bərabərlikdən artıq bir şey tələb edən davranış kimi qavranılır. Xüsusi ehtiyaclar, şərait və ya xidmətlər kimi fərqləri nəzərə alaraq ədalət qarşılıqlılıqla uzlaşmağa başlayır. | İctimai qaydaların nizam-intizamı saxlaması (məsələn, sərxoş sürücülərdən qoruması) konkret olaraq qavranılır. İctimai nüfuz sahibləri "yuxarıda" olanlar hesablanır, onlar qaydaları yaradır. Qaydalar dəyişə bilər və kontekstdən asılıdırlar. |
| 12-14 | Fərqləri nəzərə alan və insanlar arasında sosial əlaqələrin mövcudluğunu ortaya gətirən ədalət prinsiplərini qəti bərabərçilik anlamı ilə uzlaşdırmaq cəhdləri edilir. Konvensiyalar sadəcə olaraq sosial ümidlər hesab edilir. Bu onların məcburiliyini azaldır. | Əməllər qaydalardan asılı olmayaraq qiymətləndirilir. |
| 14-17 | Yuxarıda göstərilən prinsiplərin uzlaşdırılması davam edir. | Sistemli sosial struktur anlamı formalaşır. Konvensiyalar dəqiq müəyyən edilmiş rollardan və statik mənsəb strukturundan ibarət olan sosial sistemi tənzimləmə və bərkitmə vasitəsi kimi dərk edilir. |
| 17-20 | Böyüklərin sosial təfəkkürünə keçid (aşağıda) | Sosial sistemləri saxlamaq məqsədi güdən normaların hamı üçün məcburi olmasına mənfi münasibət. Konvensiyalar - sadəcə olaraq adi davranışla müəyyən edilən sosial standartlardır. Normativ sistemlər -konvensional (razılaşdırılmış) bir şeydir. |
| Böyüklər | Sosial sistem haqqında düşüncələrdə *ədalət və yaxşılıq* məfhumlarından istifadə edilməsi. Əxlaq konkret sosial sistem normalarından asılı olmayan bir şey kimi dərk edilir. Əxlaqın universal və məcburi xüsusiyyətləri hər bir şəxsiyyətin bənzərsiz və fitri dəyəri ilə uzlaşdırılır. | Konvensiyalar sosial əlaqələri tənzimləmək üçün xeyirli olan standartlar kimi başa düşülür. Sosial qrup daxilində konvensiyanın eyni cür dərk edilməsi qrup üzvləri arasında əlaqələri və bütövlükdə sistemin fəaliyyətini asanlaşdırır. |

Bu modeldə göstərilən konvensional təfəkkür inkişafı həqiqətə uyğundursa, onda müxtəlif yaşlı şagirdlərə korrupsiyanın şər olmasını izah edərkən bunu müxtəlif dəlillərlə əsaslandırmaq lazımdır. 10-12-yaşlı uşaqlar başa düşər ki, qanun korrupsion davranışı qadağan edirsə, o, yol verilməzdir. 12-14-yaşlı yeniyetmələr hüquqi və ya sosial sıradan dəlilləri anlamaz, yalnız əxlaqi ədalət dəlillərinə həssas olacaqlar. 14-17-yaş-

lı yeniyetmələrə izah etmək olar ki, korrupsiyaya qarşı davranış standartları müxtəlif vəzifələr tutan adamlar üçün məcburidir, ona görə ki, bu, sosial sistemi saxlayır. Ən yuxarı sinif şagirdləri bu fikrə bir qədər skeptik yanaşacaq, ona görə ki, onlar normaları mövcud davranış təcrübəsi ilə əlaqələndirir. Aşağı sinif şagirdlərilə müqayisədə yuxarı sinif şagirdləri Litvada korrupsiya səviyyəsinin yüksək olmağını göstərən sorğu nəticələrinə və "hamı korrupsiondur" fikrinə daha çox diqqət verərlər. Buna görə belə mənfi məlumatı müsbət misallarla tarazlaşdırmaq lazımdır: məsələn, dövlət qulluqçularının etik davranış kodeksi, şəffaf qaydalar, bərabərlik və qərəzsizlik prinsipləri, və s. Şübhəsiz ki, yaşından asılı olmayaraq, şagirdlərlə işləyən zaman həmişə bir sual meydana çıxacaq: korrupsiya nədir - qayda və konvensiyaların pozulması, yoxsa əxlaqi bəla?

## Korrupsiyaya qarşı fərdi proqramın hazırlanması

Burada təqdim olunmuş məsləhətlərin məqsədi korrupsiyaya qarşı fərdi proqramın, habelə cinayətkarlığın qarşısı alınması üçün tədbirlərin və materialların hazırlanmasına dair təkliflər verməkdir. Hər halda prevensiya ayrıca bir element kimi deyil, gündəlik tərbiyə prosesinə ardıcıl surətdə inteqrasiya edilmiş, amma müstəqil də istifadə edilə bilən bir mövzu kimi qiymətləndirilməlidir. Korrupsiyaya qarşı tərbiyə proqramı öyrənilən fənlərlə və ya əlavə tərbiyə tədbirlərilə bağlı olan layihələrin hazırlanması üçün imkanlar yaradır. Əsas odur ki, şagirdlərin rifahını və bir-birini başa düşmək qabiliyyətini inkişaf etdirən fənlərə üstünlük verilsin. Uşaqlar və yeniyetmələr öz valideynləri, müəllimləri, təhsil mütəxəssisləri və başqa adamlar tərəfindən hörmət hiss edəndə, onlarda özünə hörmət hissi və başqalarına qarşı dözüm yaranır.

Korrupsiyaya qarşı tərbiyə kiminsə tərəfindən tərtib edilmiş əxlaqi davranış qaydaları toplusu deyil. Digər cinayət əməlləri kimi korrupsiya da - seçim məsələsidir. Böyüklərin vəzifəsi cəmiyyətin mənafelərinə cavab verən seçimin edilməsi üçün şərait yaratmaqdan ibarətdir. Biz şagirdlərimizi onların hüquqları, vəzifələri və əməllərinin nəticələri, yəni başqa adamlara təsiri, aşkar və qeyri-aşkar nəticələri ilə tanış etməliyik. Müəyyən seçimi müzakirə edəndə şagirdlərə onun əksini də təqdim etmək lazımdır ki, yaxşı ilə pis arasında fərqi görsünlər. Şagirdlər "hə" və "yox" deməyi öyrənməlidir.

Korrupsiyaya qarşı tərbiyə yeni iş üsulları və metodlarına ehtiyac duyulmasını üzə çıxarır. Birincisi, korrupsiyaya qarşı tərbiyə proqramı müəllimlər üçün tamamilə yeni bir fənn olduğunu və bundan heç bir hazırlıq keçməmələrini nəzərə alsaq, tamamilə təbiidir ki, onlar bu mövzuya aid bilik və bacarıq toplamalıdır. Buna görə məhz burada rollarını asanlıqla dəyişərək sinif rəhbərindən, nüfuzlu şəxsdən köməkçiyə, aparıcıya çevrilə bilərlər. Aparıcının məqsədi idarə və ya rəhbərlik etmək deyil, şagirdin yanında getmək, ona müşaiyyət etmək, imkanlarından tam istifadə etməyə kömək etməkdir. Buna görə korrupsiyaya qarşı tərbiyədə ən məqsədəuyğun üsullar - sinifdə və ya kiçik qrupda müzakirə, hadisənin təhlili, şagirdlərlə müsahibə, debat və rol oynamaqdır. Bunların hamısında müəllim yardımçı olmalı, şagirdləri öyrənməyə həvəsləndirməli və dərsi başa düşməyə kömək etməlidir. İkincisi, tarix, siyasət və ya psixologiya kimi fənlərdən fərqli olaraq, korrupsiyaya qarşı tərbiyədə əsas diqqət faktların öyrənilməsinə yönəlmir. Bu hazırlığın

məqsədi təkcə faktik suala (məsələn, "Dövlət məmurlarının neçə faizi korrupsiyaya meyllidir?", "Korrupsion əməllərə görə hansı cəza verilə bilər?" və s.) cavab axtarmaqdan ibarət deyil. Bu yetərli deyil. Müəllimin əsas qayəsi şagirdlərə mövcud məlumat mənbələrini əldə etməkdə və anlamaqda, yəni faktik məlumat haradan və necə əldə edilə bilər, onun əhəmiyyəti necə müəyyənləşdirilə bilər, məlumatın hansı etibarlıdır, hansı mövqeləri tutmaq olar kimi suallara cavab tapmaqda kömək etməkdir. Şagirdlərdən xahiş etmək olar ki, tutduqları mövqeləri təhlil edib etdikləri seçimi əsaslandırsınlar və digər mövqelərdən nəyə görə imtina etdiklərini izah etsinlər. Bu sualların bir çoxuna *tənqidi düşünməyin öyrədilməsi* üsullarından istifadə edərək cavab vermək olar.

Tənqidi düşünməyin öyrədilməsi metodikası üç-pilləli tərbiyə prosesi nəzərdə tutur. Hazırlıq mərhələsində müəllimin vəzifəsi şagirdləri onların təcrübə toplaması üçün lazım ola bilən hər şeyi öyrənməyə həvəsləndirməkdən ibarətdir. Bu, fəallaşma və işə qoşulma mərhələsidir. İkinci mərhələ - məğzi qavrama mərhələsidir: şagirdlər yeni məlumat və ideyalar alır, bunların mənasını qavrayır. Üçüncü, dərk etmə (refleksiya) mərhələsində həm şagirdlər, həm də müəllimlər əvvəlki iki mərhələdə baş verənləri təhlil edirlər. Onda məlum olur ki, şagirdlər nəyi öyrənib, nəyi hələ öyrənməlidirlər (Tənqidi düşünməyin öyrədilməsi. Nəzəriyyə və təcrübə. Kritinio mastymo ugdymas. Teorija i praktika. - V.: Garnelis, 2001).

Korrupsiyaya qarşı tərbiyə üzrə fərdi proqram tərtib edərkən planın əsas tərkib hissələrinin sxemini həmişə göz qabağında saxlamaq vacibdir. Bu sxem nələr edilməli olduğunu, habelə onun məzmunu və yerinə yetirilməsi formasına nələrin təsir edə biləcəyini göstərir.

HANSI FİKİR ÇATDIRILMALIDIR

▼

EDİLƏN CƏHDLƏR HANSI QRUP ÜÇÜN NƏZƏRDƏ TUTULUR

▼

HANSI DƏYİŞİKLİKLƏR GÖZLƏNİLİR?

▼

NƏZƏRDƏ TUTULAN DƏYİŞİKLİKLƏRƏ NECƏ ÇATMAQ OLAR?

▼

MƏLUMAT HANSI MƏNBƏLƏRDƏN VƏ NƏ CÜR TOPLANMALIDIR?

▼

MƏLUMAT NECƏ TƏQDİM EDİLƏCƏK?

▼

TƏQDİM EDİLMİŞ MƏLUMATIN TƏSİRİ HANSI ÜSULLARLA YOXLANACAQ?

Təbiidir ki, şagirdlər bir-birindən fərqlənir. Birincisi, onlar müxtəlif yaşdadırlar. ***Məktəblilərin orta yaş qrupunda*** əksər uşaqlarda böyüklərin həyat tərzi ilə əlaqələn-

dirilən sahələrin öyrənməsinə ümumi meyl müşahidə olunur. Bu yaşda "böyüklərin həyat tərzinə" doğru ilk addım atılır: uşaqlar siqaretin, spirtli içkilərin dadına baxır və xırda cinayətlər törədirlər. Buna görə çox vacibdir ki, ciddi nəticələri olan seçim etməli olacaqları şəraitə düşəndən əvvəl uşaqların müəyyən istiqamət almaq və öz mövqelərini və münasibətlərini müəyyən etmək imkanı olsun. Bu mərhələdə çox vacibdir ki, şagirdlər öz rollarını tapıb "hə" və ya "yox" deməyi öyrənsinlər.

*Məsuliyyət* və *hörmət* kimi məfhumlara diqqəti cəlb etmək lazımdır. Bundan başqa, şagirdlərdə ictimai qayda-qanuna görə ümumi məsuliyyət hissini aşılamaq lazımdır. Onların ictimai təşəbbüslərin müzakirəsinə cəlb edilməsi də çox vacibdir.

Biz adətən düşünürük ki, ***yuxarı sinif şagirdləri*** daha ümumi və abstrakt fənləri öyrənmək üçün artıq formalaşıblar. Belə təsəvvür, təbii ki, həmin şagirdlərlə əvvəllər dərs vaxtı preventiv işin aparılmasından asılıdır. Başqa sözlə, bu, hər bir şagirddə ən optimal surətdə hərəkət etmək bacarığının nə qədər yaxşı aşılanmasından asılıdır. Bəzən, bu şagirdlər ibtidai və orta siniflərdə oxuyarkən onlarda anlamaq və hərəkət etmək bacarığını aşılamaq məqsədilə aparılmış işi gücləndirmək və hətta təkrar etmək lazım gəlir.

Korrupsiyaya qarşı preventiv tərbiyə adi tərbiyəyə çox oxşayır. Burada şagirdə müəyyən informasiya, məsələn, cinayətin hüquqi aspektləri və ya xüsusi cəhətləri haqqında məlumat verilir. Belə cinayətin nəticələri haqqında biliyin əldə edilməsi və belə cinayətkar davranışa qarşı dəlil tapmaq bacarığı xüsusi preventiv tərbiyə hesab edilir.

## Yuxarı sinif şagirdləri üçün məsləhət görülən tapşırıqların nümunəsi:

- Yerli və ya şagirdlərin ətrafındakı mühitdə cinayətin təbiəti və miqyasının təhlil edilməsi üçün materialın hazırlanması.
- Təhlil üçün nəzərdə tutulmuş məlumatın toplanması, işlənməsi və cinayət haqqında press-relizlər və digər statistik məlumatlarla müqayisəsi.
- Aşağı sinif şagirdləri üçün layihənin planlaşdırılması və həyata keçirilməsi.
- Layihənin həyata keçirilmə tarixinin planlaşdırılması və hazırlanması
- Müxtəlif yaş qruplarının üstünlük verdiyi dəyərlərin təhlil edilməsi.
- Yerli televiziya və ya radio proqramının hazırlanması.
- Rəsm sərgisinin təşkil edilməsi.
- "Müasir gənclik: cəlbedici imkanlar" adlı slayd-şousunun hazırlanması.
- "Cinayətkar: Onu nə gözləyir?" və ya "Cinayətkar: Nə üçün də yox?" mövzusunda videofilmin hazırlanması.
- Xüsusi Təhqiqat Xidməti nümayəndəsinin sinifə dəvət edilməsi. Müzakirə üçün sualların hazırlanması.
- Məhkəmə zamanı çəkilmiş materiala baxışın keçirilməsi.
- Valideynlər üçün "Cinayət - hamının problemi və məsuliyyətidir!" mövzusunda tədbirin hazırlanması və keçirilməsi.

# MƏKTƏBDƏ MÜXTƏLİF FƏNLƏR ÇƏRÇİVƏSİNDƏ KORRUPSİYAYA QARŞI TƏRBİYƏ PRQRAMININ TƏTBİQ EDİLMƏSİNƏ DAİR NÜMUNƏLƏR

## TARİX

## MÖVZU: QƏDİM ROMA RESPUBLİKASI DÖVRÜNDƏ KORRUPSİYA HALLARI

**MÜƏLLİF:** Dayva Truçinskene, Antanas Baranauskas adına Anikşçay orta məktəbinin tarix müəllimi

**SİNİF: 7**

### MƏQSƏD VƏ VƏZİFƏLƏR:

1. Şagirdləri zadəgan Roma respublikası ilə tanış etmək
2. Şagirdlərə göstərmək ki, vəzifəli şəxslər arasında rüşvətxorluq, rüşvət alma və əmlakın mənimsənilməsi qədim zamanlardan mövcuddur
3. Şagirdlərə korrupsiya məfhumunu anlatmaq

### ƏDƏBİYYAT:

- *Setkus B., Pobedinska L.* Senoves istorija: vadovelis 7 klasei. - Vilnius: Kronta, 2000, 42 paragrafas.
- *Plutarchas.* Rinktines biografijos. - Vilnius: Vyturys, 1996.

**ÜSULLAR:** dərslik materialı ilə iş, sənədlərlə iş, rol oynama

### DƏRSİN GEDİŞİ:

Dərsin əvvəlində şagirdlər Roma respublikası hakimiyyəti ilə tanış edilir. Xüsusi olaraq qeyd edilir ki, o, zadəganlar tərəfindən idarə edilirdi. Səlahiyyət, vəzifələrini yerinə yetirmək müqabilində məvacib almayan varlı vətəndaşların əlində cəmləşmişdi.

Lövhədə aşağıdakı sual və tapşırıqlar yazılır:

1. Sənədləri təhlil edərək sübut edin ki, Roma respublikasında korrupsiya var idi. O özünü necə büruzə verirdi?
2. Qanunlara riayət edilməməsi Roma respublikası vətəndaşlarına necə ziyan vururdu?
3. Roma respublikasında yüksək vəzifələr tutan Siseron və Verrusun davranışını müqayisə edin. Onları bu cür davranmağa nə vadar edirdi?

## Şagirdlər üç qrupa bölünür:

1. Bir qrup Siseronun Verrosu ittiham etməyinə aid faktların axtarışı məqsədilə sənədləri oxuyur.
2. İkinci qrup Verrosun davranışını izah edən dəlillər tapmağa çalışır.
3. Üçüncü qrup zərər çəkənlərin kim olduğu və dəyən ziyanın nədən ibarət olduğu haqqında düşünür.

Şagirdlərə məhkəmə prosesinin gedişini rollarda təqdim etmək təklif olunur.

**DƏRSİN XÜLASƏSİ:** Sənədləri təhlil edəndən sonra şagirdlər Verrusun cinayətlərini müəyyən edir. Onlar nəticəyə gəlir ki, Roma respublikasında qanuna riayət edilmirdi, bu da vətəndaşlara zərər vururdu. Şagirdlərə o zamanlar geniş yayılmış vəzifədən sui istifadə, əmlakın mənimsənilməsi və rüşvətxorluq haqqında danışılır.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Qeyd edilir ki, korrupsiya qədim Roma dövründən bəri mövcuddur. Onun dövlət xadimlərinin həyatına göstərdiyi təsir, habelə cəmiyyətə və dövlətə vurduğu ziyan göstərilir.

**ƏLAVƏLƏR:**

**Mənbə A:** Plutarx Siseron haqqında:

"Onun əmlakı, ehtiyaclarını ödəmək üçün yetərli olsa da, kiçik idi və buna görə adamlar təəccüblənirdi ki, nə üçün vəkil kimi göstərdiyi xidmətlərə görə nə pul, nə də bəxşiş götürmür, ələlxüsus Verrusun məhkəmə işini apardığı zaman. Siciliyanın pretoru olan və bir çox çirkin əməllərinə görə siciliyalılar tərəfindən məhkəməyə vermilmiş bu insanın günahkar olduğunu Siseron nitq söyləməklə deyil, əslində, demək olar ki, nitq söyləməməklə sübut etmişdir. Verrusa yaltaqlanan pretorlar işə baxılmanı axırıncı günə qədər uzatdılar, ona görə ki, vəkillərin çıxışları üçün bir günün yetərli olmayacağını və beləliklə işi sona çatdırmaq mümkün olmayacağını bilirdilər. Amma Siseron ayağa qalxaraq dedi ki, nitqlərə ehtiyac yoxdur, şahidləri dəvət etdi və dindirdi, sonra isə hakimlərə səs verməyi təklif etdi. <…>".

*Plutarchas.* Rinktines biografijos. - Vilnius: Vyturys, 1996, səh.140.

**Mənbə B:**

Siseronun Verrusa qarşı nitqindən:

"Bu insan pretor olduğu dövrdə siciliyalılar nə öz qanunlarından, nə bizim Senatın qərarlarından, nə də hər bir millətə xas olan adi hüquqlardan faydalana bilirdi. Siciliyada hər bir kəsin əlində qalan yalnız o şeylər idi ki, sonsuz dərəcə tamahkar və özbaşına bu insanın gözündən yayınmış və ya diqqətinə layiq olmamışdır. Üç il ərzində bütün məhkəmə qərarları yalnız onun qaşının tərpənişi ilə qəbul olunurdu, heç bir kəs öz əmlakından arxayın ola bilmirdi, bu əmlak ona atasından ya babasından irsən keçmiş olsa belə, hər şey Verrusun əmri ilə onun əlindən alınırdı <…>, ən qatı canilər rüşvət verərək məhkəmə məsuliyyətindən azad edilirdi; ən hörmətli və son dərəcə səxavətli insanlar isə qiyabi qaydada ittiham

edilərək məhkum olunur və sürgün edilirdi və onlardan daha heç bir xəbər gəlmirdi".

*Plutarchas.* Rinktines biografijos. - Vilnius: Vyturys, 1996, səh.300.

---

## MÖVZU: ROMA RESPUBLİKASINDA HAKİMİYYƏT FORMASI

**MÜƏLLİF:** İrena Lizdeniene, Majeyk "Venta" orta məktəbinin tarix müəllimi

**SİNİF: 11**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Roma respublikası hakimiyyət quruluşu sxeminə əsaslanaraq respublikada hakimiyyət sistemini, senat və digər vəzifəli şəxslərin dövlətdə rolunu, plebeylərlə patrisilər arasında mübarizənin səbəblərini müəyyən etmək.
2. Roma respublikasının nə üçün zadəgan hesab edildiyini əsaslandırmaq.
3. Təqdim edilmiş məlumat əsasında romalıların vəzifə əldə etmək üsullarını, bu adamların kim olduğunu, onların hansı dəyərlərə üstünlük verdiklərini açıqlamaq, onların fəaliyyətindən dövlətə, cəmiyyətə dəyən ziyanı göstərmək, belə vəzifəli şəxslərin aqibəti haqqında danışmaq.

**DƏRS VƏSAİTLƏRİ:**

- Roma respublikası hakimiyyət quruluşu sxemi, dövlət məmurlarının fəaliyyəti haqqında materiallar.
- Qay Valeri Busikum və onun oğlu Kiçik Qayın həyat və fəaliyyəti haqqında müəllimin hazırladığı materiallar.
- Dərsliklər:

*Bakonis E., Janusas J.* Lietuva ir pasaulis: istorijos vadovelis 11 kl. - Kaunas: Sviesa, 2001.

*Bakonis E.* Senoves civilizaciju istorija: mokomoji knyga 11 kl. - Kaunas: Sviesa, 1992.

**ÜSULLAR:** izah, təhlil, qısa rol oynama və onun əsasında müzakirə

**DƏRSİN GEDİŞİ:**

1. Romanın nə zaman və hansı şəraitdə respublika olmağı xatırladılır.
2. Roma respublikası hakimiyyət quruluşu sxemi və dövlət məmurlarının fəaliyyəti haqqında materiallar şagirdlərə təqdim olunur. Bunların əsasında şagirdlər müəllimlə birlikdə hakimiyyət formasını müzakirə edir.
3. Plebeylərlə patrisilər arasındakı mübarizənin səbəbləri və nəticələri müzakirə edilir.
4. Şagirdlərə aşağıdakı suallar verilir:

- Dövlətdə konsulun və xalq tribununun rolu nədən ibarət olub?

• Kiçik Qay hansı yolla vəzifəsində irəliləməyə çalışırdı? O, konsul olmağa necə nail oldu?
• Kiçik Qay nə üçün korrupsiyaya qarışdı? Bu özünü nədə büruzə verdi? Şagirdlərin korrupsiyanı nə cür anlamağı müəyyən edilir.
• Bu insanın aqibəti nə oldu? Sizcə, bu nə üçün belə oldu?
• Ata üçün hansı dəyərlər vacib idi və oğul nə üçün bunların üstündən keçdi?
• Kiçik Qay hakimiyyəti dövründə kimə ziyan vuruldu?

5. Şagirdlərin kiçik qrupu evdə hazırlanmış rolları oynayır.
6. Rol oynanmasından əvvəl şagirdlərə verilmiş tapşırıqlar əsasında müzakirə aparılır.
7. Nəticələr çıxarılır, Roma respublikasının zadəgan xarakteri vurğulanır.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Sübutlar gətirilir ki, korrupsiya qədim dövrlərdən bəri mövcuddur. Onun dövlət xadimlərinin həyatına göstərdiyi təsir, habelə cəmiyyətə və dövlətə vurduğu ziyan göstərilir.

**ƏLAVƏ:**

Gay Valeri Busikum Cənubi İtaliyada, zeytun yağı ticarətilə məşhur olan bir şəhərdə anadan olub. Onun ailəsi də bu işlə məşğul idi və bu işi uğurla inkişaf etdirirdi. İllərlə hakimiyyətdə olan atası Böyük Qay konsul seçildi. Böyük Qay hörmətli və namuslu konsul idi. Onun konsul olduğu dövrdə Romada sülh və əmin-amanlıq hökm sürürdü. O, əvvəllər düşmən hesab etdiyi dövlətlərlə bir sıra sülh müqaviləsi imzalayıb. O istəyirdi ki, onun oğlu da möhtərəm hökmdar olsun, amma Kiçik Qay öz aqressivliyi və səbirsizliyi ilə məşhur idi. Boş-boşuna itirdiyi bir neçə ildən sonra Kiçik Qay hakimiyyət sahibi olmaq və atasının yolunu davam etdirmək qərarına gəldi. Amma o, atası qədər gözləmək istəmirdi, buna görə də yaxşı vəzifə tutmaq üçün atasının nüfuzundan istifadə etməyə çalışdı. Əvvəlcə o, tribun yerini tutmaq istədi, lakin cəfəng çıxışları və cürbəcür çağırışlarına görə özünü gülünc vəziyyətə qoydu. O zamanlar, fövqəladə vəziyyət yarananda tribunlar günün istənilən vaxtı, hətta gecə də çağırıla bilərdi. Tribunlara ali hakimiyyət qərarlarını dayandırmaq səlahiyyəti verilmişdi. Amma onlara Romanı tərk etməyə icazə verilmirdi, bu şərt isə Kiçik Qayı təmin etmirdi, ona görə o, tribun vəzifəsini əldə etmək qərarından çəkindi. Bir neçə ildən sonra ona İtaliyanın bir əyaləti, Siciliyanı idarə etmək tapşırıldı. Amma sarsaq danışığı və cəhalətinə görə tezliklə bu vəzifədən azad edilib Romaya qayıtdı. Romaya dönəndən sonra konsul yerini tutmaq fikrinə gəldi. Konsullar iclas çağırmaq hüququna malik idilər. Atası Böyük Qayın ölümündən sonra onu əvəz edə bilən şəxs tapmaq romalılar üçün çox çətin idi. Kiçik Qay nəyin bahasına olursa olsun bu vəzifəni tutmaq üçün əlindən gələni edirdi. Xalqın dəstəyinə ehtiyacı olan Qay konsul seçilən gündən adamlara var-dövlət və firavan həyat təmin edəcəyini vəd edirdi. Nəhayət üç ildən sonra Qay Valeri Busikum konsul seçildi, Roma vətəndaşları isə onun vəd etdiyi yardımı gözləyirdi. Mövqeyini daha da bərkitmək üçün Qay senatorun qızı Tiperiya ilə evləndi. Bir müddətdən sonra dövlət xəzinəsini idarə edən kvestorlarla birlikdə Busikum korrupsiyaya qa-

tıldı. Onlar əsgərlər üçün nəzərdə tutulan vəsaiti iki dəfə azaldıb Roma vətəndaşlarından yığılan vergiləri artırdı. Romanın düşmənlərdən hərb yolu ilə aldığı torpaqları Qay gizlicə həmin düşmənlərə satırdı. O, Roma vətəndaşlarına tam azadlıq verilməsinin əleyhinə idi. Romada xeyli vaxt idi ki, var-dövləti vətəndaşlar arasında bərabər şəkildə bölüşdürərək varlılarla yoxsullar arasındakı dərin əmlak bərabərsizliyini aradan qaldırmaq fikri var idi. Qay buna imkan vermədi və bununla varlıların güclü himayəsini qazandı. Qay Valeri Busikum korrupsiya vasitəsilə var-dövlət əldə etdi, amma bununla bərabər xalqın inamını itirdi. Nəhayət, Roma əyalətlərində üsyanlar başlandı, insanlar öz hüquqlarını bərpa etməyə çalışırdı. Tezliklə Qay üsyançılar tərəfindən öldürüldü, onun yerinə seçilən yeni konsul isə əvvəlki qanunları bərpa etdi və Roma vətəndaşlarının azadlığı uğrunda mübarizə apardı.

University College Dublin: The lives of Busicum and Gorius. -
www.ucd.ie/~classics/thirdyear/ancbiogr.htm

---

## **MÖVZU:** ROMA İMPERİYASININ QÜDRƏTİ

**MÜƏLLİF**: Edita Qalinaitite, tarix müəllimi, Panevejis şəh. 9 №-li orta məktəbinin metodisti

**SİNİF: 7**

**MƏQSƏD:**

1. Roma İmperiyasının qüdrətinin xüsusiyyətlərini və zəif cəhətlərini izah etmək.

**VƏZİFƏLƏR:**

1. Avqust Oktavian hakimiyyəti dövründə Roma İmperiyasında baş verən dəyişiklikləri və onun Senata təsirini təhlil etmək.
2. Roma İmperiyasında hakimiyyətin mənfi xüsusiyyətlərini açıqlamaq: vəzifələrin satın alınması, insanların namussuzluğu, vəzifəli şəxslərin məsuliyyətsizliyini açıqlamaq.

**ƏDƏBİYYAT:**

- Setkus B., Pobedinska L. Senoves istorija, vadovelis 7 klassei/ - Vilnius: Kronta, 2000.
- Senoves istorijos chrestomatija. - Kaunas, Sviesa, 1983.

**ÜSULLAR:** müqayisə, təhlil, qruplarda iş, mənbələrlə iş.

**DƏRSİN GEDİŞİ:**

1. Təkrar: Roma Respublikasında hakimiyyət.
2. Roma Respublikası ilə Roma İmperiyasında hakimiyyət müqayisə edilir.

Dərsliyin 187-ci və 203-cü səhifələrdə təqdim edilən sxemlərdən istifadə edilir.
3. Təkrar: Roma Respublikası dövründə senatın vəzifələri.
4. Şagirdlər beş nəfərdən ibarət qruplara bölünür.
5. Şagirdlər mənbəni oxuyur və suallara cavab verir:
- Respublika dövrü ilə müqayisədə Roma İmperiyası zamanı senatın təşkiledilmə qaydaları necə dəyişildi?
- Senatın bu cür təşkil edilməsi kimə və nəyə görə sərf edirdi?
- İmperiya dövründə senatın rolu nəyə görə azaldı?
- İmperiya dövründə senatın təşkiledilmə qaydaları haqqında romalılar nə fikirdə idi? Nəyə görə?
- Senatın bu cür təşkil edilməsi Roma cəmiyyətinə necə ziyan vururdu?
- Oktavian Avqust öz hakimiyyətindən nə cür sui istifadə edirdi?

6. Mənbə, dərslik mətni və yuxarıdakı suallara verilmiş cavablara əsaslanaraq şagirdlər Roma imperiyası dövründə senatın təsirinin dəyişməsi və imperator rolunun artması haqqında nəticələri səsləndirirlər.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Respublika və impeiyada hakimiyyəti müqayisə edərək şagirdlər respublika hakimiyyətinin mənfi cəhətlərini müəyyən edir. Nəticələr çıxararaq "post-mortum" ("ölümündən sonra") senatorların hakimiyyətinin dövlətə niyə mənfi təsir göstərməyi haqqında suala cavab verirlər. Roma imperiyasında hökm sürən senator rüşvətxorluğuna mənfi münasibət yaradırlar.

**ƏLAVƏ**

"Senat çoxdandır ki, böyüyüb nizamsız bir kütləyə çevrilmişdi - onun mindən artıq üzvü var idi, bunların arasında ən nalayiq adamlar da var idi ki, bunlar Sezarın ölümündən sonra ya tanışlıqla, ya da rüşvət verməklə qəbul edilmişlər. Xalq bunları "ölümündən sonrakı" senator adlandırırdı."

Senoves istorijos chrestomatiya. - Kaunas, Sviesa, 1983.

---

## MÖVZU: AVROPADA REFORMASİYA

**MÜƏLLİF**: Edita Qalinaytite, tarix müəllimi, Panevejis şəh. 9 №-li orta məktəbinin metodisti

**SİNİF: 8**

**MƏQSƏD:**

1. Şagirdlərdə mənbələri təhlil etmək və nəticələr çıxarmaq bacarığını aşılamaq.

**VƏZİFƏLƏR:**

1. İmperiya knyazlarının Almaniya imperatorunun hakimiyyətinə göstərdikləri təsiri təhlil etmək.

2. “Simoniya” məfhumunun mənasını müəyyən etmək.
3. Avropada reformasiya səbəblərini təhlil etmək.
4. İmperator hakimiyyətinin zəifliliyi səbəblərini müəyyən etmək.

**ƏDƏBİYYAT:**

- Pasaulio ir Lietuvos istorija. VI-XVIII amziai: vadovelis 8 klassei. - Vilnius: Kronta, 2002.
- Viduriniu amziu chrestomatija. D. 2. - Kaunas, Sviesa, 1977.

**ÜSULLAR:** qruplarda iş, mənbələrlə iş.

**DƏRSİN GEDİŞİ:**

1. Şagirdlər qruplara bölünür.
2. Dərslik mətninə (səh. 39) əsaslanaraq Almaniya imperiyasında imperator hakimiyyətinin formalaşması prosesi yada salınır.
3. Şagirdlər mənbəni oxuyur və suallara cavab verir:
   - Almaniya imperatoru Roma Papasından hakimiyyəti necə aldı?
   - Roma Papasına kim və nə üçün pul verirdi?
   - Almaniya imperatoru hakimiyyətinin zəifliyinin səbəbi nə idi?
   - Almaniya imperiyasında hakimiyyətin bu cür təşkil edilməsinə Almaniya əhalisi necə baxırdı?
4. Yuxarıdakı suallara verilmiş cavablara əsaslanaraq şagirdlər Almaniya imperiyasında mənfi hallar haqqında mümkün qədər çox nəticə səsləndirirlər.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Almaniyada hökm sürən məmur və kilsə xadimlərinin rüşvətxorluğuna qarşı mənfi münasibət yaranır.

**ƏLAVƏ:**

“Sizin başınıza Roma tacını qoymaq üçün, mənə və yəqin ki, yalnız mənə etibar edən bəzi knyazlar qarşısında biz üzərimizə öhdəlik götürmüşük; biz sizin komissarlarınıza, əsasən öz dostlarımızdan əldə etdiyimiz böyük məbləğdə nağd pul vermişik. Aydın məsələdir ki, mənim köməyim olmasa idi Zati-Aliniz Roma tacını ala bilməzdi”.

Viduriniu amziu chrestomatija. D. 2. - Kaunas, Sviesa, 1977.

---

## MÖVZU: İKİ XALQ RESPUBLİKASINDA ZADƏGAN HÖKMRANLIĞI

**MÜƏLLİF**: İrena Lizdeniene, tarix müəllimi, Majeyk “Venta” orta məktəbinin metodisti

**SİNİF: 8**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. İki Xalq Respublikasında zadəgan mövqelərinin möhkəmlənməsinin nədən başlanmasını və bunun əsasını hansı sənədlər təşkil etdiyini izah etmək.
2. Y. Quşasın "Rekviem bajorams" ("Zadəganlığa rekviyem") əsərindən parçalar əsasında zadəgan hüquqları genişlənməsinin dövlət inkişafına mənfi təsirini açıqlamaq.
3. Şagirdlər özbaşınalıq, qanun pozuntusu, qruplaşmalar yaradılmasının dövlətə vurduğu ziyanı əsaslandırmalıdır.

**ƏDƏBİYYAT:**

- Pasaulio ir Lietuvos istorija. VI-XVIII amziai: vadovelis 8 klassei. - Vilnius: Kronta, 1999.
- Rekviem bajorams // *Grusas J.* Rastai. T. 2. - Vilnius, Vaga, 1980.

**ÜSULLAR:** izah, dərslik mətni ilə iş, bədii ədəbiyyatdan parçalarla iş, qruplarda iş.

**DƏRSİN GEDİŞİ:**

1. Lyublin Uniyasının nə zaman və hansı şəraitdə imzalanması, onun şərtləri və nəticələrinin qısa təkrarı.
2. Jigimantas Augustasın ölümündən sonra İki Xalq Respublikasındakı vəziyyətin dərslik materialı əsasında təhlili.
3. Henrix Valua tərəfindən zadəgənlara verilən vədlərin təhlili, *pacta conventa* və *liberum veto*-nun qüvvəyə minməsi.
4. Sinif dörd qrupa bölünür. Hər qrupa Y. Qruşasın "Rekviem bajorams" əsərindən bir parça təqdim edilir.

   Tapşırıqlar:
   - Zadəgan hökmranlığı, ələlxüsus *liberum veto* hüququ dövləti gücləndirirdimi?
   - Hakimiyyətə can atan zadəgənlar hansı üsullardan istifadə edirdi?
   - Zadəganlar öz aralarında münasibətləri nə cür qururdu?
   - Zadəgan hökmranlığı o dövrün dövləti və cəmiyyətinə necə ziyan vururdu? Zadəganlar hansı dəyərləri tapdaladı?
   - Belə dövlətdə kral hakimiyyəti haqqında nə deyə bilərsiniz?
5. Müzakirədən sonra şagirdlər belə nəticəyə gəlir ki, zadəgan hökmranlığı İki Xalq Respublikasının zəifləməsinə gətirən səbəblərdən biri idi.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** XVIII əsrdə İki Xalq Respublikasında müxtəlif korrupsiya halları açıqlanır. Bunun dövlətin dağılmasına gətirib çıxarması haqqında fikir vurğulanır.

---

## MÖVZU: IKI XALQ RESPUBLIKASI: DÖVLƏTİN SÜQUTU, ZADƏGANLARIN ANARXİYASI

**MÜƏLLİF**: Daiva Truçinskiene, Antanas Baranauskas adına Anikşçay orta məktəbin tarix müəllimi

**SİNİF: 8**
Bütün dərs bu mövzuya həsr olunur

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Şagirdləri İki Xalq Respublikasının zəifləməsi səbəbləri ilə tanış etmək.
2. Konkret misalları təhlil edərək Böyük Litva Knyazlığında artıq XVII-XVIII əsrlərdə korrupsiya, zadəganlıq özbaşınalığı, sərxoşluğun hökm sürməyini və bunun dövlətdə böyük qarışıqlıq yaratmağını və dövlətin nüfuzunu aşağı salmağını göstərmək.
3. Zadəgan hüquqlarının dövlətin inkişafına mənfi təsirini açıqlamaq.

**ƏDƏBİYYAT:**

- Pasaulio ir Lietuvos istorija. VI-XVIII amziai: vadovelis 8 klassei. - Vilnius: Kronta, 1999, 51-ci bənd.
- Lietuvos istorija. - Vilnius, Mokslas, 1989.

**ÜSULLAR:** fikir mübadiləsi, sənədlərlə iş, cədvəlin doldurulması.

**DƏRSİN GEDİŞİ:**

1. Lyublin Uniyası nə zaman və hansı şəraitdə imzalandığını, Lyublin Uniyasından sonra Litva dövlətçiliyinin özünü nədə göstərdiyini xatırlamaq.
2. Dərslik materialları və sənədlərdən istifadə edərək göstərilir ki, İki Xalq Respublikasının qarşılaşdığı çətinliklərin səbəblərindən biri kral hakimiyyətinin zəifliyi idi.
3. Fikir mübadiləsi zamanı şagidlərə aşağıdakı sual verilir:"Cəmiyyətdə baş verən hansı halları siz "korrupsiya" məfhumu ilə əlaqələndirirsiniz?" Şagirdlərin cavabları lövhədə və ya böyük kağızda yazılır (bu, rüşvət alma, vəzifədən sui istifadə, namussuzluq, dövlət vəsaitinin dağıdılması, rüşvət vermə və s. məfhumlar ola bilər.)
4. Xatırladılır ki, yuxarıda göstərilən hallar Böyük Litva Knyazlığında da baş verirdi, xüsusən də Lyublin Uniyasından sonra.
5. Şagirdlər 4-5 nəfərdən ibarət qruplara bölünür və onlara aşağıdakı tapşırıqlar verilir:
    - kral hakimiyyətinin zəifləməsini hansı faktlar sübut edir;
    - mənbələri təhlil edərək korrupsiya məfhumu ilə bağlı problemləri seçin;
    - bu çatışmazlıqların səbəblərini müəyyən etməyə çalışın;
    - zadəgan özbaşınalığı və "veto" hüququnun mövcudluğu dövlətə nə cür ziyan vururdu;
    - zadəganlar öz aralarında münasibətləri necə həll edirdi.
6. Cədvəllərlə iş zamanı şagirdlər cədvəl doldura bilər (bax: Əlavə)

**NƏTİCƏ:** Zadəganların özbaşınalığı və hökmranlığı İki Xalq Respublikasının süqutu səbəblərindən biri idi.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** XVIII əsrdə İki Xalq Respublikasında müxtəlif korrupsiya halları aşkar edilir və onların dövlətin süqutuna təsiri göstərilir.

**ƏLAVƏ**

**Mənbə A:**

"<…> Respublikada kralın heç bir hakimiyyəti yox idi. Ümumiyyətlə mərkəzin kiminsə tərəfindən sayılan heç bir hakimiyyəti yox idi. Nəzəri baxımdan burada bütün hakimiyyət vətəndaşların, yəni zadəganların, öz əlində idi, amma əslində onlar heç nəyə qadir deyildi. Hakimiyyət bir-birilə müharibə edən və bir-birinə üstün gələ bilməyən əyanların əlində idi, buna görə aşağı seymlər (nümayəndələr palataları) bir-birinin ardınca dağılır və ölkədə heç bir hakimiyyət yox idi; belə olan halda yadların rüşvətxorluğu və əyanların özbaşınalığı üçün yol açıq idi<…>

<…> Zadəganlar daxil olmaqla əyanlar yalnız kef çəkməyi və əyyaşlıq etməyi öyrənmişdi. <…> Zadəganlar arasında ən çox şöhrət qazanan, sərxoş olmadan hamıdan çox içməyi bacaranlar idi. Hər şənlikdə ev sahibinin vəzifəsi, hər bir qonağın evi tərk edərkən qulluqçular tərəfindən yardımsız yeriyə bilməməyində əmin olmaqdan ibarət idi."

Lietuvos istorija. - Vilnius: Mokslas, 1989

**Mənbə B:**

" …Aşağı seymlər. Siyasi həyat aşağı seymlərdə keçirdi. Burada hansı əyanın daha qüdrətli olduğu, hansını isə Seym və ya tribunalda çətinliklər gözlədiyi müəyyən edilirdi. Buna görə əyanlar zadəganları öz tərəfinə çəkməyə çalışırdı. Bunu isə yalnız daimi himayə və qonaqlıqlarla etmək olurdu. Elə bu məqsədlə də aşağı seymlərə ətraf kəndlərdən çoxlu müflisləşmiş xırda zadəganlar - şlyaxta - gətirilirdi, çünki əyanlar kimi, onların da səsvermə hüququ, ən başlıcası isə zadəganlıq əlaməti olan qılıncı var idi ki, istənilən vaxt ondan öz hamilərinin və ya daha çox pul verənin tərəfini saxlamaq üçün istifadə edə bilərdilər."

Lietuvos istorija. - Vilnius: Mokslas, 1989

**Mənbə C:**

"Seymlər. Aydın məsələdir ki, aşağı seymlərə bu qədər müflisləşmiş şlyaxta gətirmək imkanı yalnız burada qərar qəbul edilərkən səsvermə nəticələrinə təsir göstərə bilən əyanlarda var idi. Buna görə orta səviyyəli zadəganlar da əyanların ətrafında dolaşmalı idilər, əks təqdirdə onlar xeyli zərər çəkə bilərdi. Beləliklə, aşağı seymlərə yalnız əyanların istədiyi nümayəndələr seçilə bilirdi. Bəzi əyalətlərdə bir əyan daha güclü idi, digərlərində başqası, buna görə onların nümayəndələri aşağı seymlərdə toplaşanda, təbii ki, öz aralarında heç bir razılığa gələ bilmirdilər. Həmişə bir nəfər tapılırdı ki, *"veto"* desin və bununla seym dağılmalı ol-

sun. Bununla belə, bu qayda əsl azadlıq adlanırdı. Əyanlar onu yüksək qiymətləndirir, dəyişdirilməməsini təmin edirdilər, çünki yalnız belə qayda-qanun şəraitində hər kəs ***özünün dəyərli olduğunu və qazanc əldə edə biləcəyini hiss edirdi***."

Lietuvos istorija. - Vilnius: Mokslas, 1989

**CƏDVƏL:** Lyublin Uniyasından sonra Böyük Litva Knyazlığında korrupsiya halları

| Korrupsiya halları | Korrupsiya halını doğuran səbəb | Böyük Litva Knyazlığı üçün korrupsiyanın nəticələri |
|---|---|---|
| Rüşvət vermə və alma | Öz mənafelərinə cavab verən qanunlar qəbul etmək istəyi | Qanunlar Respublika vətəndaşlarının yalnız bir hissəsinin mənafelərini qoruyurdu |
| Və s. | | |

## MÖVZU: LITVADA QEYRİ-QANUNİ MƏTBUAT YAYIMI

**MÜƏLLİF**: İrena Lizdenene, Majeyk orta məktəbinin tarix müəllimi

**SİNİF: 9**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Rus məmurlarının mövqeyini, gizli kitabdaşıyanların fədakarlığı və bacarığını, qeyri-leqal mətbuatın yayımı üsullarını açıqlamaq, kitab yayımı ilə məşğul olan cəmiyyətlərin fəaliyyətini işıqlamaq.
2. Şagirdlərdə faktları müstəqil təhlil etmək və qiymətləndirmək bacarığını aşılamaq.

**ƏDƏBİYYAT:**

- "Qeyri-leqal Litva mətbuat yayımı" xəritəsi.
- Cədvəllər:
  a) gömrükxanada saxlanılmış Litva kitablarının sayı;
  b) 1887-1897-ci illərdə Qarşviay kitabdaşıyanlar cəmiyyəti tərəfindən yayılan kitabların xarakteri haqqında (*Tyla A*. Garsviau knygnesiu draugija. - Vilnius: Mintis, 1991, s. 34);
- Kitabdaşıyan Y. Belinisin fəaliyyəti haqqında sənədlər. (1864-1904 m.- Vilnius: Valstybinis leidybos centras, 1992, səh. 50-51);
- Kitabdaşıyan Vaicekauskasın fəaliyyəti haqqında sənədlər.
- "1864-1904-cü illərdə Litva məktəbi" ("Qəmgin məktəb") adlı heykəltaraşlıq əsərinin şəklinin nümayişi.

Brazauskas J. Naujuju amziu istorija: nuo Didziosios prancuzu cijos iki Pirmojo pasaulinio karo pabaigos: vadovelis 9 klassei. - Vilnius: Kronta, 1999.

**ÜSULLAR:** izah; xəritə, cədvəl, mənbələr, əyani vəsaitlərlə iş.

**DƏRSİN GEDİŞİ:**

1. Litva mətbuatının qadağan edilməsi səbəbləri haqqında məlumatın təkrarı.
2. Xəritə vasitəsilə Prussiyada qeyri-leqal Litva mətbuat mərkəzləri və bu mətbuatın Litvada yayım üsulları öyrənilir.
3. Kitabdaşıyanlar cəmiyyətlərinin fəaliyyəti
4. Ən yaxşı kitabdaşıyanların fəaliyyəti, onların xalq yolunda canlarından keçməyi. Y. Belinisin fəaliyyəti haqqında sənədlər təqdim edilir (burada jandarmlara rüşvət verilməsindən danışılır); tapşırıqlar verilir:
   - Y. Belinis nə üçün uryadnika və pristavın arvadına rüşvət verdi?
   - O, özü üçün hər hansı qazanc əldə etməyə çalışırdımı?
   - O vaxtın rus məmurları haqqında nə deyə bilərsiniz? Onlar hansı fikirlə rüşvət alırdı? (XIX əsrdə rus məmurları hesab edirdi ki, məvaciblərini yalnız çar üçün gördükləri işə görə alırlar, sadə vətəndaşların xeyrinə bir qərar qəbul etməklərinə görə isə ayrıca bəxşiş düşür).
   - Kimin davranışı kimə ziyan verirdi?
   - Y. Belinis üçün hansı dəyərlər mühüm idi? Bunlar rus məmurları üçün mühüm idimi?
5. Majeyk əyalətində kitabdaşıyanların fəaliyyəti (Şagirdlərin çıxışları əvvəlcədən hazzırlanmış materiallara əsaslanır).
6. Mövzunun xülasəsi.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Rusiya imperiyası məmurlarının həyatında rüşvətin korrupsiya elementi kimi rolu açıqlanır. Dövlətin nüfuzuna vurulan ziyan vurğulanır.

**ƏLAVƏ**

Y. Belinis haqqında mətn, bax: səh. 120.

---

## MÖVZU: SOYUQ MÜHARİBƏ DÖVRÜNDƏ SSRİ-nin İNKİŞAFI

**MÜƏLLİF**: Layma Maminskiene, Vayjqantas adına Radvilişkis gimnaziyasının tarix müəllimi və metodisti

**SİNİF: 12,** tarix fənnindən ixtisaslaşan şagirdlər

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. SSRİ-nin misalında XX əsrin ikinci yarısında totalitar ölkələrin əsas inkişaf xüsusiyyətlərini açıqlamaq.
2. Lətifələrin təhlili zamanı Sovet İttifaqının inkişafı haqqında aşağı siniflərdə əldə edilmiş biliklərə əsaslanmaq.
3. Şagirdlərdə:
   - Sovet hakimiyyətinin müxtəlif dövrlərinə xas olan problemləri müqayisə etmək;

- bunları şagirdlərin özləri müəyyən etdiyi meyarlara uyğun olaraq təsnif etmək;
- soyuq müharibə dövründə SSRİ-nin sosial, təsərrüfat, siyasi inkişafını qiymətləndirmək;
- sovet dövrü problemlerini Litvanın bugünkü problemlərilə əlaqələndirmək bacarığını inkişaf etdimək.

4. Müxtəlif tarixi dövrlər üçün səciyyəvi olan korrupsiya problemini vurğulamaq, fəal, korrupsiya ilə barışmaz şəxsiyyət tərbiyə etmək.

**ƏDƏBİYYAT:**


- Lietuva ir pasaulis: istorijos vadovelis 12 klasei.- Kaunas: Sviesa, 2001, bənd 39.
- Zemaiçiuos girdeti anekdotai. - Taurage: Tauragiskiu balsas, 1992, c.8.
- 815 anekdotu apie valdzia, valdyma ir verslininkus.-Vilnius: Mintis, 1992.
- Naujausiuju laiku istorijos pratybu sasiuvinis 10 kl. - Vilnius: pradai, 1998, səh. 34.


**ÜSULLAR:** kiçik qruplarda iş, mənbələrlə (anekdotlarla) iş, müqayisə, təhlil, qruplarda müzakirə, qrupların hazırladığı məlumatlar.

**DƏRSİN GEDİŞİ:**

1. Şagirdlər 5 müxtəlif rəngdə kartlardan ibarət topadan çəkdikləri kartlara müvafiq olaraq 5 qrupa bölünür.
2. Hər qrupa Sovet İttifaqında mövcud olan müxtəlif problemlərə aid 9-10 lətifə paylanır (problemlərin adı çəkilmir):
   - I qrup: iqtisadi problemlər (ekstensiv təsərrüfat, geridə qalmış texnologiyalar, ehtiyatlardan səmərəsiz istifadə, aşağı keyfiyyət, geriləyən kənd təsərrüfatı və s. haqqında lətifələr);
   - II qrup: sosial problemlər (sərxoşluq, oğurluq və s. haqqında lətifələr);
   - III qrup: güclü bürokratiya (iş yerlərinin şişirdilmiş sayı, səriştəsiz dövlət qulluqçuları, süründürməçilik və s. haqqında lətifələr);
   - IV qrup: korrupsiya (rüşvətxorluq, nomenklatura imtiyazları, dövlət əmlakının oğurlanması və s. haqqında lətifələr);
   - V qrup: təşviqat və reallıq arasında ziddiyətlər (baş verməyən "qələbələr", partiyanın və rəhbərlərin mədh edilməsi və s. haqqında lətifələr).
3. Tapşırıq: Qrupda oxunuş və müzakirədən sonra qrupa təqdim edilmiş lətifələri birləşdirən problemin adını çəkmək.
4. Qruplar problemlərin adını çəkəndən sonra onlara üzərində tapşırıqlar yazılmış vərəq verilir ki, bu tapşırıqlara əsasən qruplar müzakirədən sonra qısa məruzə yazsın.

**IV QRUP ÜÇÜN TAPŞIRIQ VƏRƏQİ:**

- Lətifələrin əsasında Sovet İttifaqında korrupsiya özünü necə büruzə verdiyini müəyyən edin.

- Sovet İttifaqı əhalisinin hansı təbəqələrini korrupsiya ilə əlaqələndirmək olar? Ən yuxarı vəzifələri tutanlardan başlayaraq ardıcıllıqla bunları sayın.
- Sovet İttifaqı haqqında lətifələrin arasına səhvən bir başqa lətifə düşüb: bu lətifə nə Sovet dövründə yaranıb, nə də Sovet dövrünü əks etdirir. Bu, hansı lətifədir? Seçiminizi əsaslandırın.
- Sovet dövrünə aid lətifələrdən hansılar bugünkü Litvaya da şamil edilə bilər? Niyə?

5. Qruplar məruzələrini təqdim edir.
6. Məruzələr əsasında bütün sinif XX əsrin ikinci yarısında Sovet İttifaqında mövcud olan problemlər haqqında nəticələr çıxarır; bunlardan hansıların post-kommunist ölkələrində (Litva timsalında) bu gün də hökm sürməyini təhlil edir.
7. Evə tapşırıq:
   - Sinif işi haqqında düşünərək Sovet dövrü cəmiyyətinin dərsdə müzakirədən kənar qalmış 2-3 problemini qeyd etmək;
   - Müzakirə edilmiş məsələlərə aid lətifələr axtarmaq.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Dərs SSRİ məmurlarının mentalitet xüsusiyyətlərini, korrupsiyanın gündəlik həyatda qanuniləşdirilməsini açıqlayır. Bu, bir tərəfdən, post-sovet təfəkküründən miras qalmış düşüncə tərzini daha yaxşı anlamağa, digər tərəfdən isə SSRİ-nin dağılmağından sonra cəmiyyətin nə qədər dəyişməsini qiymətləndirməyə kömək edir.

**ƏLAVƏ**

**Korrupsiya haqqında lətifələr**

Sovet İttifaqı Kommunist Partiyasının Baş Katibi ABŞ-da qonaqdır. Onun üçün böyük ziyafət verilir.

- Bu cür təmtəraqlı qəbul üçün vəsait haradandır? - qonaq maraqlanır. ABŞ Prezidenti onu pəncərəyə doğru apararaq soruşur:
- O körpünü görürsünüz?
- Görürəm.
- Məsələ də bundadır. Bu körpünün tikilməsində bir az qənaət edilib.

Bir ildən sonra ABŞ Prezidenti Sovet İttifaqına gəlir. Ömründə çox şey görsə də, ziyafətin miqyası onu təəccübləndirir. Sovet İttifaqının başçısı onu pəncərəyə doğru aparır:

- Orada körpü görürsünüz?
- Yox, görmürəm.
- Məsələ də bundadır.

•

- Necə olur ki, keçən dəfə sən imladan dörd aldın, bu dəfə isə beş? Səhvlərin sayı azalmayıb ki.
- Bilirsən, onda mənim atam müavin idi, indi isə müdirdir.

●

- Mən müdirə rüşvət təklif etdim, o isə mənə qapıya işarə etdi.
- Qovdu?
- Qovmadı, qapıya işarə etdi, yəni ki, kimsə eşidə bilər və ya açar deşiyindən görə bilər.

●

- Təftişi nədən başlayaq?
- Konyakdan.

●

Millət vəkili iş adamına:

- Siz mənə 50 min verin, mən sizi milyonçu edim...

●

Balıqçı çayın üstündən körpü salmaq fikrinə düşür. Ona bir vaqon sement lazım oldu. Nazirliyə canavar göndərdi - o uladı, uladı, bir şey çıxmadı. Tülkü göndərdi - nə qədər hiylə işlətdi, xeyri olmadı. Nəhayət, eşşək göndərdi. Bir həftə keçdi, iki həftə keçdi - eşşək qayıtmır… Axır ki, bir eşelon sementlə gəlib çıxır.

- Biz bu qədər sementi neynirik?
- Narahat olmayın. Nazirlikdə mən xeyli tanışa rast gəldim və sübut etdim ki, biz körpünü çayın uzununa tikəcəyik.

●

Vətəndaş qapının qabağında durub yazını oxuyur: "Müdir 10-dan 15-ə qədər qəbul edir". Bu zaman Kindzulis ona yaxınlaşıb soruşur:

- Görəsən, bundan az qəbul etmir?

●

Birisi məmura bir neçə əskinaz təklif edir.

- Bu nədir, rüşvətdir? - deyə məmur hirsləndi.

Adam, qorxaraq, pulu geri götürmək istəyir. Məmur isə davam edir:

- Bəxtin gətirib ki, mən rüşvətxoram.

●

- Təsəvvür edirsiniz, bizim idarədə rüşvətxorluğa görə artıq 50 nəfəri məsuliyyətə cəlb ediblər.
- O! Bizim idarədə bu, mümkün deyil.
- Sizinkilərin hamısı düzgün adamlardır?
- Yox. Bizim idarədə cəmi 40 nəfər çalışır.

●

Bir gün kral, parlament üzvləri ilə nahar edərkən, təəccüblə deyir ki, yüksək vergilərə baxmayaraq, dövlət xəzinəsi boşdur. Onda bir yaşlı parlament üzvü şampan şüşəsi qoyulan buz vedrəsindən bir parça buz götürərək onu yanında oturana verir ki, o birisinə ötürsün. Buz parçası krala gəlib çatınca tamam əriyir.

- Əlahəzrət, xəzinə buna görə boşdur, - parlament üzvü deyir.

●

Şeremetyevo aeroportunda reportyor İtaliyalı turistlərdən soruşur:

- SSRİ-yə gəlişinizin məqsədi nədir?

- Biz kənd təsərrüfatı sahəsində təcrübə toplayırıq.
- Kənd təsərrüfatı?
- Bəli. İşin belə qurulması haqqında yalnız xəyal etmək olar. Sovxozlar - fantastikadır! Şeflərin köməyi - əzəmətlidir! Torpağı əsgərlər şumlayır, fəhlələr malalayır, məhsulu tələbələr yığır, professorlar, aspirantlar, dosentlər sortlayır! Hamısı da pulsuz. Məhsul satılandan sonra sovxoz direktoru elan edir:"7 milyon itki". Ona da o milyonları verirlər. Mamma mia! Biz bunu yuxuda da görməmişik!
- Siz fermersiniz?
- Əlbəttə! Biz - İtaliya mafiyasının nümayəndələriyik!

●

Bir qadın 20 il samovar düzəldən zavodda çalışıb, amma bu dövr ərzində samovar əldə edə bilməyib. Ümidini itirən qadın Kommunist Partiyası Mərkəzi Komitəsinə məktub yazıb: "Mən artıq 20 ildir ki, samovar zavodunda çalışıram, amma özümdə hələ də samovar yoxdur".

Bir müddətdən sonra qəribə olsa da, cavab alıb: "Hörmətli yoldaş…, təəssüf ki, Mərkəzi Komitə Sizə samovar əldə etməkdə kömək edə bilmir. Bununla belə, sizin iş stajınızı və xidmətlərinizi nəzərə alaraq Sizə hər gün zavoddan bir detal çıxararaq samovar yığmağa icazə veririk".

Bir-iki ildən sonra qadın yenə MK-ya məktub yazır: "Mən ümüdümü itirmişəm. Mən yazdığınız kimi etmişəm. Hər gün işdən bir detal gətirmişəm. Bunun axırı nə oldu? İndi mənim həyətimdə iki ədəd Yer-Yer raketi var, samovarım isə hələ də yoxdur".

# VƏTƏNDAŞLIQ TƏRBİYƏSİ, POLİTOLOGİYA

---

## MÖVZU: QANUNİ VƏ QANUNSUZ, ƏDALƏTLİ VƏ ƏDALƏTSİZ

**MÜƏLLİFLƏR**: Regina Petraytene, Gintautas Petraytis, Stasis Şalkauskis adına Şyauləy orta məktəbinin tarix müəllimləri

**SİNİF: 8**

**FƏNN:** Vətəndaş cəmiyyətinin əsasları

**MƏQSƏD:** vətəndaşlıq, tənqidi təhlili, təfəkkürü tərbiyə etmək

**VƏSAİT:**
Halların siyahısı (bax: Əlavə)

**ÜSULLAR:** kiçik qruplarda iş, təhlil, söhbət, diskussiya.

**DƏRSİN GEDİŞİ:**

1. Şagirdlər qruplara bölünür.
2. Hər qrupa müəyyən halın (halların) təsviri verilir. Bu hallar ayrı-ayrı vərəqlərdə təqdim edilir.
3. Lövhədə suallar yazılır:
a) Göstərilən halda zərər çəkən varmı? Varsa, kimdir?
b) Təqsirli varmı? Varsa, kimdir?
c) Hər hansı cinayət hadisəsi baş veribmi?
d) Baş veribsə, hansı cinayət: oğurluq, fırıldaqçılıq, korrupsiya?
4. Şagirdlərin hər qrupu ona verilən halı (halları) təhlil edir, onu (onları) müzakirə edir.
5. Qruplar öz hallarını başqalarına təqdim edir, şərhlərini verirlər.
6. Müzakirə: "Cinayət üçün əlverişli şərait necə yaranır?", "Belə cinayətlərin sayını azaltmaq üçün cəmiyyətdə nə cür dəyişikliklər etmək lazımdır?"

**GÖZLƏNİLƏN NƏTİCƏ:** Halları təhlil edərək şagirdlər ətraflarındakı aləmi daha yaxşı anlayacaq, diskussiyalar apararaq həqiqət yolunu axtarmağı, əməlləri qiymətləndirməyi öyrənəcək, özlərində fəallıq, fikirlərini aydın ifadə və müdafiə etmək qabiliyyəti tərbiyə edəcəklər.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Nəzəri cəhətdən korrupsiyanın nə olduğunu öyrənəndən sonra şagirdlər onu əməldə tanımaqda, hər hansı halın korrupsiya olub-olmamağını müəyyən etməkdə çətinlik çəkirlər. Konkret halların təhlili bunu qavramağa kömək edir. Real həyatdan götürülmüş misallar şagirdləri gerçəkliyi tənqidi qiymətləndirməyi, utopik olsa da, düzgün, vicdanla yaşamaq yollarını ax-

tarmağı öyrədir. Şagirdlər öz düşüncələrində elə cəmiyyətin modelini yaradırlar ki, burada hamı eyni qanunlara riayət edir və əsl demokratiyanın məğzini başa düşür.

**ƏLAVƏ**
**Hallar:**

a. Yonas qatar nəzarətçisinə deyir ki, kassadan bilet almağa çatmadı. Nəzarətçi ona təklif edir ki, bilet almasa, biletin yarısını ödəyib gedə bilər.

b. "İşıqlı gələcək" firması məktəb tikintisinə sifariş almaq üçün müsabiqədə iştirak edir. O, firmanın nümayəndələri dediyi kimi, "komissiyanın işini asanlaşdırmaq məqsədilə" komissiya üzvlərinə mobil telefonlar təklif edib.

c. Ona R. sürücülük vəsiqəsi almaq üçün verdiyi imtahandan kəsiləndə instruktor ona dedi ki, müəyyən kiçik ödənişlə ikinci dəfə imtahan vermədən vəsiqəni ala bilər.

ç. Dərs ilinin sona çatması ilə əlaqədar sinif öz sinif rəhbərinə böyük dəstə gül bağışladı.

d. Yol hərəkətini pozduğuna görə yol polisi Mikolası saxlayır. Rəsmi cərimə - 200 litdir. Mikolasın yanında bu qədər pul yoxdur, ona görə o, polisdən hesab yazmağını xahiş edir.
- Nə qədər varındır? - deyə, polis soruşur.
Mikolasın 50 liti var. Polis bunu götürür və vidalaşır.

e. Nazirlikdən bir yüksək vəzifəli şəxsi yol hərəkəti qaydalarını pozduğuna görə polis saxlayır və sürücülük vəsiqəsini göstərməyi xahiş edir. Məmur, sürücülük vəsiqəsi ilə bərabər xidməti vəsiqəsini də ona təqdim edir. Polis sənədlərə baxır, məmura deyir ki, bir daha belə pozuntuya yol verməsin və getməyə icazə verir.

ə. X. şəhərindəki rayon muzeyinin direktoru vəzifəsinə rayon şurası sədrinin qardaşı oğlu seçildi.

f. Kalvelislər ailəsi üç nəfərdən ibarətdir: ana, ata və Tomas. Onlar müəyyən şərtlərə əməl edirlər. Məsələn, qabları günaşırı növbə ilə yuyurlar, Tomasa isə axşamlar televizora baxmaq icazə verilmir. Qab yumağı, təbii ki, heç kim xoşlamır, amma atanın bundan lap zəhləsi gedir. Bir gün ana evdə olmayanda, ata qabları yumalı idi. Tomas təklif etdi: "Mən sənin əvəzində qabları yusam, sən mənə bu axşam televizorda trillerə baxmağı icazə verərsən?" Ata razılaşdı.

g. Beata S. "Qayğı" tikinti şirkəti ilə razılığa gəldi ki, şirkət onun rayon şurasına seçkilərini maliyyələşdirsə, o sonra rayonda müxtəlif binaların tikintisinə yaxşı sifarişlərin alınmasında bu şirkətə kömək edəcək.

ğ. Rayon bələdiyyəsinin məmurları restoran ofisiantı ilə razılaşıblar ki, o onlara əsl sifarişlərindən iki dəfə artıq məbləği göstərən hesab verəcək.

h. Vergilər sahəsində bir sıra ciddi cinayətlər törədilməsində günahlandırılan sahibkar Genrikas Y. hakimi şam yeməyinə bahalı restorana dəvət etdi. Tanınmamaq üçün hakim o axşam qara eynək taxmışdı.

x. Uşağını ağır xəstəlikdən müalicə etdiyinə görə Ona Z. həkimə böyük qutu şokolad konfeti və öz bağından qızıl qül bağışladı.

ı. Sinif nümayəndə seçməyə hazırlaşır. Qızların hamısı Rasanın, oğlanlar isə Dayniusun nümayəndə seçilməyini istəyir. Qızların sayı oğlanlardan 2 nəfər çoxdur, buna görə səsvermənin nəticələri qabaqcadan aydındır. Oğlanlar məsləhətləşmək üçün yığışıb çıxış yolu tapırlar: qızlardan ikisinə təklif etsinlər ki, oğlanların velosipedçi komandasına qoşulsunlar. Qızlar bu təklifdən çox məmnun olur, iki gündən sonra isə Daynius nümayəndə seçilir.

i. Litva dili müəllimi evə çoxlu tapşırıq verir. Layihələrə yaxşı hazırlaşmaq üçün xeyli əlavə ədəbiyyat oxumaq, axşamlar və istirahət günlərində çalışmaq lazım olur. Aqnenin anası müəllimlə söhbət etmək üçün məktəbə gedir. Onların nədən söhbət etdiyini heç kim bilmir, amma o vaxtdan Aqne hamıdan az və ən asan tapşırıqlar alır.

---

## MÖVZU: MƏN - VƏTƏNDAŞAM

**MÜƏLLİF**: Eliana Jukauskene, Stasis Şalkauskis adına Şaulyay orta məktəbinin baş müəllimi

**SİNİF: 10**

**SAAT: 3**

**FƏNN:** Vətəndaşlıq tərbiyəsi

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Vətəndaşlıq dəyərləri və etik münasibətlər aşılamaq.
2. Məlumatı tapmaq, qiymətləndirmək və ondan yaradıcılıqla istifadə etməyi öyrətmək.
3. Başqalarını tərbiyə etmək məqsədilə vəsaitlər hazırlamağı öyrətmək.

**ƏDƏBİYYAT:**


- *Zaleckiene I.* Mes: pilietines visuomenes pagrindai: vadovelis 10 kl. -Vilnius: Homo libber, 1999.

• LTV verilişləri materialları, yerli mətbuat məqalələri, şagirdlərin şəxsi təcrübəsi, habelə qohumları və tanışlarının təcrübəsi.
• Litva Respublikası Xüsusi Təhqiqat Xidmətinin materialları. - www.stt.lt

**ÜSULLAR:** kiçik qruplarda iş, müstəqil iş, diskussiya.

**DƏRSƏ HAZIRLIQ:** Bu, korrupsiyaya həsr edilmiş birinci dərs olmamalıdır. Şagirdlər artıq korrupsiyanın nə olduğunu bilməli və onun əlamətlərini tanımalıdırlar.

**1-ci DƏRSİN GEDİŞİ:**

1. Mövzu lövhədə yazılır.
2. Şagirdlərin fikrincə vətəndaş üçün mühüm olan dəyərlər müzakirə edilir və böyük vərəqlərdə qeyd edilir.
3. Şagirdlərə məlum olan, uşaqlıqda oynadıqları və ya hal-hazırda oynamağı xoşladıqları stolüstü oyunlar müzakirə edilir.
4. Dərsin məqsədi izah edilir: elə bir oyun təşkil etmək ki, orada real həyatda mövcud olan müxtəlif hallar, düzgün və səhv, yaxşı və pis hərəkətlər öz əksini tapsın.
5. Oyunun mövzusu "Korrupsiya" və ya "Qanun pozuntusu" kimi bir məsələyə qədər daralarsa, əlavə məlumat əldə etmək üçün mənbələr göstərilir .
6. İşin şərtləri və vaxtı müəyyən edilir. Adətən vətəndaşlıq tərbiyəsi dərsləri həftədə bir dəfə olur, buna görə işin yerinə yetirilməsi üçün iki dərs ayırmaq lazımdır.
7. Şagirdlər dörd qrupa bölünür və qrup-qrup otururlar.
8. Qrup daxilində şagirdlər hansı oyun yaratmaq istədiklərini, bunun üçün hansı məlumat əldə etmək lazım olduğunu müzakirə edir və fəaliyyət planı hazırlayırlar.
9. Evə tapşırıq: oyun üçün material toplamaq.

**2-ci DƏRSİN GEDİŞİ**

1. Oyun üçün materialların toplanması və hazırlanması prosesində əldə edilən təcrübənin mübadiləsi.
2. Oyunların təşkili üzrə qruplarda iş.
3. Evə tapşırıq: oyunun təşkilini bitirmək.

**3-cü DƏRSİN GEDİŞİ**

1. Şagirdlərin hər qrupu öz oyununu təqdim edir: oyunun şərtlərini izah edir, oyunun təşkili prosesində əldə etdiyi təcrübə və üzləşdiyi çətinliklər haqqında danışır.
2. Qruplar oyunlarını bir-birilə dəyişir, bunları oynamağa çalışır, aydın olmayan məqamları oyunun yaradıcıları ilə aydınlaşdırır.
3. Dərs yeni təcrübə, etik və vətəndaşlıq dəyərləri haqqında müzakirə ilə tamamlanır. Birinci dərs zamanı üzərində dəyərlər qeyd olunmuş vərəq yenidən lövhədən asılır, dəyərlər və münasibətlər siyahısı dəqiqləşdirilir və düzəldilir.

Belə oyunlardan aşağı (məsələn, səkkizinci) siniflərdə vətəndaşlıq tərbiyəsi dərslərində də istifadə etmək olar.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** İş prosesinin özü şagirdləri tərbiyə edir, material axtarmağa öyrədir, yaradıcılıq prosesinə təkcə şagirdlər deyil, onların dostları və qohumları da qoşulur.
Texniki səbəblərdən oyunu təşkil etmək mümkün olmadısa, şagirdlərin təcrübə və fikir mübadiləsi ilə kifayətlənmək olar.

---

## MÖVZU: OYUN QAYDALARINA RİAYƏT ETMƏLİ

**MÜƏLLİF**: Vayva Vaysekauskene, Təhsil İnkişafı Mərkəzi monitorinq şöbəsinin baş mütəxəssisi.

**SİNİF: 8-10**

**FƏNLƏR:** Vətəndaş cəmiyyəti əsasları, etika

**MƏQSƏD:** başqalarının hüquqlarına hörmət hissi, tənqidi və təhlili düşünmək qabiliyyətinin aşılanması.

**VƏSAİTLƏR:**

### 1-ci oyun üçün

- 2 eyni dəst oyun kartı;
- oyunçuların sayından təqibən 5 dəfə artıq kağıza bükülmüş konfet;
- konfet üçün qab;
- üzərində oyun qaydaları yazılmış kiçik vərəqələr.

### 2-ci oyun üçün

- oyunçuların sayından asılı olaraq "Səyahət" tipli stolüstü oyunun bir neçə nüsxəsi, həmin sayda zər, hər oyunçu üçün bir dənə (məsələn, "Kinder Surprise" yumurtalarından) fərqli kiçik oyuncaq;
- üzərində oyun qaydaları və müşahidəçilər üçün göstərişlər yazılmış kiçik vərəqələr.

**ÜSULLAR:** eksperiment oyunlar, tənqidi təhlil, söhbət, müzakirə.

**ŞƏRH:** Əslində mövzünun adı "Ədalətsiz oyun" olmalı idi, ona görə ki, birinci oyun zamanı müəllim oyun üçün ədalətsiz şərait yaradır, ikinci oyunda isə qaydaları oyunçuların özləri təhrif edəcək. Bununla belə, bu oyunlar real həyatı təqlid edən eksperiment təşkil edir, buna görə burada göstərilən şərtlər şagirdlərə qabaqcadan məlum olmalı deyil.

Bu oyunlardan dərsdə korrupsiya haqqında söhbət ediləndə fərdi təcrübəni hərəkətə gətirən, ona təkan verən giriş kimi istifadə etmək olar. Yəqin ki, bir-birinin ardınca hər iki oyunu oynamağa dəyməz - onlardan birini seçin.

**DƏRSİN GEDİŞİ:**

**1-ci oyun**

1. Oyun üçün bir dəst kart lazımdır. Dərsdən qabaq iki dənə qaratoxmaq kartından başqa bütün qaratoxmaq kartları dəstdən seçib götürün, şagirdlər bunu hiss etməsin deyə bunları ikinci dəstdən başqa kartlarla əvəz edin.
2. Şagirdləri böyük "dəyirmi" stol arxasında əyləşdirin. Hərəsinə 5 konfet verib xəbərdar edin ki, konfetləri dərsin sonuna qədər yemək olmaz - onlar oyun üçün lazımdır.
3. Stolun üstünə oyun qaydalarının bir neçə nüsxəsini qoyun və əlavə olaraq tapşırığı uşaqlara ucadan oxuyun.
4. Oyunun nə zaman bitəcəyi haqqında razılığa gəlin - müəyyən vaxt keçəndən sonra, oyunçuların bir neçəsi oyunu tərk edəndən sonra, yoxsa stolun ortasındakı konfet topası çox böyüyəndə.
5. Stolun ortasına kart dəstini üzü aşağı qoyun (dəstdə qalan iki qaratoxmaq kartı haradasa dəstin üst hissəsində olmalıdır). Oyunçuların arasında oturub oyuna başlayın.
6. Oyunun sonunda deyin ki, indi ən yaxşı oyunçunun adını elan edəcəksiniz və stolun ortasında yığılmış konfetlərin hamısı ona çatacaq. Bir anlıq fasilədən sonra deyin ki, həmin oyunçu Sizsiniz və bütün konfetləri özünüzə götürün. Heç bir vəchlə konfetləri paylamaq həvəsinə düşməyin.
7. Oyunu, onun "rejissor tərtibatını" və oyunçuların hisslərini müzakirə edin.

## Diskussiya üçün suallar:

1. Bu oyunun aydın qaydaları var idi. Bu qaydalar ədalətli idimi?
2. Oyunun özünü ədalətli adlandırmaq olarmı? Fikrinizi izah edin.
3. Oyun vaxtı özünüzü necə hiss edirdiniz? Oyun bitəndən sonra özünüzü necə hiss edirdiniz?
4. Bu oyun sizə real həyatdan bir şey xatırlatmır ki? Xatırladırsa, nəyi?
5. Bu oyun sizin hüquqlarınızı pozmadı ki? Pozdusa, hansıları?

**2-ci oyun**

1. Sinifi oyunçuların sayına görə bərabər qruplara bölün və hər qrupa azı bir nəfər müşahidəçi təyin edin.
2. Qruplar əyləşən stolların üzərinə bir ədəd oyun, zər, kiçik fiqurlar (oyunçulara belə fiqurları özləri ilə gətirməyi tapşırmamışsınızsa) qoyun.
3. Oyunçulara göstərişləri paylayın - qrupların bir yarısına A variantı, o biri yarısına - B variantı. Müşahidəçilərə də göstəriş verin.
4. Oyunun qaydalarını izah edərək başlanmasını elan edin.
5. Oyunu birinci qurtaran qrupu təbrik edin, amma deyin ki, başqa qruplara

oyunu bitirmək üçün nə qədər vaxt lazım olması Sizi maraqlandırır və oyunun sona çatmasını gözləyin.

6. Sonuncu qrup oyunu bitirəndən sonra qrupların qaydalara nə cür riayət etməsi haqqında məlumat verməyi müşahidəçilərdən xahiş edin. A variantında qaydaların pozulması daha ciddi qiymətləndirilir, ona görə ki, A variantında bu, qadağan edilmişdi, B variantında isə bunun haqqında deyilmirdi.

## Diskussiya üçün suallar:

1. Hansı qrup qalib elan edilməlidir? Nə üçün?
2. Həyatda adamlar çox vaxt məqsədlərinə çatmaq üçün başqaları ilə rəqabət aparırlar. Hansı rəqabət vicdanlıdır, hansı - yox?

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Korrupsiya oyunun şəffaf və ədalətli qaydalarının pozulmasına bənzəyir: müəyyən edilmiş norma və qaydalara riayət edilmir və ya yanlış norma və qaydalar yaradılır. Ədalətsiz oyun timsalında korrupsiyanın məğzini izah etmək və onun şəxsi hüquqları nə cür pozmağını göstərmək olar.

**ƏLAVƏ**

**Oyun qaydaları**

Hər oyunçu növbə ilə bir kart götürür. Sonrakı addım hansı kartı götürməyindən asılıdır.

***qırmızıtoxmaq*** - konfetlərindən birini səndən sağda oturana verməlisən;
***xaç*** - konfetlərindən birini səndən solda oturana verməlisən;
***kərpicxallı*** - stolun ortasındakı qaba bir konfet qoymalısan;
***qaratoxmaq*** - stolun ortasındakı qabdan iki konfet qötürə bilərsən; qab boşdursa, konfeti istədiyin oyunçudan götürə bilərsən.

Konfetləri qurtaran oyunçu oyunu tərk edir.

Oyundan çıxmış adam stolun arxasında oturub yuxarıda təsvir olunan qaydada kiminsə ona konfet ötürəcəyini gözləyə bilər. Konfet alandan sonra o yenidən oyuna qoşula bilər.

Oyunun sonunda müəllim ən yaxşı oyunçunu elan edir. Ən yaxşı oyunçu stolun ortasındakı qabda olan bütün konfetləri götürür.

Ən çox konfeti olan oyunçu oyunun qalibi olur. Oyun qurtaran zaman oyunçuların əlində qalan konfet onlara qalır.

**“Səyahət” oyununun qaydaları (A)**

Bu, adi stolüstü oyundur: hərə zər atıb, düşən xalların sayı qədər fiquru ilə irəli addım atır. Fiqur geri qayıtmaq göstərişi olan xanaya düşəndə, göstərişə uyğun olaraq geri qayıtmaq lazımdır. Fiqur finiş xanasına o zaman düşür ki, zərdə çıxan xalla finişə qalmış addımların sayı eyni olsun. Xalların sayı finişə qalmış addımların sayından artıqdırsa, finişə çatandan sonra artıq xalların sayı qədər geriyə addım atmaq lazımdır.

Oyunu komandalar oynayır. Fiqurların hamısını finişə birinci çatdırmış komanda oyunun qalibi olur.

Komandanın oyunçuları zəri növbə ilə eyni ardıcıllıqla atır. Başqa oyunçunun fiquru daha yaxşı mövqedə yerləşsə də (geri qayıtmadan birbaşa finişə çata bilsə də) gedişlərin ardıcıllığını dəyişmək olmaz.

**“Səyahət” oyununun qaydaları (B)**

Bu, adi stolüstü oyundur: hərə zər atıb, düşən xalların sayı qədər fiquru ilə irəli addım atır. Fiqur geri qayıtmaq göstərişi olan xanaya düşəndə, göstərişə uyğun olaraq geri qayıtmaq lazımdır. Fiqur finiş xanasına o zaman düşür ki, zərdə çıxan xalla finişə qalmış addımların sayı eyni olsun. Xalların sayı finişə qalmış addımların sayından artıqdırsa, finişə çatandan sonra artıq xalların sayı qədər geriyə addım atmaq lazımdır.

Oyunu komandalar oynayır. Fiqurların hamısını finişə birinci çatdırmış komanda oyunun qalibi olur.

Komandanın oyunçuları zəri növbə ilə eyni ardıcıllıqla atır.

**“Səyahət” oyununun müşahidəçiləri üçün göstəriş**

Bu, adi stolüstü oyundur: hərə zər atıb, düşən xalların sayı qədər fiquru ilə irəli addım atır. Fiqur geri qayıtmaq göstərişi olan xanaya düşəndə, göstərişə uyğun olaraq geri qayıtmaq lazımdır. Fiqur finiş xanasına o zaman düşür ki, zərdə çıxan xalla finişə qalmış addımların sayı eyni olsun. Xalların sayı finişə qalmış addımların sayından artıqdırsa, finişə çatandan sonra artıq xalların sayı qədər geriyə addım atmaq lazımdır.

Oyunu komandalar oynayır. Fiqurların hamısını finişə birinci çatdırmış komanda oyunun qalibi olur.

Komandanın oyunçuları zəri növbə ilə eyni ardıcıllıqla atır. Başqa oyunçunun fiquru daha yaxşı mövqedə yerləşsə də (geri qayıtmadan birbaşa finişə çata bilsə də) gedişlərin ardıcıllığını dəyişmək olmaz. Sənin vəzifən bu tələbin yerinə yetirilməsinə nəzarət etməkdir. Bunu etmək üçün, hər oyunçunun istifadə etdiyi fiquru yaxşı yadda saxla. Hər qayda pozuntusunu qeydə al ki, sonra onların sayını biləsən.

***Sənin oyuna müdaxilə etmək, onu şərh etmək, oyunçuların səhvlərini söz, işarə, yaxud sifətin ifadəsilə düzəltməyə ixtiyarın yoxdur. İştirak yox, müşahidə et!***

## MÖVZU: KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ

**MÜƏLLİF**: Eliana Jukauskene, Stasis Şalkauskis adına Şauləy orta məktəbinin baş müəllimi

**SİNİF: 10**

**SAAT: 2**

**FƏNN:** Vətəndaşlıq tərbiyəsi

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:** Şagirdləri kütləvi informasiya vasitələri məfhumu ilə tanış etmək, onun məlumat yayımı funksiyasını izah etmək, onlarda məlumatı tapmaq, istifadə və təhlil etmək qabiliyyəti aşılamaq və onlara təqdim edilən məlumata tənqidi yanaşmaq bacarığını inkişaf etdirmək.

**VƏSAİT:**

- Litva Respublikasının Konstitusiyası.
- *Zaleckiene I.* Mes: pilietines visuomenes pagrindai: vadovelis 10 kl. -Vilnius: Homo libber, 1999.
- LTV verilişləri materialları, yerli mətbuat məqalələri.

**ÜSULLAR:** söhbət, izah, şagirdlərin KİV və sənədlərlə müstəqil işi, diskussiya.

**1-ci dərsin gedişi:**

1. Mövzu elan edilir, lövhədə yazılır. "Kütləvi İnformasiya Vasitələri" ifadəsinin mənaları qeyd edilir.
2. Müzakirə planı:
   a) KIV rəmzləri (əlində ... adam) - şagirdlər ifadəni tamamlayır.
   b) KİV vəzifələri (dərslik materialları, Litva Respublikası Konstitusiyası, maddə 44).
   c) KİV funksiyaları: məlumat, mədəniyyət və əyləncə.
3. Şagirdlərin dərslik materialı ilə müstəqil işi.
4. Şagirdlər KİV funksiyaları qarşısında qoyulan tələbləri qeyd edirlər: məlumat (obyektivlik), mədəniyyət və əyləncə (istirahət, dincəlmə, biliklərin çatdırılması, ideyalar və dəyərlərin formalaşdırılması, mənəvi aləmin zənginləşdirilməsi, ümumbəşəri dəyərlərin bərqərar edilməsi, müsbət nümunənin nümayiş etdirilməsi və s.).
5. KİV növləri müzakirə edilir: mətbuat, radio və televiziya.
6. Şagirdlər sorğü vərəqini doldurur (bax: Əlavə)
7. *Evə tapşırıq*: birgə hazırlanan mətbuat dosyesi üçün hər şagird yerli mətbuatdan bir aktual məqalə tapır. Bu iş üçün bir həftə vaxt verilir.

**2-ci dərsin gedişi**

1. Mini-sorğu və onun nəticələri müzakirə edilir. Şagirdlərin KİV-ə münasibətinin əsas məqamları müəyyən edilir, KİV qarşısında qoyulan əsas tələblər lövhədə yazılır: obyektivlik, ən geniş yayılmış KİV növü, təsir, təqdimatın yaradıcı forması və s.
2. Şagirdlərin topladığı məqalələrdən bir həftəlik mətbuat dosyesi yığılır.
3. Üstünlük təşkil edən mövzular və nəşrlər müəyyən edilir. Üstünlük təşkil edən mövzuların cədvəli tərtib edilir:
    - şəhər siyasəti
    - idman
    - məktəb həyatı
    - gənclik problemləri
    - cinayət xronikası
    - mədəniyyət və təhsil
    - qalmaqallar
    - digər məlumat
4. Müasir gəncliyi ən çox maraqlandıran və narahat edən məsələlər müəyyən edilir. "Bizim şəhər mətbuatımız" mövzusunda kiçik diskussiya yaranır. Diskussiya üçün mümkün suallar:
    - mənim şəhərim necədir;
    - bu həftənin əsas hadisəsi;
    - informasiya necə təqdim edilir;
    - şəhər mətbuatında obyektivlik;
    - mətbuat korrupsiyaya qarşı (tapılmış nümunələr);
    - cəmiyyət: şəhər həyatının iştirakçısı yoxsa müşahidəçi;
    - mən nəyi seçirəm: mətbuat, radio yoxsa televiziya
5. Şagirdlər nəticə çıxarır: korrupsiya, sui-istifadə və s. hallarla mübarizə üçün əsas şərt olan aşkarlığa cəmiyyətin ehtiyacı var.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ: Şagirdlər faktları qiymətləndirmək, müqayisə və təhlil etmək, KİV-in korrupsiya ilə mübarizə aparması üçün əsas təşkil edə bilən mümkün nəticələri qabaqcadan görməyi öyrənirlər; dərslərdə korrupsiya əleyhinə motiv əsas təşkil edir.**

**ƏLAVƏ**

**"Kütləvi informasiya vasitələri" sorğu vərəqi**

Suallar:

1. Sən gündə KİV-ə nə qədər vaxt sərf edirsən?
2. KİV-in hansı növü sənin üçün üstünlük təşkil edir?
3. Sən mətbuat, radio, televiziyaya nə qədər vaxt ayırırsan?
4. Sən hansı qəzetləri oxuyursan?
5. Sən hansı radiostansiyalara qulaq asırsan?
6. Sən hansı televiziya kanallarına baxırsan?

7. Hansı KİV sənin üçün əsas informasiya mənbəyidir?
8. Hansı radio və ya televiziya verilişləri sənin üçün ən maraqlıdır?
9. Sən bu verilişlərdən hansı məlumatı alırsan?
10. Aldığın məlumata etibar edirsənmi?
11. Zorakılıq və özbaşınalıq səhnələrinə münasibətin necədir?
12. Hansı televiziya (və ya radio) verilişləri üçün darıxırsan?
13. Məlumatın hamısı obyektivdirmi?
14. Ən obyektiv veriliş hansıdır (adı)?
15. Baxmaq (qulaq asmaq) istəmədiyin veriliş hansıdır?
16. KİV-də cəmiyyətin rolu: fəal (iştirak edir, yazır, diskussiya aparır), passiv (yalnız oxuyur, tamaşa edir).
17. Korrupsiya hallarının açılmasında KİV-in rolu nədən ibarətdir?
18. Mətbuat, televiziya, radioda korrupsiya (sui istifadə) mümkündürmi?
19. Cəmiyyətə aşkarlıq lazımdırmı?
20. Qəzetdə, radioda, televiziyada işləyən ən çox bəyəndiyin jurnalist kimdir?

---

## MÖVZU: KORRUPSİYA

**MÜƏLLİF**: Dayva Vileikiene, Elektrenay səh. "Ajuolinas" orta məktəbinin tarix üzrə baş müəllimi

**SİNİF: 10**

**SAAT: 2**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:** Korrupsiya məfhumunu və onun yaranmasının tarixi səbəblərini müzakirə etmək, korrupsiyanın yaranma səbəblərini və nəticələrini, ona qarşı mübarizənin üsulları və vasitələrini təhlil etmək, tənqidi düşünmək bacarığını inkişaf etdirmək.

**VƏSAİT:** nəzəri materiallar, xarici sözlər lüğəti

**ÜSULLAR:** mühazirə, diskussiya, qruplarda iş.

**1-ci dərsin gedişi:**

1. Dərsin əvvəlində şagirdlər korrupsiya haqqında bildikləri və ona münasibətləri haqqında danışır. Diskussiya üçün tapşırıqlar verilir:
   - Korrupsiya insanların maraqlarına xələl gətirə bilərmi?
   - Litvada korrupsiya halları varmı?
   - Korrupsiyanı ləğv etmək mümkündürmü?
2. Evə tapşırıq verilir: ailə üzvlərinin korrupsiyaya münasibətini öyrənmək:
   - Cəmiyyət həyatının hansı sahələri daha çox korrupsiyaya uğrayıb?
   - Böyüklər korrupsiyaya qarşı hansı üsullarla mübarizə aparmağı təklif edirlər?

**2-ci dərsin gedişi**

Şagirdlər qruplara bölünür. Hər qrup ona verilən vərəqdə evdə aparılmış sorğudan əldə edilmiş məlumatı qeyd edir. Əsas fikirlər lövhədə yazılır. Müzakirə aparılır. Hər qrupa müəyyən ixtisasın adı verilir. Şagirdlər həmin ixtisas nümayəndələrinin korrupsiya ilə mübarizə aparmaları üçün üsul və vasitələr düşünürlər. Onlar öz fikirlərini təqdim edir. Korrupsiya ilə mübarizənin mövcud üsulları sinifdə əldə edilmiş nəticələr və şagirdlərin evdə yığdıqları məlumatla müqayisə edilir. Diskussiya aparılır.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Şagirdlər öz fikirlərini, habelə valideynləri və başqa böyüklərin fikirlərini təhlil edərək korrupsiya fenomenini, onun nəticələrini anlamağa çalışır, öz mövqelərini müdafiə etməyi, fikirlərini ifadə etməyi, nəticə çıxarmağı öyrənirlər.

---

## MÖVZU: LİTVADA KORRUPSİYA

**MÜƏLLİF**: Nerinqa Bitkovene, "Atjalinas" Kedayn orta məktəbinin baş müəllimi

**SİNİF: 10**

**SAAT: 2**

**FƏNN:** Vətəndaşlıq tərbiyəsi

**MƏQSƏD:**

1. Litvada korrupsiya səbəblərini müəyyən etmək.
2. Müxtəlif mənbələrlə işləməyi öyrətmək.

**ƏDƏBİYYAT VƏ VƏSAİTLƏR:**

- *Alisaleckiene R.* Korrupcija kaip pokomunistines visuomenes bruozas (Vilniaus universitetas, "Baltijos tyrimai / GALLUP".
- *Trumpa U.* Korrupcijos saknu salinimas - efektyvios kovos su korupcija pagrindai ("Korrupsiyanın kökünü necə kəsməli: korrupsiyaya qarşı mübarizənin əsasları" - "İdarəçilik islahatından korrupsiya ilə effektiv mübarizəyə doğru" konfransında çıxış, Vilnüs, 20 iyun 2001-ci il)
- 2001-ci il Litvanın korrupsiya xəritəsi.
- Tapşırıq vərəqələri.
- "TI Korrupsiya qavrayışı indeksi, 2002" cədvəli.
- *Skaistis A.* Korrupcijos poveikis nacionaliniam saugumui.

**ÜSULLAR:** kiçik qruplarda iş, ekspertiza.

**1-ci dərsin gedişi:**

1. Şagirdlər 5-6 nəfərlik 5 qrupa bölünür (3 dəq.).
2. Müəllim şagirdlərə məqalələri və tapşırıq vərəqələrini paylayır. Təqdim edilmiş materialları təhlil edərək şagirdlər vərəqələri doldurur (20 dəq., tapşırıq vərəqələri əlavə edilir).

3. Qruplar öz işlərini təqdim edir və lövhədən asır (10 dəq).
I qrup korrupsiya iştirakçılarını təqdim edir;
II qrup korrupsiya səbəblərini təqdim edir;
III qrup korrupsiya hallarını və korrupsion əməlləri təqdim edir;
IV qrup cəmiyyət və iqtidarın ən çox korrupsiyaya uğramış sahələrini təqdim edir;
V qrup korrupsiyanı azaltmaq yollarını təklif edir.
4. Müəllim deyilənləri ümumiləşdirir və şagirdlərlə birlikdə "TI Korrupsiya qavrayışı indeksi, 2002" cədvəlini təhlil edir.

**2-ci dərsin gedişi**

1. Qruplarda görülmüş işin qısa xülasəsi (5 dəq).
2. Müəllim şagirdlərə tapşırıq verir: "Korrupsiyanın xeyri və ziyanı" cədvəlini doldurmaq (20 dəq., cədvəl əlavə edilir).
3. Qruplar işlərini təqdir edir, sonra şagirdlərin ən vacib tezisləri əsasında "Korrupsiyanın xeyri və ziyanı" cədvəlinin ümumiləşdirilmiş variantı tərtib edilir (10 dəq).
4. "Korrupsiya xeyirlidir yoxsa ziyanlı?" mövzusunda diskussiya aparılır (10 dəq.).
I qrup. Korrupsiyaya daha çox uğrayan kimlər olur?
II qrup. Adamlar nə üçün korrupsiyaya qoşulur?
III qrup. Korrupsiya özünü nə cür büruzə verir?
IV qrup. Korrupsiya daha çox hansı sahələrdə yayılıb?
V qrup. Korrupsiyanı necə azaltmaq olar?

**ƏLAVƏLƏR:**



**Korrupsiyanın xeyri və ziyanı**

| Kimə? | Xeyir | | Ziyan | |
|---|---|---|---|---|
| | Maddi | Mənəvi | Maddi | Mənəvi |
| **Verən tərəf** | | | | |
| **Alan tərəf** | | | | |
| **Dövlət** | | | | |
| **Cəmiyyət** | | | | |

---

## MÖVZU: KORRUPSİYA NƏDİR?

**MÜƏLLİF**: Nerinqa Bitkovene, Kedayn şəh. "Atjalinas" orta məktəbinin tarix üzrə baş müəllimi, Yurate Blinstrubayte, Kedayn şəh. "Atjalinas" orta məktəbinin tarix üzrə baş müəllimi, Violeta Vaytkiavichane, Kedayn şəh. "Atjalinas" orta məktəbinin etika müəllimi.

**SİNİF: 10**

**MƏQSƏD:**

1. Korrupsiya iştirakçılarını, onların niyyətləri, əməlləri və bunların nəticələrini müəyyən etmək.
2. Əməkdaşlıq etməyi öyrənmək.
3. Səbəblə nəticə arasında əlaqəni başa düsmək.

**VƏSAİT:**

- Ağ kağız, flomaster, paylamaq üçün korrupsiya məfhumunun tərifini verən materiallar.

**ÜSULLAR:** kiçik qruplarda iş, müstəqil öyrənmə.

**DƏRSİN GEDİŞİ:**

1. Fikir mübadiləsi. Müəllim uşaqlardan xahiş edir ki, korrupsiya sözü eşidəndə ağıllarına gələn fikirləri desinlər. Bu fikirlər lövhədə qeyd edilir (təqribən 3 dəq.).
2. Şagirdlər 5-6 nəfərdən ibarət 5 qrupa bölünür. Qruplara ağ kağız və flomaster verilir.
3. Müəllim iş prosesini izah edir: qruplar vərəqlərdəki sxemi doldurlamıdır (15 dəq.).

## K O R R U P S İ Y A




4. Vərəqlər asılır. Qruplar işlərini qısa şəkildə təqdim edir (təqribən 10 dəq.)
5. Qruplarda iş. Vərəqlərdə təqdim edilmiş məlumat əsasında korrupsiyanın tərifi işlənilib hazırlanır, burada korrupsiya iştirakçıları, onların məqsədləri, əməlləri və bunların nəticələri öz əksini tapır (təqribən 5 dəq.).
6. Qruplar korrupsiya təriflərini təqdim edir (5 dəq.)
7. Müəllim şagirdlərə korrupsiya məfhumunun tərifini verən materialları paylayır, şagirdlər özləri işləyib hazırladıqları tərifləri bu materiallardakı təriflərlə müqayisə edir.
8. Xülasə. Qruplar öz mülahizələrini bildirir (təqribən 5 dəq.).

---

## MÖVZU: İŞƏ QƏBUL

**MÜƏLLİF**: Vayva Vaysekauskene, Tədris İnkişafı Mərkəzi monitorinq şöbəsinin Baş mütəxəssisi

**SİNİF: 10**

**FƏNN:** Vətəndaşlıq tərbiyəsi/ İctimaiyyət

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. İşə qəbul prinsiplərini müəyyən etmək.
2. Ədalət və qərəzsizlik məfhumlarını dərinləşdirmək.
3. Özünün gələcək işçi kimi qiymətləndirilməsi üçün şərait yaratmaq.

**VƏSAİT:**

- “Az qala detektiv əhvalat” hekayəsi
- “Hörmətli məktəb direktoru…” məşğələsi

**ÜSULLAR:** diskussiya, təhlil, hekayənin oxunması, kiçik qruplarda iş.

**DƏRSİN GEDİŞİ:**

1. Müəllim şagirdlərə "Az qala detektiv əhvalat" hekayəsini oxuyur. Bundan sonra hər qrup üzvü əslində nə baş verdiyi haqda öz fikrini söyləyir və ya istədiyi sualı verir. Müəllim suallara yalnız "hə/yox" yaxud "düzdür/düz deyil" sözləri ilə cavab verə bilər. Qrup "ilişib qalarsa", onlara aşağıdakıları təlqin etmək olar:
   - adamın yaşı, xarici görünüşü, paltarı və mənşəyinin heç bir əhəmiyyəti yoxdur;
   - namizədlərin hamısı işə qəbul haqqında ərizərini eyni dərəcədə yaxşı yazmışlar;
   - müdir bunların heç birini əvvəlcədən tanımırdı.

   Şagirdlər öz fikirlərini nə baş verdiyini tapana qədər yaxud yorulana qədər söyləyirlər. Düzgün cavab tapılmazsa, müəllim onu özü deyir.
2. Müəllim (və ya qabaqcadan təyin edilmiş şagird) söylənilən mülahizələrin hamısını lövhədə qeyd etməli idi. İndi bunlara yenidən nəzər salınır və müzakirə aparılır:
   - İşə qəbul edənlə qəbul edilən haqqında ən çox şübhə doğuran nə olub?
   - Bu şübhələrin əsasında nə dayanır?
3. Hər şagird

   a. yeni işçilərin müdirlər tərəfindən axtarılması və işə qəbul edilməsi üsullarından bildiklərini və ya güman etdiklərini yazmalı;

   b. özü müdir olsaydı istifadə edəcəyi üsullları siyahıdan seçməli;

   c. iş axtarsaydı, işə qəbul zamanı istifədə edilməyini istədiyi üsulları seçməlidir.

   Cavablar aşağıdakı cədvəldə qeyd edilir (əvvəl ortadakı qrafa doldurulur, bundan sonra sol və sağ qrafalarda quş qoyulur).

| **B. Mən işə götürən olsaydım, işçiləri belə qəbul edərdim:** | **A. İşə götürənlər yeni işçiləri belə axtarır/ qəbul edir** | **C. Mən iş axtarsaydım, istərdim ki, işə qəbul belə aparılsın:** |
|---|---|---|
| 🗐 | ……………………<br>……………………<br>……………………<br>……………………<br>…………………… | 🗐 |

4. Şagirdlər kiçik qruplar şəklində oturur, cədvəllərini bir-birilə dəyişir və onları ucadan oxuyurlar.
5. Hər qrupa aşağıdakı suallara cavab vermək tapşırığı verilir:
   - Dövlət müəssisələrində işə qəbul necə aparılmalıdır?

- Dövlət müəssisələri və özəl müəssisələrdə işə qəbul qaydaları fərqlənməlidirmi? Nə üçün?

Qruplar öz cavab və dəlillərini sinifə təqdim edir.

6. Hər şagirdə "Hörmətli məktəb direktoru…" məşğələsinin bir nüsxəsi verilir. Onu nə cür dolduracağı haqqında düşünmək üçün vaxt verilir. Digər variant: anketi sinif yoldaşı doldurur. Məşğələnin məqsədi tənqidi özünütəhlildir.

**ƏLAVƏLƏR:**

***Az qala detektiv əhvalat***

Bu əhvalat XIX əsrin birinci yarısında baş verib. Bir adam kiçik bir müəssisəyə işə düzəlmək istəyirdi. Boş olan yer haqqında elanda oxumuşdu. Səs-küylü müəssisəyə gələndə katibənin ona verdiyi anketi doldurdu və öz növbəsini gözləməyə başladı. Bir-iki dəqiqədən sonra birdən ayağa qalxıb müdirin otağına girdi. Bundan sonra müdir qəbul otağında gözləyən başqa namizədlərə elan etdi ki, artıq özünə işçi seçib. O adamdan əvvəl gələnlər narazılıq etməyə başladılar. Müdir nə üçün məhz bu işçini seçdiyini izah edəndən sonra onlar sakitləşdi.

Bu, nə üçün belə oldu?

**CAVAB:** Səs-küylü müəssisə teleqraf idi (axı bu, XIX əsrin birinci yarısı idi). Müdir teleqrafist axtarırdı. İşə qəbul edilmiş şəxs yeganə adam idi ki, səngiməyən səs-küydə Morze əlifbası ilə göndərilmiş elanı eşitdi:"Qəbul otağındakı namizəd, bunu başa düşdünüzsə, dərhal mənim otağıma gəlin". Beləliklə namizədlərin professional imkanları sınaqdan keçirilmişdi.

**MƏŞĞƏLƏ:** Çox vaxt yeni işçiləri işə zəmanətlə qəbul edirlər. Təsəvvür elə ki, bir gün sən oxuduğun məktəbin direktoru belə bir məktub alır:

Hörmətli məktəb direktoru,

Məktəbinizin keçmiş şagirdi ……………………………………………………….. rəhbəri olduğum şirkətdə iş axtarır. Mən bilirəm ki, gəncləri müəllimlərindən yaxşı heç kim tanımır. Onun xasiyyəti haqqında bir neçə sualımıza cavab verə bilsəydiniz, Sizə çox minnətdar olardıq. Təqdim edəcəyiniz məlumat məxfi saxlanılıcaq və yalnız namizədin iş qabiliyyətini qiymətləndirmək üçün istifadə ediləcək.

XASİYYƏTNAMƏ

Adı çəkilən şəxslə neçə il tanış olmuşsunuz?

Siz onu necə qiymətləndirərdiniz? Xahiş edirik, ən yararlı sözün altından xətt çəkib fikrinizi bir az geniş açıqlayasınız:

A. Namuslu/Namussuz
………………………………………………………………………………
………………………………………………………………………………

B. Çalışqan/Tənbəl
………………………………………………………………………………
………………………………………………………………………………

C. Qrupda işləmək bacarığı:
Həmişə qrupda yaxşı işləyir/ Arabir qrupda yaxşı işləyir/ Qrupda işləyə bilmir

D. Qrup işində mövqeyi (bir neçə cavab seçə bilərsiniz):
- a. başqalarına kömək edir/ başqalarına kömək etmir
- b. qrup işinin nəticəsi haqqında düşünür/ yalnız öz müvəffəqiyyəti haqqında düşünür/ ümumiyyətlə nəticə haqqında düşünmür
- c. əməkdaşlıq edir/ rəqabət aparır

E. Lider keyfiyyətləri:
- a. rəhbərlik etməyə meyllidir/ rəhbərlik etməyə meylli deyil/ bəzən rəhbərlik edir
- b. başqalarına görə, ümumi işə görə məsuliyyəti öz üzərinə götürə bilər/ üzərinə məsuliyyət götürmür

Məktəbin direktoru və ya müəllimlər bu anketdə sənin haqqında nə yazardı?

---

## MÖVZU: KORRUPSİYA İLƏ MÜBARİZƏ

**MÜƏLLİF**: Dayva Truçinskene, Antanas Baranauskas adına Anikşçay orta məktəbinin tarix müəllimi

**SİNİF: 11-12**

**FƏNN:** Politologiya

**MƏQSƏD:**

1. Şagirdləri korrupsiyaya qarşı mübarizə üsulları ilə tanış etmək.

2. Korrupsiya miqyasının bizim hər birimizdən asılı olmağını göstərmək.
3. Həyatda düzgün qərar qəbul etməyi öyrətmək.

**VƏSAİT:**

- *Petkeviçiute A.* Shell şirkətinin korrupsiyaya qarşı mübarizə təcrübəsi ("Dövlət idarəçiliyi islahatından korrupsiyaya qarşı effektiv mübarizəyə doğru" konfransında məruzə, Vilnyus, 20 iyun 2001-ci il).
- "Korrupsiya ilə mübarizənin açarı" sxemi.

**ÜSULLAR:** cut-cut iş, sənədlərlə iş.

**DƏRSİN GEDİŞİ**

1. Dərsin əvvəlində şagirdlər "qanun", "rüşvət", "seçim", "hüquq pozuntusu", "qazanc əldə etmək həvəsi" məfhumları ilə tanış olurlar.
2. **"Dostunla məsləhətləş" oyunu:** şagirdlər bir-birilə üz-üzə iki dairəyə dayanır. Onlara tapşırıq verilir: təklif edilmiş məfhumu (məsələn, "rüşvət") üzbəüz dayananla müzakirə etmək. Müzakirədən sonra xarici dairədə dayanan oyunçular bir tərəfə hərəkət edərək daxili dairədən növbəti şagirdlə üz-üzə dayanırlar. Yeni yaranan cütə müzakirə üçün yeni məfhum verilir. Beləliklə təklif olunan bütün məfhumlar müzakirə edilir.
3. Oyundan sonra şagirdlər müəllimlə birlikdə müzakirə edilmiş məfhumların xülasəsini verir. Müəllim qeyd edir ki, müzakirə edilmiş bütün məfhumlar "korrupsiya" anlayışı ilə bağlıdır. Xülasədən sonra lövhədə korrupsiyanın tərifi yazılır.
4. Dərsin mövzusu - "Korrupsiya ilə mübarizə"dir, buna görə əsas diqqət korrupsiya ilə mübarizə üsullarının təhlilinə ayrılır.

**SƏNƏDLƏ İŞ**

Şagirdlər qruplarda məruzə mətnini oxuyur, korrupsiya ilə mübarizə üçün üsulları müəyyən edir və bunları korrupsiya ilə mübarizənin açarı kimi sistemləşdirir.
Şagirdlərə *"Shell şirkətinin korrupsiyaya qarşı mübarizə təcrübəsi"* məruzəsinin mətni təqdim edilir:

"*Shell Group* korporasiyası dünyanın 130 ölkəsində iş aparır. <…> Bu işi apardığı uzun illər ərzində *Shell,* korrupsiya ilə mübarizə siyasəti işləyib hazırlamışdır. <…>

Qrupun tərkibində olan şirkətləri daxildən təmizləmək məqsedilə *Shell* ilk öncə qrupun ümumi iş prinsiplərini bərpa etdi. Bunlardan təkcə şirkət daxilində deyil, tədarükçülər, müştərilər, dövlət orqanları ilə münasibətlərdə də istifadə edilir. <…> Bu prinsiplər hansılardır? Bunlar çox sadədir: hər müştəriyə ən yüksək səviyyədə xidmət göstərmək və ən keyfiyyətli məhsul vermək, iş aparılan ölkələrin cəmiyyəti və qanunlarına hörmət etmək, səhmdarların sərmayəsini qorumaq, azad rəqabət şəraitində düzgün və "təmiz" fəaliyyət aparılmasını təmin etmək. <…> Qoyulan prinsiplərə əməl edilməsinə nəzarət etmək zəruruidir.

Hər il şirkətin hər işçisi maraqların uzlaşması haqqında öhdəlik imzalamalı və *Shell* biznes prinsiplərinə zidd olan hər bir hadisə haqqında xəbər verməlidir.

"Shell Report" 1998-ci ildən nəşr edilir. Onun əsas məqsədlərindən biri - şirkətin üzərinə götürdüyü öhdəlikləri həyata keçirmək üçün aparılan işləri sənədləşdirməkdir. <…> Məlumat verildiyi kimi, 2000-ci il ərzində dörd yüzə yaxın rüşvət alma halı qeydə alınıb (müqayisə üçün: 1999-cu ildə cəmi üç belə hal qeydə alınıb), bunun nəticəsində isə 7 nəfər işdən azad edilib. Bu halların ümumi maliyyə dəyəri 89 min dollar olub. 130 ölkə və 90 min işçi üçün bu çoxdur yoxsa az?…

Şirkət daxilində aparılmış təmizləmədən sonra da şirkətin korrupsiyadan tam azad olmağını cəmiyyətə sübut etmək asan deyil <…>. Bu gün, 7-illik fəaliyyətdən sonra, biz cəsarətlə elan edə bilərik ki, Litvada düzgün və etik biznes prinsiplərinə uyğun şəkildə iş aparmaq mümkündür <…>. Sadə bir misal: 1996-1997-ci illərdə gündəlik qəzetlər işləməyən *Majeykiu nafta* konserni haqqında və benzindoldurma stansiyalarında yanacaq ehtiyatlarının azalması haqqında məlumatla dolu idi. Bir səhər benzindoldurma stansiyasına iki 20-litrlik qabla bir dövlət məmuru gəlir və uca səslə bildirir ki, satılan yanacağın keyfiyyətini yoxlayacaq. Stansiyanın müdiri nə edir? Ən sadə çıxış yolu bu iki qabı dolduraraq nəzakətlə yoxlamanı başlamamağı xahiş etmək olardı. Nə müdir üçün problem yaranardı, nə də məmur üçün. Lakin müdir hər qaba cəmi 1 litr yanacaq tökür (ona görə ki, yoxlama üçün 1 litrdən artıq lazım olmadığını yaxşı bilir). Sonra 15 dəqiqə ərzində məmurun narazılığına və cərimə qoymaq hədələrinə sakitçə qulaq asır. Bundan sonra *Shell Lietuva* yanacağın keyfiyyətinə görə cəzalandımı? Yox. Həmin məmurun *Shell* benzindoldurma stansiyasına yenidən gəlmək arzusu olubmu? Yox. Bəs müdir birinci variantı seçib məmurun qablarını ağzınacan benzinlə doldursaydı, "keyfiyyət yoxlayan" bura neçə dəfə yenidən gələrdi? Yəqin ki, bir dəfədən artıq.

Digər misal: benzindoldurma stansiyasını sanitar inspektoru tez-tez yoxlamağa başlayıb. Benzindoldurma stansiyasının rəhbərləri baş çıxara bilmirdilər ki, nəyə görə ayda bir neçə dəfə onların işinə mane olurlar. Məlum oldu ki, pulsuz qəhvə içmək təkliflərinə son qoymaq lazım imiş. Növbəti "yoxlama" zamanı "yoxlayana" bir fincan qəhvənin qiymətini bildirib ona kassa çeki təqdim etdilər.

*Shell Qroupun* fəaliyyətindən daha bir misal. Asiya ölkələrinin birinə qaz emalı platformasının qurulmasından öncə helikopter idxal edilməli idi. Helikopter idxalı qadağan edilməmişdi, çünki ölkədə helikopter kirayəyə götürmək çətin idi. Lakin burada bir əmma var idi: gömrük sistemindəki süründürməçilik elə idi ki, bir şeyi idxal etmək üçün növbəyə yazılıb üç ay sənədlərin hazırlanmasını gözləmək gərək idi. Helikopterin gətirilməsinə də əlavə iki ay lazım idi. Yubadılmanın hər bir ayı 2 milyon dollar itki demək idi. Gömrük işçilərinə ilkin müraciətlər aydın göstərdi ki, əlavə ödəniş edilməsə, növbəni sürətləndirmək mümkün olmayacaq. Mövcud sistemdən dolayı yolla keçmək üçün lazım olan pulun miqdarını praktiki olaraq təsəvvür etmək mümkün deyil <…>. Biznes prinsipləri ilə biznesin nəticələrini necə uzlaşdırmaq olar? <…>

*Shell,* düzgünlük yolunu seçdi. Gömrüyün heç bir işçisi "əzizlənmədi", helikopterin idxalı xeyli vaxt apardı. İtkilər mühasibat dəftərlərinə salınmalı oldu. Amma burada bir şeyi qeyd etmək lazımdır. *Shellin* bu ölkədəki müəssisəsində dövlətin də payı var. Təkçə gəlirlər deyil, itkilər də 50:50 nisbətində bölünürdü. Bir milyon itirildikdən sonra dərhal gömrük sisteminin islahatı başlandı. Yarım ildən sonra ölkədə gömrükdən keçmək üçün heç bir növbə qalmamışdı <…>".

Sənəddən parçalarla tanış olandan sonra şagirdlər “Korrupsiya ilə mübarizənin açarı” tapşırığını yerinə yetirirlər. Bunun üçün onlar “açarın” boş xanalarına korrupsiya ilə mübarizədə *Shell* korporasiyasının işlətdiyi üsulları yazırlar. İşin nəticələri müzakirə edilir və ümumi nəticə çıxarılır.




## ETİKA, PSİXOLOGİYA, DİN

**MÖVZU:** MƏSULİYYƏTLİ, ÖZÜNƏ VƏ BAŞQALARINA CAVABDEH OLMALI

**MÜƏLLİF:** Vladas Vayculis, Vayjqantas adına Radvilişkis gimnaziyasının etika müəllimi.

**SİNİF: 6**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Öz hərəkət və əməllərinə görə cavabdeh olmağı öyrətmək.
2. Diskussiya aparmağı və dəlillər gətirməyi öyrətmək.

**ÜSULLAR:** hekayə, söhbət, diskussiya.

**VƏSAİTLƏR:**

- Etika 5-6 klassei. Demesys kitiems.- Vilnius: Alma littera, 1997.
- Məktəb əhvalatları.

**ƏSAS MƏFHUMLAR:** 6-cı sinif şagirdləri üçün “korrupsiya” məfhumunu müəyyən

dərəcədə oxşar mənanı verən aşağıdakı sözlərlə əvəz etmək olar: “istifadə etmə”, “qulluğun əvəzini vermək”, “vəd”, “gözləmə”, “razı salmaq istəyi”.

**DƏRSİN GEDİŞİ:**
“Köçürdü” əhvalatı söylənilir (köçürmə, köçürməyə icazə vermə, köçürməyə icazə versinlər deyə təzyiq göstərmə və s. bununla bağlı problemlər haqqında).
Şagirdlərə suallar verilir:

Bu yaxşıdır yoxsa pis?
Günahkar kimdir?
Bəlkə, hər ikisi günahkardır?
Kimin günahı daha çoxdur?
Bu nə ilə nəticələnə bilər?
Nə üçün köçürürlər?
Nə üçün köçürməyə icazə verirlər?

Diskussiya zamanı söhbəti xeyir və ziyan, başqalarından istifadə, necə eləmək ki, səndən istifadə etməsinlər, bunların nəticələri və s. mövzulara yönəltməyə çalışmaq. Özünə və başqalarına cavabdeh olmaq nə deməkdir?

---

## MÖVZU: ŞƏXSİYYƏTİN DAXİLİ ZİDDİYYƏTLƏRİ

**MÜƏLLİF**: Regina Dirginçene, Majeyk şəh. “Venta” orta məktəbinin etika müəllimi

**SİNİF: 8**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. “Daxili ziddiyyət” məfhumu ilə tanışlıq.
2. Daxili ziddiyyətləri həll etmək bacarığının aşılanması.
3. Özünü: şəxsiyyətinin xüsusiyyətləri, meylləri, daxili ziddiyətlərini daha yaxşı tanımaq imkanının verilməsi.
4. Korrupsiya hallarına münasibətinin müəyyən edilməsi.

**VƏSAİT:**

- *Dirginçiene R., Saulyte A.* Bendravimo etika: mokomoji knyga 8 klassei.- Siauliai: K. J. Vasiliausko jm., 2003, səh. 105-106.
- *Dirginçiene R., Saulyte A.* Bendravimo etika: mokomoji knyga 8 klassei.- Siauliai: K. J. Vasiliausko jm., 2003, səh. 76-80.

**ÜSULLAR:** mühazirə, diskussiya, müxtəlif şərait rollarını oynamaq tapşırığı.

**DƏRSİN GEDİŞİ:**
Şagirdlər “daxili ziddiyyət” məfhumu ilə tanış olurlar. Bu anlayışın mənasını başa düşərək şagirdlər öz daxili ziddiyyətlərini nə cür həll etmələri haqqında diskussiya aparır, öz daxili ziddiyyətlərində hansısa bir tərəfi saxlamaq, o birini isə təkzib etmək lazım olan və-

ziyyətləri oynayırlar. Öz seçimlərini əsaslandırırlar. Aşağıdakı vəziyyətlər təhlil edilir:

"Şagird Amerikaya getmək istəyir. Ona viza lazımdır. İki variant mümkündür:

a. Şagird, məmurun qəbuluna gedir, bütün qaydalara əməl edir, amma viza alıb-almayacağını bilmir;

b. Şagird qaydalara əməl etmir, məmura rüşvət verir və viza alacağına zəmanət alır".

Şagirdlər, iş dəftərlərində 1-3 tapşırıq yerinə yetirir.

**XÜLASƏ:** Bu dərs şagidlərə öz şəxsiyyətlərinin xüsusiyyətlərini, o cümlədən indiyə qədər fikir vermədikləri və ya tamamilə inkar etdikləri cəhətləri daha yaxşı tanımağa kömək edir.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** "Daxili ziddiyyət" mövzusunun müzakirəsinin gedişində şagirdlər korrupsiyaya öz münasibətlərini anlayırlar.

---

## MÖVZU: "YOX" NECƏ DEMƏLİ

**MÜƏLLİF**: Regina Dirginçene, Majeyk şəh. "Venta" orta məktəbinin etika müəllimi

**SİNİF: 8**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. "Yox" deməyin çətin olmağının səbəbləri ilə şagirdləri tanış etmək.
2. Başqaları bizə "yox" deyəndə nə hiss etdiyimizi müəyyən etmək.
3. Özümüzü və başqaları daha yaxşı tanımaq imkanı yaratmaq.
4. Korrupsiyaya qarşı öz münasibətlərinin müəyyən edilməsində şagirdlərə şərait yaratmaq. Korrupsiyaya "yox" deməyi öyrənmək

**VƏSAİT:**

- *Dirginçiene R., Saulyte A.* Bendravimo etika: mokomoji knyga 8 klassei.- Siauliai: K. J. Vasiliausko jm., 2003, səh. 80-82.
- *Dirginçiene R., Saulyte A.* Bendravimo etika: mokomoji knyga 8 klassei.- Siauliai: K. J. Vasiliausko jm., 2003, səh. 60-62.

**ÜSULLAR:** mühazirə, diskussiya, tamamlanmamış cümlə üsulu, rəsm, test, qruplarda iş.

**DƏRSİN GEDİŞİ:**

Mühazirənin məğzi: Şagirdləri başa salmaq ki, "yox" deməyi bacarmaq - öz hüdudlarını müəyyən etmək, öz daxili müstəqilliyini bərqərar etmək, özün olmaq deməkdir. "Yox" demək çətin olan vəziyyətlər təklif olunur. "Yox" pozasının mənası izah edilir. Dərslikdən tapşırıqlar yerinə yetirilir:

"yox" pozası;

necə "yox" deməli;

"yox, olmaz".

Tapşırıqların korrupsiya əleyhinə mövzulara uyğunlaşdırmaq üçün dərsə aşağıdakı vəziyyət əlavə edilir:

"Mən riyaziyyat imtahanını yaxşı vermək istəyirəm. Riyaziyyat sahəsində qabiliyyətim yoxdur, buna görə gərək imtahandan qabaq müəllimə hədiyyə aparım. Yox, olmaz, bu - rüşvətdir".

İş dəftərində tapşırıq 1-2 yerinə yetirilir. Test yazılır.

**XÜLASƏ:** "Yox" deməyi bacarıb-bacarmamağımızı, bunu etmək asan və ya çətin olduğunu və bunu nə cür etmək lazım olduğunu müəyyən edirik.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** şagirdlər özlərinin və başqaıarının korrupsiyaya münasibətlərini müəyyən edir. Korrupsiyaya "yox" deməyi öyrənirik.

---

## MÖVZU: İŞ SEÇİMİ

**MÜƏLLİF**: Vayva Vaysekauskene, Tahsil İnkişafı Mərkəzi monitorinq şöbəsinin baş mütəxəssisi

**SİNİF: 9-10**

**FƏNN:** etika, psixologiya (əlavə təhsil dərslərində də istifadə etmək olar).

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Şagirdlərin öz karyeralarını planlaşdırarkən hansı meyarlara əsaslanmaqlarını müəyyən etmək.
2. İş seçimi üçün meyarları müəyyən edib qiymətləndirmək.

**VƏSAİT:**

Paylanma üçün materiallar (bax: əlavələr)

**ÜSULLAR:** fərdi refleksiya, diskussiya, debat.

**DƏRSİN GEDİŞİ:**

1. Peşə, iş seçimi haqqında ilkin söhbət (kontekstdən asılı olaraq müəllim özü seçir).
2. İş seçimi üçün meyarların təsviri verilən vərəqin nüsxələri, habelə tapşırıq 1 və 2 şagirdlərə paylanır.
3. Tapşırıq 1 fərdi qaydada yerinə yetirildikdən sonra nəticələr və dəlillər sinifdə ümumi diskussiya zamanı müzakirə edilir.
4. Tapşırıq 2 fərdi qaydada yerinə yetirildikdən sonra nəticələrin ümumi xülasəsi hazırlanır, yəni:
   - şagirdlərin siyahısına əsasən seçmək üçün təqdim olunmuş

variantlardan hər birinin neçə bal topladığı müəyyən edilir;
- seçilmiş variantlar sıra ilə düzülür - topladığı ballar nə qədər az olsa, əhəmiyyəti o qədər yüksəkdir[1];
- müəllimin rəhbərliyi ilə nəticələr müzakirə edilir.

5. Üçüncü tapşırığın nüsxələri paylanır. Tapşırıq fərdidir, lakin onu bir neçə üsulla yerinə yetirmək mümkündür. Məsələn, şagirdin nəyə qabil olmağını, hansı işi yaxşı bacarmağını dostları qeyd edir, "Həyat o zaman mənalıdır ki,…" qrafasını doldurmaqdan öncə isə "Həyatı yaşamağa dəyərli edən nədir?" tapşırığı yerinə yetirilir.
6. "Hava şarında uçan zaman debat". Bu tapşırığın məqsədi seçdikləri peşələri başqaların seçdiyi peşələrlə müqayisə etmək və seçimlərini əsaslandırmaq üçün şərait yatarmaqdır. Şagirdlərdən xahiş edilir ki, onlara daha çox yarayan bir peşə seçib özləri üçün aşağıdakı suallara cavab versinlər:
   - bu peşə nə üçün xoşuma gəlir?
   - başqa adamlara, cəmiyyətə onun xeyri nədir?

Bundan sonra şagirdlər 5 nəfərdən ibarət qruplara bölünür. Onlardan xahiş olunur ki, hava şarında uçmalarını təsəvvür etsinlər. Bu şar çox alçağa enir və yalnız bir nəfəri saxlaya bilər. Bu, o adam olacaq ki, müəyyən peşə nümayəndəsi kimi ən çox xeyir gətirməyini dinləyicilərə sübut etsin. Hərəyə çıxış üçün 4 dəqiqə vaxt verilir. Beş sərnişindən hansı şarda qalmalı olduğunu sinif yoldaşları səsvermə yolu ilə müəyyən edirlər.
7. Mövzunun xülasəsini ya müəllim, ya da şagirdlər özləri verə bilər. Şagirdlər suallara cavab verir:
   - Mən dostların haqqında yeni nələr öyrəndim?
   - Mən özüm haqqında yeni nə öyrəndim?

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Korrupsiyapərəst mövqe iş etikası ilə bağlıdır. İş etikası isə, öz növbəsində, işçilərin məqsədlərindən asılıdır. Bu mövzu müəllimlərə şagirdlər haqqında, karyera planlarının əsaslandırılması haqqında və bunların təshih edilməsi haqqında məlumat əldə etmək imkanı verir.

## ƏLAVƏLAR

### İş seçimi üçün meyarlar

Çətin qərarlar qəbul edilərkən müxtəlif amillər nəzərə alınır. Bu amillərin heç də hamısı eyni dərəcədə vacib deyil. Məsələn, məktəb seçimində ən əsas məsələ - orada yaxşı müəllimlərin olmasıdır, məktəb yeməkxanasında isti bulkaların satılıb-satılmaması isə o qədər də əhəmiyyətli amil deyil. Konkret qərarların qəbul edilməsində nəzərə alınan əsas amillər ***meyar*** adlanır.

Qərarların əsasında dayanan *səbəblər* də meyar ola bilər. Məsələn, bir adamdan nə üçün xoşumuz gəlir ya gəlmir sualına biz, "Ona görə ki, onun yumor hissi var" və ya "Ona görə ki, o, açıqlıdır" cavab verə bilərik. Burada yumor hissi və açıq qiymətləndirmə meyarıdır.

[1] Şagirdlərin mövqelərinin nə cür paylanmasını daha aydın görmək üçün diaqram çəkmək olar.

Bəzən *müqayisə standartları* da meyar rolunu oynayır. Məsələn, B məktəbində müəllimlər sənin əvvəllər oxuduğun A məktəbin müəllimlərindən yaxşıdır, amma C məktəbi də var ki, buradakı müəllimlər B məktəbin müəllimlərindən də yaxşıdır. Odur ki, B məktəbini yalnız "yaxşı müəllimlər" meyarı ilə ölçsək, o ən yaxşı məktəb təsəvvürü bağışlamayacaq.

Həyatlarını planlaşdırarkən, habelə peşə və iş seçərkən adamlar yenə də meyarlardan istifadə edir.

**Tapşırıq 1.** Aşağıdakı meyarlardan hansı(ları)nı sən iş seçimində nəzərə alardın? Hansılarını nəzərə almazdın? Səbəbini izah et.

Sən elə bir iş yeri axtarırsan ki, orada:

a. özün üçün maraqlı iş tapasan;
b. çoxlu yaxşı gənc işçi var;
c. yaxşı maaş verirlər;
d. iş azdır;
e. nahar fasiləsi uzun, iş həftəsi qısadır;
f. iş gedişində daim oxumaq lazımdır;
g. müdirlər yaxşıdır:
h. iş sənin bacarıqlarına uyğundur;
i. həm bina, həm də iş yerləri gözəldir;
j. əlavə gəlir əldə etmək olar.

**Tapşırıq 2.** Aşağıdakı siyahıda iş seçiminin əsasında dayanan səbəblərin yerlərini istədiyin kimi dəyişərək ən vacibindən başlayaraq əhəmiyyətinə görə sıraya düz.

.….mənim himayəmdə olan adamları maddi cəhətdən saxlamaq;
…..bütün dünya üçün mənası olan xeyirli bir iş görmək;
…..hörmət qazanmaq, tanınmaq, nüfuz sahibi olmaq;
…..istedadımı (xüsusi qabiliyyətimi) həyata keçirmək;
…...özüm üçün yüngül, xoş həyat yaratmaq;
…..ailə ənənəsini davam etdirmək, valideynlərin ümidlərini doğrultmaq;
…...oxumaq, təkmilləşmək;
başqa (yaz) …………………………………………………………………

Birinci seçimini öz sözlərinlə əsaslandır.
……………………………………………………………………………
……………………………………………………………………………

**Tapşırıq 3.** Peşə və ya iş seçimində əksər hallarda dörd meyardan istifadə edilir: maraq; qabiliyyət; gəlir; məna. Göstərilən meyarlardan istifadə etməkdən qabaq *Səni* maraqlandıran nədir; *Sən* nəyi yaxşı bacarırsan və ya eləyə bilirsən; *Sən* nə cür gəlir əldə etmək fikrindəsən; *Sənin* həyatını mənalı edən nədir.

| *Məni maraqlandırır:* | *Qabiliyyətlərimdən ən güclüsü:* | *Mən istərdim o qədər qazanım ki,* | *Həyat o vaxt mənalıdır ki,* |
|---|---|---|---|
| ………………….<br>………………….<br>………………….<br>………………….<br>………………….<br>………………… | ………………….<br>………………….<br>………………….<br>………………….<br>………………….<br>………………… | ………………….<br>………………….<br>………………….<br>………………….<br>………………….<br>………………… | ………………….<br>………………….<br>………………….<br>………………….<br>………………….<br>………………… |

Seçmək istədiyin bir neçə peşənin və ya fəaliyyət növündən ibarət bir siyahı tərtib et. Aşağıdakı cədvəlin köməyi ilə bu peşələri qiymətləndir:

| **Peşə, iş** | **Maraq** | **Qabiliyyət** | **Gəlir** | **Məna** |
|---|---|---|---|---|
| ………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>……………… | ………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>……………… | ………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>……………… | ………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>……………… | ………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>………………<br>……………… |

Həyatı yaşamağa dəyərli edən nədir?

**Məşğələ.** Aşağıda müxtəlif şeylərin adı çəkilir ki, bunlara görə bəlkə də yaşamağa dəyər. Bunları şəxsən Sənin üçün əhəmiyyətinə görə yerləşdir. Nəinsə adı yoxdursa, onu özün siyahıya əlavə edə bilərsən.

…..insanların bir-birilə əlaqəsi;
…..əmanət, əmlak, kolleksiyalar;
…..yaratmaq, icad etmək imkanı;
…..nəsli davam etdirmək;
…..səyahət etmək, öyrənmək, kəşf etmək imkanı;
…..sevilmək;
…..sevmək;
…..məşhurluq, şöhrət;

…..cürbəcür maraqlı şeylər (kompyuterlər, avtomobillər, pleyerlər, velosipedlər və s.)
…..dünyanın gözəlliyi;
…..əbədiyyata inam.

---

## MÖVZU: ETİKA KODEKSİNİ NECƏ YAZMALI

**MÜƏLLİF**: Vayva Vaysekauskene, Tahsil İnkişafı Mərkəzi monitorinq şöbəsinin baş mütəxəssisi

**NƏZƏRDƏ TUTULUB:** yuxarı sinif şagirdləri və müəllimlər üçün

**MƏQSƏD:**

1. Müxtəlif idarə, müəssisə və qrupların işinin tənzimlənməsində etika kodekslərinin yeri ilə tanış olmaq.
2. Müxtəlif funksiyaları yerinə yetirən orqanların fəaliyyətinin əsasında dayanan dəyər prinsipləri və normalarını müəyyən etmək.

**VƏSAİT:**

- Etika kodekslərinin yazılma prinsiplərinin açıqlanması (paylanma materialı).
- "İdeal məqsədlər nə üçün lazımdır" tapşırığı (paylanma materialı).
- Etika kodekslərinin nümunələri (paylanma materialı, bax: Əlavə - "Etika kodeksləri", səh. 125-173).

**ÜSULLAR:** mətnlə iş, diskussiya.

**DƏRSİN GEDİŞİ:**

1. Mətni oxuyaraq, şagirdlər etika kodekslərinin məğzi və məqsədini müəyyən edirlər.
2. Hansı təşkilat (öz məktəbləri, sinifləri, fənn müəllimləri və ya hər hansı xidmət) üçün etika kodeksi yaratmaq istədikləri haqqında qərara gəlirlər.
3. "İdeal məqsədlər nə üçün lazımdır" tapşırığını yerinə yetirərkən şagirdlər öz qrupları, təşkilatları, xidmətlərinin niyyətini necə başa düşdükləri haqqında məsləhətləşirlər.
4. 7 addımın izahına əsaslanaraq şagirdlər etika kodeksi yaradır. Etika kodekslərinin nümunələri təhlil edilir.

**VARİANTLAR:**

Müxtəlif xidmətlərin, təşkilatların, professional qrupların məqsəd və dəyərlərini başqa mənbələrdən daha aydın açıqlayan etika kodeksləri maraqlı tədqiqat obyekti ola bilər. Bunlardan başqa cür də istifadə edilə bilər:

1. Müxtəlif xidmətlərin etika kodekslərini təhlil edərək aşağıdakı suallara cavab tapmaq:

- Bu xidmətlərin vəzifəsi nədir?
- İşçilər üçün məcburi olan nədir?
- Qadağan edilən nədir?
- Bu xidmətin kodeksindən mən onun haqqında yeni nə öyrəndim?

2. Bir xidmətin müxtəlif ölkələrdəki etika kodekslərini müqayisə etmək:
   - Bunların oxşar cəhətləri hansılardır?
   - Fərqli cəhətlər hansılardır?
   - Xidmətin vəzifələrini və müxtəlif ölkələrdə iş xüsusiyyətlərini nəzərdə saxlayaraq, kodekslərin oxşarlıq və fərqləri nəyi göstərir?

**Etika kodeksi nədir?**

Qulluqçuların davranış normalarının hamısını qanunvericilikdə əks etdirmək mümkün deyil. Ələlxüsus əxlaq norma və prinsiplərini qanunla müəyyən etmək olduqca çətindir. Professional etika normalarını xidməti etika kodeksində əks etdirmək daha asandır. Burada həm də xidməti vəzifələr əks edilə bilər. Etika kodeksləri aşağıdakı məqsədlərlə yaradılır:

- müəssisə fəaliyyətinin əsasında dayanan dəyər və prinsiplər haqqında işçilərə məlumat vermək;
- məqbul fəaliyyət normalarını müəyyən etməklə işçiləri əmək intizamına öyrətmək;
- ən çox rast gəlinən problematik hallarda düzgün qərar qəbul etməkdə işçilərə kömək etmək;
- rəhbərlər, işçilər və müştərilər arasında münaqişələrin sayını azaltmaq;
- işçilərdə düzgünlük, məsuliyyət, kollegiallıq, etimad və etibarlılığı artırmaq.

Etika kodeksləri universal deyil: onlar konkret təşkilatın, müəssisənin ehtiyacları və dəyərlərini müəyyən etmək məqsədilə yaradılır. Etika kodekslərinin əksəriyyəti iki hissədən ibarətdir:

- təşkilatın ümumi *niyyət* və *ideallarını* təsvir edən hissə;
- *spesifik qaydaları* müəyyən edən hissə.

**Etika kodekslərinin yazılmasında yeddi addım**

1. Təşkilatınızın, müəssisənizin vəzifəsini (ideal məqsədini) müəyyən edin.
2. Hərəniz şəxsən özü üçün ən vacib olan iş prinsiplərini yazın; burada ədalət, düzgünlük, məsuliyyət, etibarlılıq, xeyirxahlıq və s. bu kimi dəyərlər öz əksini tapmalıdır.
3. Bu prinsipləri aranızda müzakirə edin və ümumi olanları qeyd edin.
4. Başqa təşkilat və müəssisələrin etika kodekslərini oxuyun - bəlkə burada siz unutduğunuz və ya daha dəqiq ifadə edilmiş prinsiplərə rast gələrsiniz ki, bunlardan öz yazdıqlarınıza əlavə edə bilərsiniz.
5. Əxlaq problemlərinin ən çox hansı hallarda yaranması haqqında düşünün və bu halları qeyd edin.
6. Artıq ifadə etdiyiniz prinsipləri nəzərə alaraq həmin hallarda hər bir şəx-

sin nə etməli və ya etməməli olduğunu yazın.

7. Yaratdığınıza yenidən nəzər salın:
- bir-birini təkrar edən müddəaların olmamasında əmin olun;
- hər müddəanın dili və fikirlərinin aydın olmasında əmin olun;
- qısaltmaq mümkün olan nə varsa - qısaldın;
- aydın olmayan nə varsa - başqa sözlərlə ifadə edin.

**Tapşırıq: İdeal məqsədlər nə üçün lazımdır?**

İdeal məqsədlər hər bir fəaliyyətin əsas xəttidir. Bunların tələb etdiyi mükəmməllik və tamamlığa müvəffəq olmaq çətin olsa da, ideallar olmadan yaxşı işləmək daha da çətin olardı. Təbiidir ki, hər bir hərəkətin ideal məqsədi ola bilməz. Bəzən fəaliyyətin mənalı olması üçün vəzifəsinin aydın olması kifayətdir. Bu, adamlara öz rol və vəzifələrini anlamağa kömək edir.

| | |
|---|---|
| Cədvəldə müəyyən fəaliyyət növləri və məqsədlər göstərilir.<br>Fəaliyyət növünə müvafiq məqsəd seçin. | Bu fəaliyyət növlərinin məqsədləri nədir? |
| Göstərilən məqsədlər idealdırmı? | Bunlar idealdırmı? |

| Fəaliyyət növü | Məqsədlər | Fəaliyyət növü | Məqsədlər |
|---|---|---|---|
| 1. təbabət | a. gözəllik | 1. öyrətmək | |
| 2. yemək | b. sağlam mühit | 2. öyrənmək | |
| 3. inşaat | c. konsertdə iştirak | 3. qanunvericiluk | |
| 4. incəsənət | d. həqiqət | 4. polis işi | |
| 5. sevgi | e. sağlamlıq | 5. məhkəmə işi | |
| 6. konveyer istehsalı | f. doyma | 6. dövlət idarəçiliyi | |
| 7. elm | g. xoşbəxtlik | 7. | |
| 8. məşq | h. mənzil tikintisi | 8. | |
| 9. tullantı daşınması | i. məhsuldarlıq | 9. | |

---

## **MÖVZU:** EHTİYACLAR VƏ ARZULAR

**MÜƏLLİF**: Qrajina Qriqonene, Elektrenai şəh. "Ajuolinas" orta məktəbinin etika müəllimi

**SİNİF: 8-9**

**SAAT: 2**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Ehtiyaclarla arzuların fərqini müəyyən etmək.
2. Ehtiyac və arzuların həyata keçirilməsinin mümkün üsullarını müzakirə etmək.
3. Ehtiyac və arzuların insafsızlıq, vəzifədən sui istifadə imkanları və s. bu kimi hallarla əlaqəsini təhlil etmək.

**ÜSULLAR:** diskussiya, müxtəlif halların təhlili.

**DƏRSİN GEDİŞİ:**
10-dəqiqəlik mühazirə.
Müəllim ehtiyac və arzuların tərifini verir, ehtiyacları təsnif edir və səciyyələndirir, ehtiyac və arzuların həyata keçirilməsinin mümkün üsullarını müzakirə edir.

**Tapşırıq 1:** Şagirdlər mühüm hesab etdikləri 10 şeyin siyahısını tutur. Tapşırığı yerinə yetirəndən sonra hərə özü üçün mühüm olan şeylərin adını çəkir, müəllim bunları lövhədə qeyd edir. Şagirdlər ehtiyac və arzuları iki ayrı sütunda qruplaşdırmalıdır. Şagirdlərin fikri üst-üstə düşməyə də bilər. Belə olduqda bu barədə diskussiya aparmaq olar.
Diskussiya üçün suallar:

1. Ehtiyaclar arzulardan nə ilə fərqlənir?
2. Nə üçün başqa adamların ehtiyaclarını nəzərə almaq vacibdir?
3. Pul ehtiyacdır, yoxsa arzu?
4. Ehtiyac və arzular insafsızlıq, vəzifədən sui istifadə imkanları və s. bu kimi hallarla nə cür bağlıdır?

Müəllim şagirdlərin cavablarını ümumiləşdirir, ehtiyac və arzuların insafsızlıq, vəzifədən sui istifadə imkanları ilə əlaqəsini daha geniş şəkildə təhlil edir.

**Tapşırıq 2:** Hallar "çantası". Şagirdlər qruplarda işləyir. Müəllim kiçik vərəqlərdə ayrı-ayrı halları təsvir edir və bunları bir çantaya yığır. Şagirdlər çantadan vərəqləri bir-bir çəkərək onların həlli yollarını qrupda müzakirə edirlər.
Məsələn:

1. Mən çox istərdim ki, nüfuzlu məktəbdə oxuyum, amma orta balım aşağı olduğundan məni ora qəbul etmirlər. Mən nə edim? Mən köməyi harada tapa bilərəm? Mənə kim kömək edə bilərdi?
2. Məktəbimizin ən yaxşı şagirdləri yayda xaricə, istirahət düşərgəsində dincəlməyə gedə bilərlər. Bu xoşbəxtlərin siyahısına düşmək üçün bir balım çatmır. Mən nə edim? Xaricə istirahət düşərgəsinə getmək şansım varmı?
3. Atamın maşınında dostlarımı diskotekaya aparmaq istəyirdim. Bizi polis saxladı. Mənim sürücülük vəsiqəm yoxdur. Mənim məsuliyyətdən boyun qaçırmaq üçün şansım varmı? Yoxsa etdiyim hərəkətə görə məsuliyyəti qəbul etməliyəm?

Müəllim şagirdlərə təklif edə bilər ki, özləri buna bənzər hallar təklif edib onları sinifdə müzakirə və təhlil etsinlər.
İkinci dərsin sonunda müəllim şagirdlərin söylədiyi fikirlərin xülasəsini verir.

---

## MÖVZU: YAXŞI, LƏYAQƏTLİ HƏYAT ANLAMI

**MÜƏLLİF**: Qrajina Qriqonene, Elektren şəh. "Ajuolinas" orta məktəbinin etika müəllimi

**SİNİF: 9-10**

**DAVAMI:** 2 dərs

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. "Həyat"la "Yaxşı həyat" arasındakı fərqləri müəyyən etmək.
2. Yaxşı və ləyaqətli həyat prinsipləri və normalarını müzakirə etmək.
3. Sosial şəraitin yaxşılaşdırılmasının həyatın keyfiyyətini artırmaqda rolunu təhlil etmək. Ləyaqətli həyat məfhumunun tərifini yaratmaq.

**ÜSULLAR:** diskussiya, təhlil

**DƏRSİN GEDİŞİ:**

1. Şagirdlər evdə "Mən necə yaşamaq istərdim" və ya "20 ildən sonra mənim həyatım" mövzusunda inşa yazmalı idilər. Müəllim bir neçə şagirddən öz inşalarını oxumağı xahiş edir. Digər şagirdlər sinif yoldaşlarının fikirlərini təhlil edə bilərlər.
2. Müəllim Baltrus Dagilisin (əsl adı K. Ləkətskas) fikirlərini oxuyur: "İnsan ağaca bənzəyir - əlbətdə, o özü də böyüyə bilər, amma qulluqsuz turş, acı, heç nəyə yaramayan bar verəcək. Ləzzətli və şirin bar almaq üçün isə ağacı əkmək, calamaq, artıq budaqlarını kəsmək, əyri bitməsin deyə dirəyə bağlamaq, sulamaq lazımdır…" Müəllim bu fikrin məğzini izah edir.
3. **Tapşırıq 1.** Hər şagird ayrı vərəqdə ən vacib 9 şeyin şəklini çəkir. Sonra çox əhəmiyyətli olmayan 3 şeyi pozur. Yaxşı düşündükdən sonra yerdə qalan 6 şeydən üçünü pozur. Bu qayda ilə son nəticədə cəmi bir, ən mühüm şey qalana qədər davam edir. Bu şəkil hal-hazırda şagird üçün ən mühüm olan şey haqqında məlumat verir. Hərə çəkdiyi şəkli sinif yoldaşlarına göstərir. Bu tapşırıq şagirdlərə özlərini daha yaxşı dərk etməyə, başqalarını başa düşməyə kömək edir. Şagirdlər öz niyyətlərini həyata keçirmək yolları haqqında, məqsədə çatmaq üçün bütün üsulların qəbul olub-olmaması haqqında diskussiya edir. Müəllim şagirdlərin fikirlərini ümumiləşdirir.
4. **Tapşırıq 2:** Müəllim şagirdlərə böyüklərin adətən axtardığı şeylərin siyahısını verir.

   Böyüklər:

- uşaq üçün yaxşı uşaq bağçası və ya dayə;
- nüfuzlu məktəb;
- münasib ixtisas;
- faydalı tanışlıq;
- yaxşı mənzil;
- sərfəli maşın (siyahını davam etdirmək olar)

axtarır.

Bunun nə üçün belə olması barədə diskussiya aparılır.

Şagirdlər istədikləri, can atdıqları, ehtiyac duyduqları şeylər haqqında danışır, maqsədlərinə necə nail ola biləcəkləri haqqında və məqsədlərinə çatmaq üçün hansı üsullardan istifadə edə biləcəkləri haqqında fikirlərini bölüşürlər.

Müəllim şagirdlərə ləyaqətli həyat məfhumunu yaratmağa kömək edir.

**5. Tapşırıq 3:** Müəllim şagirdlərə atalar sözü və zərbi-məsəllər təklif edir, şagirdlər isə onları necə başa düşdüklərini izah etməlidir. Məsələn, "Əl əli yuyar, əl də üzü", "Qarğa qarğanın gözünü çıxartmaz", "Nə doğrarsan aşına, o çıxar qaşığına", "Bal tutan barmaq yalayar", "Budaqdan qopan alma ağacın dibinə düşər", "Dəvəni palaz altında gizlətmək olmaz", "Çox yemək adamı az yeməkdən də qoyar", "Əkməsən - əkin olmaz", "Qazanın qarası gedər, üz qarası getməz".

Müəllim yavaş-yavaş bu məsəllərin izahını korrupsiya əleyhinə mübarizə mövzusu ilə bağlayır ki, şagirdlər fikirlərini söyləyə və diskussiya apara bilsin.

---

## MÖVZU: ALTRUİZM, EQOİZM

**MÜƏLLİF**: Qrajina Qriqonene, Elektren şəh. "Ajuolinas" orta məktəbinin etika müəllimi

**SİNİF: 9-10**

**DAVAMI:** 1 dərs

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. "Altruizm" və "Eqoizm" anlamlarını təhlil etmək.
2. Eqoist və altruistin səciyyəvi xüsusiyyətlərini müəyyən etmək.
3. Altruizmin qarşısını alan maneələri təhlil etmək.
4. Altruizmi təbliğ etmək.

**ÜSULLAR:** cüt-cüt iş, "tor" çəkmə.

**DƏRSİN GEDİŞİ:**

Müəllim "altruizm" və "eqoizm" məfhumlarının xülasəsini verir. Litva mədəniyyətinin məşhur altruist xadimlərinin adlarını çəkir: Simonas Daukantas (tarixçi, "yoxsul si-

çan”), Kazimeras Buta (ana dilini qorumaq üçün “özünü unutmuş”), Mariya Peçkaus-kayte-Şatriyos Raqana (yetimlərin hamisi, maarifçi, əxlaq və ayıqlığın təbliğatçısı) və s. Müəllim vurğulamalıdır ki, başqalarına kömək etmək nəcib işdir, lakin altruizm düşünülməmiş, ölçülüb-biçilməmiş, hədsiz olmamalıdır, ona görə ki, tüfeylilər xeyriyyəçilikdən sui-istifadə edə bilərlər. Şagirdlərdə belə fikir yaranmalıdır ki, eqoizm, özünüqoruma instinktindən yaranır, insan ömrü təhlükələrdən azad deyil və onlar özləri təhlükəsizlik üçün şərait yaratmalıdır. Müəllim izah etməlidir ki, əxlaq prinsiplərinə görə insanın öz qayğısına qalması, firavan yaşamaq üçün qazanmaq həvəsi qınanmalı deyil. Problem o vaxt yaranır ki, insanlar qanunsuz hərəkət edir və özləri ilə başqaları arasında lazımi tarazlıq saxlamırlar.

**Tapşırıq 1.** “Tor” çəkmə. Şagirdlər cüt-cüt işləyərək dəftər vərəqinin ortasında “altruist” və “eqoist” sözləri yazırlar. Həmin məfhumlarla bu və ya digər şəkildə əlaqəli olan mümkün qədər çox söz yazır və bunları xətlərlə birləşdirirlər. Sonra sözlər arasında müəyyən əlaqə axtarır və bunları düzgün hesab etdikləri qaydada birləşdirirlər. Beləliklə “tor” yaranır. Hər cüt öz “torunu” sinifə təqdim edir. Bundan sonra lövhədə ümumi bir “tor” çəkmək olar. “Tor” hazır olanda şagirdlər altruistlə eqoistin xüsusiyyətlərini qruplaşdırır və müqayisə edirlər. Şagirdlərə korrupsion məmurların eqoist, yoxsa altruist olmalarını müəyyən etməyə kömək edən müxtəlif hallar təklif etmək olar.

Diskussiya üçün suallar:

1. Valideynlər öz övladlarını firavan böyütmək üçün fədakarlıq göstərir, uşaq isə böyüyəndə nankor, qətiyyətsiz və eqoist bir insana çevrilir. Nəyə görə?
2. Nə üçün bu gün vacibdir ki, hər bir insan özünü bəşəriyyətin nümayəndəsi, dünya vətəndaşı kimi qavrasın və öz fəaliyyətilə bütün insanların maraqlarını müdafiə etsin?

**Tapşırıq 2:** Şagirdlər müstəqil qaydada “altruizm” və “eqoizm” məfhumlarının tərifini verir, ən yaxşı təriflər lövhədə qeyd edilir.

---

## MÖVZU: ƏDALƏT

**MÜƏLLİF**: Yurgita Valuntonene, Pasvalis şəh. Petras Vileyşis adına gimnaziyanın sosial pedaqoqu və etika müəllimi

**SİNİF: 10**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:** Ədalət məfhumunu bir dəyər kimi təhlil etmək, ədalətin əsas prinsiplərini müzakirə etmək, Qədim Misir dövründən bu günə kimi ədalət anlamının nə cür dəyişməsini təhlil etmək.

**ÜSULLAR:** müqayisə, təhlil, qruplarda iş, mənbələrlə iş.

**DƏRSİN GEDİŞİ:**

1. Ədalət əxlaqi dəyər kimi müzakirə edilir.
2. Ədalət şəxsi xüsusiyyət kimi müzakirə edilir.
3. Ədalətin rəmzi (Femida) xatırlanır.
4. Bəzi adamların qanunsuz hərəkətləri necə qiymətləndirilir? Dövlət qulluqçularının qanunsuz hərəkətləri necə adlanır? Korrupsiya nədir, o özünü necə büruzə verir?
5. Şagirdlərə "Gölməçəyə atılmış daş" və ya "Söz zənciri" oyunlarını oynamaq təklif edilir. Təsadüfən ağla gələn və ya düşünülmüş qaydada seçilmiş bir söz yeni assosiasiyalar (surətlər, xatirələr, xəyallar) yaradır. Müəllim şagirdlərə hər vaqonu ayrı bir sözdən ibarət uzun bir qatar yaratmağı təklif edir. Sözlər kimi, vaqonlar da bir-birilə bağlı olmalıdır.

**"Söz zənciri" oyunu**

Oyunu müəllim başlayır və "Korrupsiya" adlanan birinci vaqonu qoyaraq soruşur: "Korrupsiya nədir?"
Qrup üzvləri "çirkin", "pul hərisi", "ədalətsiz" deyirlər (üç vaqon qoymaq olar).
Müəllim: "Başqa nə çirkin ola bilər?"
Qrup üzvləri: "Əməl", "söz", "fikir".
Müəllim: "Bəs fikir necə ola bilər?"
Qrup üzvləri: "Dərin", "gözəl", "uzun", "düşünülmüş"…
Oyun, vaqonlar qurtarana qədər, yaxud oyunçular yorulana qədər davam edir. Vaqonlar müxtəlif rəngdə ola bilər. Onları rəngli kublarla da əvəz etmək olar. Hər qrupun öz rəngi ola bilər. Sonda ən çox fikir söyləmiş və ya ən çox vaqon toplamış qrup müəyyən edilir.

**"İkihədli fantaziyalar" oyunu**

Masanın üstünə kartlar düzülür (üzüaşağı). Topada paltar, heyvan, mebel və digər buna bənzər şəkilli kartlar var (fotoşəkillərdən də istifadə etmək olar). Hər qrupun nümayəndəsi topadan bir şəkil götürərək onu başqalarına göstərir. Müəllim şəkildə göstərilənləri bir və ya bir neçə sözlə birləşdirməyi təklif edir. Şagirdlər münasib söz, məsələn, "pul" və "həbsxana" haqqında düşünərkən, onlardan bir əhvalat yaratmaq xahiş etmək olar. "Qanunsuz yolla pul əldə etmiş adam həbsxanaya düşdü" cümləsini genişləndirərək yeni əhvalat yaratmaq olar. Müəllim belə bir fikir irəli sürə bilər ki, o adam korrupsiyaya uğramışdı və buna görə də layiqli cəzasını aldı. Oyun iştirakçıları istədikləri söz birləşməsini seçərək öz əhvalatlarını yarada bilərlər. Hekayəyə şəkil çəkmək, qruplarda və ya cütlərdə işləməyi də təklif etmək olar.

**"Çoxhədli fantaziyalar" oyunu**

Masaların üstünə müxtəlif şeylər və süjetlər təsvir olunmuş kartlar düzülür (üzü-

aşağı). Müəllim sual verir, oyun iştirakçıları növbə ilə kartları çevirərək bu suala cavab verməyə çalışırlar: "Burada nə baş verib?", "Bu harada baş verə bilərdi?", "Onlar nə ilə məşğul olurdu?", "Adamlar nə dedi?", "Bunun axırı nə oldu?" və s. Oyunun sonunda bütün qrupa əhvalat yaratmaq təklif edilir.

6. Dərsin sonunda şagirdlər aşağıdakı suallara cavab verir:
   - Ədalət korrupsiya ilə bir araya sığa bilərmi?
   - Müasir dünyada ədalət dəyərdirmi?

---

## MÖVZU: PUL

**MÜƏLLİF**: Yurgita Valuntonene, Pasvalis şəh. Petras Vileyşis adına orta məktəbinin sosial pedaqoqu, etika müəllimi

**SİNİF: 10**

**MƏQSƏD:** maddi maraqlarla bərabər ahəngdar şəxsiyyətin formalaşması zərurətini anlamaq.

**VƏZİFƏLƏR:**

1. Hansı davranışın əxlaqi, qeyri-əxlaqi və əxlaqsız adlandırılmasını təhlil etmək.
2. Biznesin etik aspektlərini müzakirə etmək.
3. Korupsiyanın cəmiyyətə vurduğu ziyanı müzakirə etmək.

**ÜSULLAR:** müqayisə, təhlil, qruplarda iş, mənbələrlə iş.

**DƏRSİN GEDİŞİ:**

1. Əxlaqi davranış prinsipləri müzakirə edilir.
2. Qeyri-əxlaqi davranış və əxlaqsızlıq məfhumları müzakirə edilir.
3. İqtisadi cəhətdən zəif ölkədə insan özünü təhlükəsizlikdə hiss edə bilərmi?
4. Bəzi adamların qeyri-qanuni hərəkətləri necə qiymətləndirilir? Dövlət qulluqçularının qanunsuz əməlləri necə adlanır? Korrupsiya nədir, o özünü necə büruzə verir? Korrupsiyaya qoşulmaq əxlaqidirmi?

**Şagirdlər beş nəfərdən ibarət qruplara bölünür, düşündükdən sonra yazırlar:**

- daxili dairədə - onların fikrincə, əxlaqi davranışa xas olan beş keyfiyyət;
- xarici dairədə - onların fikrincə, əxlaqsızlıqla bağlı olan beş keyfiyyət;
- birmənalı şəkildə bu və ya digər qrupa aid edə bilmədikləri xüsusiyyətləri iki dairənin arasında yazmaq olar.

Qrupların işi müqayisə edilir. Lövhədə ümumi siyahı tutmaq olar. Hər hansı sözün bu və ya digər dairəyə aid edilməsi haqqında sinifdə mübahisələr yaranarsa,

onları mütləq həll etmək və müxtəlif mövqelərin dəlillərini müqayisə edərək ümumi qərara gəlmək lazımdır.

1. Sinifdəki bütün şagirdlər birlikdə sözlərdən "körpü" tikirlər. Hərə korrupsiya ilə əlaqələndirilə bilən bir isim və ya sifət deyir. Sözlərin "körpüdə" yerləşdirilməsi haqqında razılığa gəlmək lazımdır. Sonra söz yazılır.
2. Dərsin sonunda hamı birlikdə suallara cavab verir:
   - Əxlaqi davranış korrupsiya ilə bir araya sığa bilərmi?
   - Əxlaqi davranış rəqabətlə bir araya gələ bilərmi?

---

## **MÖVZU:** MƏQSƏD VƏ VASİTƏLƏR

**MÜƏLLİF**: Violetta Vaytkeviçene, Kedayn şəh. "Atjalinas" orta məktəbinin etika müəllimi

**SİNİF: 10**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:**

1. Şagirdlərin korrupsiya haqqında bildiklərini müəyyən etmək.
2. Əxlaqlı davranmaq meylini gücləndirmək.
3. Davranışla onun nəticələri arasında qarşılıqlı əlaqənin mövcud olmasının başa düşülməsini aşılamaq.
4. Şagirdlərdə tənqidi düşünmə qabiliyyətini aşılamaq.

**GÖZLƏNİLƏN NƏTİCƏLƏR**

1. Şagirdlər cəmiyyətimizdə korrupsiya təzahürlərini görməyi bacaracaq.
2. Şagirdlər əməkdaşlıq etməyi öyrənəcək.
3. Onlar həm də qərar qəbul etməyi öyrənəcək.
4. Onlar səbəb-nəticə əlaqələrini anlayacaq.

**ÜSULLAR:** alternativ yollar xəritəsi, diskussiya.

**VƏSAİT:** şagird qruplarına bir situasiya təqdim edilir, "maneə" məfhumu anladılır. Tapşırığı yerinə yetirəndən sonra diskussiya üçün suallar, vərəqlər və qələmlər paylanır.

**DƏRSİN GEDİŞİ:**

Şagirdlər 4-5 nəfərdən ibarət qruplara bölünür. Şagirdlərə müəyyən situasiya təqdim edilir, əsas iştirak edən şəxsin yeri və onun çatmalı olduğu məqsəd göstərilir. Şagirdlərdən məqsədə aparan yolu çəkmək, habelə iştirak edən şəxsin rastlaşacağı maneələri göstərməklə məqsədə çatmaq üçün mümkün qədər çox alternativ yollar tapmaq xahiş edilir. Şagirdlər yolda çıxan maneələri aşmaq üsullarını izah etməlidir.

**Situasiya**

Diz nahiyəsində ağrıdan şikayətlənən pasiyent həkimə müraciət edir. Aparılan müəyinədən sonra həkim bildirir ki, dizdə cərrahi əməliyyat aparılmalıdır. Pasiyent əməliyyata razılaşır. Həkim deyir ki, əməliyyat üçün növbədə hələ 73 nəfər var. Əməliyyatın xəstəxanın hesabına aparılmasını istəyirsə, pasiyent ən azı yarım il gözləməlidir. Xəstə xərcləri özü ödəməyə razıdırsa (belə əməliyyatın qiyməti 4-5 min litdir), növbədə dayanmaq lazım gəlməyəcək. Pasiyent deyir ki, onun belə pulu yoxdur. Amma yarım il gözləməli olsa, vəziyyəti ağırlaşa bilər. Dizində əməliyyatı tezləşdirmək üçün pasiyent nə edə bilər? Situasiyadan çıxmaq üçün ən azı 2 üsul tapın (bax: Əlavə).

## Diskussiya üçün suallar:

1. Situasiyada kimlər iştirak edir?
2. İnsafsızlıq baş veribmi?
3. Kimə isə zərər vurulubmu?
4. Kimsə bundan bir şey qazandımı? Niyə?
5. Məqsədinə nail olmağa çalışan pasiyent haqlı idimi?
6. Situasiya iştirakçılarının davranışına bəraət qazandırmaq olarmı?
7. Dövlət ağır xəstələrin müəlicəsinə yönəlmiş əlavə vergi tətbiq etsə idi, bu vəziyyət dəyişərdimi?
8. Bu situasiyanın iştirakçıları özlərini necə hiss edirlər?

**ƏLAVƏLƏR:**

Maneə - pasiyent öhdəsindən gəlməli olduğu obyektlər / təşkilatlardır.




---

## **MÖVZU:** MÜNASİBƏTLƏR. MÜNASİBƏTLƏRLƏ DAVRANIŞIN UZLAŞMASI

**MÜƏLLİF**: Yurate Blinstrubayte, Kedayn şəh. "Atjalinas" orta məktəbinin psixologiya müəllimi, Violeta Vaytkeviçene, Kedayn şəh. "Atjalinas" orta məktəbinin etika müəllimi.

**SİNİF: 10**

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:** münasibətin nə olduğunu və onun tərkib hissələrini müəyyən edən zaman şagirdlər münasibətlə davranış arasında səbəb-nəticə əlaqəsini anlayacaq.

**VƏSAİT:**

- *Gailiene D. ir kt.* Asmenybes ir bendravimo psichologija: vadovelis 11-12 klasems.- Vilnius: Tyto alba, 2002, səh. 176-179.
- "Münasibətlərin tərkib hissələri" sxemi.

**ÜSULLAR:** müəllim izahı, qruplarda iş, diskussiya.

**DƏRSİN GEDİŞİ:**

1. Müəllim münasibətin tərifini verir və onun tərkib hissələri haqqında danışır.

**Münasibət** - bir şəxsi müəyyən əşyaların, insanların və hadisələrin müəyyən şəkildə qavranılmasına hazırlayan əqidə və hisslərdir.

**MÜNASİBƏTLƏRİN KOMPONENTLƏRİ**

| ***Dərk etmə*** | ***Emosional reaksiya*** | ***Davranış*** |
|---|---|---|
| Bu, müəyyən insanlar və əşyalar barəsində bizim fikirlərimiz və əqidələrimizdir. Bunların köməyi ilə biz nələrin doğru, mümkün və ya nəyə isə bənzər olması haqqında qərar çıxarırırq. | Buraya əqidələrlə bağlı xoş və ya acı emosiyalar daxildir. Bunlar münasibətə emosional rəng verir və etmək istədiyimiz hərəkəti müəyyən edir. | İnsanın əqidəsi və təcrübəsinə uyğun olan reaksiyanın əsasında dayanan hərəkət. |

2. "Münasibət komponentləri" sxeminə əsaslanaraq müəllim bir misalı təhlil edir: "Cənab Steponas Kura dilində istirahət etməyi çox xoşlayır, valideynlərindən irsən ona keçən torpaq isə Panevejis rayonunda yerləşir və dəniz kənarındakı sevdiyi yerə heç bənzəmir. Cənab Steponasa elə gəlir ki, torpaq idarəçiliyi sahəsində çalışan cənab Aleksas o qədər də vicdanlı və namuslu Litva vətəndaşı deyil (münasibətin dərketmə komponenti). Belə şəraitdə Steponas özünü tamamilə çıxılmaz vəziyyətdə hiss edir (emosional reaksiya komponenti), ona görə ki, özü Kura dilində torpaq ala bilmir. Buna görə çox güman ki, cənab Steponas cənab Aleksasa rüşvət verərək (davranış komponenti) valideynlərindən qalan torpağı Panevejis rayonundan Kura dilinə keçirsin."
3. Bu misala əsaslanaraq şagirdlər öz hekayələrini yaradırlar.
4. Bundan sonra şagirdlər münasibətlə davranış arasındakı əlaqəni müəyyən etməlidir:




5. Şagirdlər seçdikləri varianta əsasən 3 qrupa bölünür (bucaqlar üsulu). Qruplar öz seçimlərini müzakirə edir. Sonra hər qrup öz dəlillərini təqdim edir. Fikirlərini dəyişmiş şagirdlər müvafiq qrupa keçirlər.
6. Müəllim qruplar arasındakı diskussiyanı tamamlayır və göstərir ki, münasibətlə davranış arasında səbəb-nəticə əlaqəsi mövcuddur.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:** Münasibətin nə olduğunu, onun komponentlərini müəyyən edərkən, şagirdlər münasibətlə korrupsion davranış arasında ikitərəfli səbəb-nəticə əlaqəsini, habelə insanlar özlərini nə üçün qanunsuz aparmalarını anlayırlar.

---

## **MÖVZU:** MƏSULİYYƏT VƏ ÖHDƏLİK. SOSİAL ROLLAR

**MÜƏLLİF**: Ruta Lukoşene, Qarqjday şəh. "Vayvorikşte" gimnaziyasının psixologiya müəllimi

**SİNİF: 11-12**

**MƏQSƏD:**

1. Sosial rolun, habelə müxtəlif sosial rolların ziddiyyətinin korrupsiyaya nə cür səbəb olmasını anlamağa şagirdlərə kömək etmək.
2. Korrupsiya üçün əlverişli şəraitdə düzgün qərar qəbul edərək prioritet rol seçməkdə şagirdlərə kömək etmək.

**ÜSULLAR:** dəlillərə əsaslanan diskussiya, təhlil.

**VƏSAİT:**

*Gailiene D. ir kt.* Asmenybes ir bendravimo psichologija: vadovelis 11-12 klasems.- Vilnius: Tyto alba, 2002, səh. 188-193.

**DƏRSİN GEDİŞİ:**

"Sosial rollar" mövzusu dərsliyə əsasən aparılır, lakin misallar dəyişir.

1. Sosial rolları səciyyələndirmək üçün aşağıdakı misal gətirilir: "Fədakarlıqla işləyən bir altruist həkim təsəvvür edin. O, eyni zamanda həm də məsuliyyətli ata və ailə başçısıdır. Onun gəliri ailəsi üçün əsas gəlir mənbəyidir."
2. Sosial rolların növlərindən (bioloji, qohumluq, professional, yaş və s.) söhbət gedəndə qeyd edilir ki, həkimlik (professional) rolu Hippokrat andı ilə tənzimlənir, yəni hər hansı şəraitdə, heç nədən asılı olmayaraq insanlara kömək etmək lazımdır.
3. Əhəmiyyətinə görə rollar birinci və ikinci dərəcəli ola bilər. Məsələn, həkim üçün atalıq rolu əsas, professional rolu ikinci dərəcəli olarsa, bu onun həkimlik rolunu nə cür yerinə yetirəcəyinə təsir edə bilər. Bütün həkimlər insanları müalicə edir, amma bəziləri buna fədakarlıqla, digərləri isə başdansovdu yanaşır.
4. Rolların ziddiyyətindən danışarkən, məsələn, həkim rolu ailəsi və uşaqları üçün canından keçən ata rolu ilə uzlaşmayanda nələr baş verə biləcəyi haqqında söhbət edilir. Məsələn, gəliri çox olmayan həkimin oğlu xaricdə oxumaq istəyir. Oğlanın incəsənətə böyük istedadı var, bu çür təhsili isə yalnız Fransada almaq olar. Təhsil çox bahadır. Övladın taleyi atanın qərarından asılıdır: onun istedadını inkişaf etdirmək olarsa, o, həyatda çox şeyə nail ola bilər. Yox, əgər bəyənmədiyi bir ixtisas seçəcəksə, ömür boyu özünü bədbəxt hiss edəcək. Həkim-ata asanlıqla işdə rüşvət alaraq, oğlunu oxumağa göndərə bilərdi, bəs onda Hippokrat andı və xəstələrin mənafelərinin üstünlüyü tələbi necə olsun?..
5. Diskussiya təklif edilir. Sinif iki qrupa bölünür. Bir qrup "Həkim rüşvət tələb etməlidir" fikrinə, digər qrup isə, əksinə, "Həkim rüşvət tələb etməməlidir" fikrinə dəlil tapmalıdır.
6. Növbə ilə hər iki qrupun dəlilləri dinlənilir və hansı fikrin lehinə daha çox dəlil olması müəyyən edilir.
7. Hansı halda daha çox ziyan vurulacağı müzakirə edilir.
8. Şagirdlər oğul və xəstələrin yerində özlərini necə hiss edəcəklərini müzakirə edir.
9. Sosial rolla şəxsiyyət arasında münasibət müzakirə edilir. Vacibdir ki, müxtəlif rollar oynayarkən insan özünəməxsus keyfiyyətlərini itirməsin, özünü və öz dəyərlərini həmişə tanısın və yadda saxlasın. Onda, ziddiyət yarananda bir qərar qəbul etmək çətin olmayacaq. Ona görə ki, yetkin və məsuliyyətli insan nəcib niyyətlər və əsl dəyərləri rəhbər tutaraq yaşayır. Müzakirə zamanı qeyd etmək olar ki, ata rüşvət almaq imkanından istifadə etsə, oğul böyüyəndə onun belə davranışını necə qiymətləndirəcəyi hələ məlum deyil. Bundan başqa, ata oğula necə nümunə göstərmiş olar?

**MÖVZU:** ÖZ QAPINA DAXİL OL

**MÜƏLLİF**: İlma Ağayan, Qarqjday şəh. "Vayvorikşte" gimnaziyasının etika müəllimi

**SİNİF: 11-12**

**MƏQSƏD:** hər bir şəraitə uyğunlaşma, acizlik, fəaliyyətsizliyin korrupsiya ilə nə cür bağlı olduğunu dərk etməyə şagirdlərə kömək etmək.

**VƏSAİT:**

- *Baranova J.* Etika: filosofija kaip praktika. - Vilnius: Tyto alba, 2002.
- *Sodeika T., Baranova J.* Filosofija: vadovelis 11-12 klasems.- Vilnius: Tyto alba, 2002.

**ÜSULLAR:** mətnin oxunuşu və təhlili, diskussiya.

**DƏRSİN GEDİŞİ:**

1. Şagirdlərə F.Kafkanın "Sizin üçün nəzərdə tutulmuş qapıya necə daxil olmalı" mətni (*Sodeika T., Baranova J.* Filosofija: vadovelis 11-12 klasems.- Vilnius: Tyto alba, 2002, səh. 125) verilir.
2. Şagirdlər ən mühüm fikirləri qeyd edir, mətni oxuyarkən yaranan tənqidi qeydlərini yazır.
3. Müəllim diskussiya üçün sualı təqdim edir: "Kəndçini saxlayan nə oldu?"
4. Diskussiya üçün suallar təklif edilir:
   - Kəndçi nəyə görə qapıya daxil olmadı? O, nədən qorxurdu?
   - Qadağanı pozaraq açıq qapıdan keçməyə ürək eləsə idi, nə tapardı?
   - Qapıçıdan icazə almadan addım atsa idi, o onu saxlamağa cəhd edərdimi?
   - Bizim üçün nəzərdə tutulmuş qapıya daxil olmaq istəyiriksə, bizim qarşımızı nə ala bilər?
   - Qapıçının "Yalnız ona görə alıram ki, sən elə düşünməyəsən ki, nəyi isə etməyi unutmusan" sözlərini necə başa düşürsünüz?
   - Kəndçi onun üçün nəzərdə tutulmuş qapıya daxil ola bilərdimi?
   - Özünüzü kəndçinin yerində təsəvvür edin. Özünüzü necə aparardınız?

**DƏYİRMİ MASA ARXASINDA MÜZAKİRƏ:** ŞAGİRDLƏR KORRUPSİYAYA QARŞI

**MÜƏLLİFLƏR:** Edita Qalinaytite, Panevejis şəh. 9 №-li orta məktəbin tarix müəllimi və metodisti, Antanas Kumja, Panevejis şəh. 9 №-li orta məktəbin tarix müəllimi və metodisti.

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:** korrupsiya haqqında məlumat verərək cəmiyyətin fəal vətəndaşını yetişdirmək; korrupsiyanı başqa mənfi hallardan fərqləndirməyi öyrətmək; korrupsiya ilə əlaqədar cəmiyyətdəki şəraiti qiymətləndirməyi öyrətmək.

**ÜSULLAR:** halların təhlili, diskussiya.

**DƏRSİN GEDİŞİ:**
Şagirdlər təklif olunan situasiyaları oxuyur və bunlardan hansılarında korrupsiya halının mövcud olmasını, hansılarında isə yox, göstərir, seçimlərini əsaslandırırlar.

**Hallar:**

"İşıqlı gələcək" firması məktəb tikintisinə sifariş almaq üçün müsabiqədə iştirak edir. O, firmanın nümayəndələri dediyi kimi, "komissiyanın işini asanlaşdırmaq məqsədilə" komissiya üzvlərinə mobil telefonlar təklif edib.

Ağır xəstə uşağını müalicə etdiyinə görə minnətdar olan Ona Z. həkimə öz bağından bir dəstə qızıl gül bağışladı.

Beata S. "Qayğı" tikinti şirkəti ilə razılaşıb ki, şirkət onun rayon bələdiyyəsinə seçkilərini maliyyələşdirərsə, o sonra rayonda müxtəlif binaların tikilməsinə sərfəli sifarişlərin alınmasında şirkətə kömək edəcək.

Dövlət məmuru, xidməti avtomobildən və yanacaqdan şəxsi məqsədləri üçün istifadə edir.

Bir nəfərin bir hökumət departamentinə işi düşüb. Vəzifəli şəxs bilərəkdən vaxtı uzadır. Məsələnin həllini tezləşdirmək üçün bu adam vəzifəli şəxsə bəxşiş (500-1000 lit) verir.

Hökumət məmuru işə gec gəlir, işdən tez gedir və iş vaxtı şəxsi işləri ilə məşğul olur.

Təsəvvür edin ki, həkim, korrupsiyaya uğramış şəxsin rentgen surətini çıxarır. Bu surətdə nə görə bilər? Bunun şəklini çəkin. Korrupsiyaya uğramış vəzifəli şəxsin 3-5 əlamətini göstərin.

Korrupsiyanı nəyə görə cinayət hesab etməyiniz haqqında mümkün qədər çox dəlil yazın.

Korrupsiyaya qarşı mübarizə aparan balıqçı şəkli çəkin. Korrupsiyaya son qoymaq üçün balıqçıya hansı vasitələr lazım olmağı haqqında düşünün və yazın.

**KORRUPSİYAYA QARŞI TƏRBİYƏ İLƏ ƏLAQƏ:**

1. Şagirdlər korrupsiya haqqında əlavə məlumat aldılar.
2. Şagidlər korrupsiyaya qarşı öz fəal mövqelərini bildirdilər.
3. Şagirdlər cəmiyyətin həyatında müxtəlif nöqsanları qiymətləndirməyi öyrəndilər.

## MÖVZU: TƏHSİL KORRUPSİYAYA QARŞI

**MÜƏLLİF**: Dayva Kuprionene, Anikşçay şəh. Antanas Baranauskas adına orta məktəbinin din və etika üzrə baş müəllimi.

**SİNİF: 5**

**FƏNN:** din

**MƏQSƏD VƏ VƏZİFƏLƏR:** komandada işləmək və birgə qərar qəbul etmək bacarığı aşılamaq; formal mətn yazmaq; təqdim edilmiş mətnlər əsasında diskussiya aparmaq və dəlil gətirmək bacarığını inkişaf etdirmək; yaradıcı təfəkkürü inkişaf etdirmək.

**ÜSULLAR:** qruplarda iş, formal mətnin yazılışı, oyun, rol oynama.

**VƏSAİT:** Bibliya, üzərində soy adlar yazılmış kartlar, ağ vərəqlər, flomaster, müxtəlif məktəb ləvazimatı.

**DƏRSİN GEDİŞİ:**

1. **Bruno Ferreronun "Kirpi ailəsi" hekayəsi oxunur:**

"Yayın gəlişilə meşədə kirpi ailəsi məskən saldı. Günlər isti keçirdi, ona görə kirpilər ağacların kölgəsində oynayıb şənlənirdi. Meşədən kənara da çıxır, çəmənlikdə qaçışır, çiçəklərin arasında gizlənpaç oynayır, milçək tutub yeyir, gecə düşəndə isə öz yuvalarının yanında rahatca yatırdılar.

Bir gün ağacdan düşən yarpaq gördülər: payız yaxınlaşırdı. Yarpaqlar elə hey tökülürdü. Kirpilər yeni bir əyləncə tapdılar: düşən yarpaqları tuturdular. Havalar soyuyurdu. Çayın üzünü nazik buz tutmuşdu. Yağan qar yarpaqların üstünü örtdü. Kirpilər soyuqdan əsir, gecələr heç yuxuya gedə bilmirdilər.

Bir gecə onlar bir-birinə qısılıb isinmək istədilər, lakin buna nail ola bilmədilər: iynələrilə bir-birinin burun və ayaqlarını deşik-deşik edib, göz qırpımında hər tərəfə dağıldılar. Yenidən qorxa-qorxa bir-birinə yaxınlaşmağa çalışdılar, amma bu dəfə də bir şey alınmadı. İsinmək üçün bir yol tapmaq lazım idi: axı quşlar da, dovşanlar da, başqa heyvanlar da bir-birinə qısılaraq isinirdi. Onda kirpilər, iynələrini içəriya çəkərək bir-birinə yaxınlaşmağı öyrənməyə başladı. Əvvəl bu çox çətin alınırdı, lakin hər axşam kirpilər bu cəhdi təkrar edir və nəhayət bir gün bir-birini sancmadan sıxlaşa bildilər. Şiddətli külək artıq onları qorxutmurdu; bir-birinə qısılaraq, kirpilər istidə rahat yatırdı".

**Tapşırıq:** Paylanan kartların rənginə görə şagirdlər komandalara bölünür.
Hər qrup 10 razılaşma qaydası düşünüb hazırlamalıdır.
Müəyyən edilmiş vaxt keçəndən sonra qruplar qaydaları oxuyur. Təkrarlanmayan qaydalar seçilib yazılır.
Qaydalar belə səslənə bilər:

1. Mehribanlıq həyatı işıqlandırır deyə, ona hər gün səy göstərmək lazımdır.
2. İnsanlar hər gün bir-birilə söhbət etməlidir.

3. Yorulmadan birlikdə təkmilləşməyə səy göstərmək lazımdır.
4. Özünə hörmət et: ayaqlarını silmədən heç vaxt kəndardan içəri keçmə.
5. İltifatlı olmaq lazımdır.
6. İnsanlarda yaxşı keyfiyyətləri axtarıb tapmaq lazımdır, onlar bu keyfiyyətlərini gizlətməyə çalışsa belə.
7. İxtilaflardan qorxmamaq - yalnız hər şeyə biganə olanların arası dəymir.
8. Nəzakətli olmaq lazımdır. Ədalar məhəbbəti təhqir edir.
9. Xırda şeylərdən ötrü özündən çıxmamaq.
10. Gülməyi unutmamaq: bu, ürəyə çanlandırıcı qüvvə verir və onu çətinliklər qarşısında güclü edir.

**2. Əhdi-Cədiddən bir parça oxunur - Mk. 12, 38-44.**

Suallar:

1. Qonşuya sevgi naminə özümüzü qurban verməyi bacarırıqmı?
2. "İynələrimizi" içəri çəkmək çətindirmi?

Məğz: ***Qızıl qaydaya*** uyğun yaşamağı öyrənmək: "İnsanların sizinlə necə rəftar etməsini istəyirsinizsə, siz də onlarla elə rəftar edin" (Mt. 7, 12).

**3. Komandalar məmurlara məktub yazaraq məktəbə kompyuterlərin ayrılmasını xahiş etməlidir:**

1 qrup: olduqca acizanə və yalvarıcı üslub;
2 qrup: dostcasına;
3 qrup: buyuruq xarakterli tələbkar məktub;
4 qrup: işgüzar üslub.

**4. "Ailə" oyunu**

Hər kartda adamın soy adı və ailədə rolu göstərilib.
*Malinauskas* (ulu baba, ulu nənə, baba, nənə, ata, ana, oğul, qız, küçük, pişik balası). Başqa soy adlar buna çox oxşardır: *Mulinauskas, Malinauskis, Melinauskis.* Uşaqlar kartları çəkir. Uşaqlar yuxarıda göstərilən ardıcıllıqla bir-birinin qucağında dörd stulda oturmalıdır. (Kartlar komanda-komanda deyil, sərbəst qaydada çəkilir).
Məğz: Rəqabət apararaq da çox tez ümumi şən oyuna qoşulmaq olur.

**5. Oyun situasiyası**

1 və 3 qrup üçün: "Yolda xarab olmuş maşın, sürücü - olduqca çirkin bir adam."
1 qrup: Heç bir mükafat gözləmədən hətta çirkin görünüşlü adama nə cür ürəkdən kömək etmək olduğunu səhnələşdirir.
3 qrup: Yalnız sərf edəcəyi vaxta görə maddi mükafat alacağı halda kömək edəcəyini səhnələşdirir.
2 və 4 qruplar üçün: "Ağır xəstə olan və zəif eşidən nənə oğlunun ailəsi ilə yaşayır".
2 qrup: nənə üçün axırı yaxşı olan əhvalatı səhnələşdirir.
4 qrup: nənə üçün axırı yaxşı olmayan əhvalatı səhnələşdirir.

**6. "Jaz konserti" oyunu**

Məqsəd: bir-birinə qulaq asmaq, qrupda həmahənglik tapmaq. Hər qrup, məktəb

ləvazimatından (qələm, kitab, dəftər, qələmdan, qovluq, çanta) istifadə edərək qısa bir konsert bəstələyib ifa etməlidir.

**SON VURĞU:**
Hansı insanlar ən gözəl və ən zövqlüdür? ***Xeyirxahlıq və sadəlik paltarlaını geyinənlər.***

---

## RADVİLİŞ ŞƏH. VAYJQANTAS ADINA GİMNAZİYASININ PSİXOLOGİYA MÜƏLLİMİ REDA MASELSKENENİN PSİXOLOGİYA DƏRSLƏRİNDƏ KORRUPSİYAYA QARŞI TƏHSİL HAQQINDA DÜŞÜNCƏLƏRİ

Aşağıdakı mövzuları şagirdlərlə təhlil edərkən korrupsiya haqqında danışmaq olar:

- Sosial dərketmə: münasibət və stereotiplər.
- Sosial münasibətlər: sosial rollar və psixoloji oyunlar.
- Psixoloji sağlamlıq: insan ehtiyacları və davranış səbəbləri (*Gailiene D. ir kt.* Asmenybes ir bendravimo psichologija: vadovelis 11-12 klasems.- Vilnius: Tyto alba, 2002, dərsliyindən istifadə edərək və ya psixologiya dərslərinin fərdi kursunu tərtib edərək).

**MÜNASİBƏT VƏ KORRUPSİYA**
Münasibətin təbiəti haqqında danışarkən şagirdlərin və ya valideynlərinin həyatından korrupsiya ilə bağlı halları qeyd etmək. Məsələn, şagird bir nalayiq hərəkət edib. Ona tədris müəssisəsini dəyişmək təklif olunur, amma valideynləri bunu etmək istəmir, ona görə ki, indiki tədris müəssisəsi hörmətli sayılır. Valideynlər əllərindən gələni edirlər ki, övladlarını həmin məktəbdə saxlasınlar. Onlar direktora və ya başqa birisinə "yol" tapa bilən "dost" axtarırlar ki, heç bir dəyişiklik edilməsin.
Bu və ya başqa bir hal münasibət komponentləri (dərketmə, emosional reaksiya, davranış) əsasında təhlil edilir.

**STEREOTİPLƏR VƏ KORRUPSİYA**
Stereotiplər: "Kişilər maşını daha yaxşı sürür", "Sahibkarlar və bankirlər - fırıldaqçıdırlar"; "Həkimlər - rüşvətxordurlar" və s. Stereotiplərin yaranması, rolu və dəyişməsi haqqında söhbətdə korrupsiya ilə bağlı stereotiplər də təhlil olunur.

**SOSİAL ROLLAR VƏ KORRUPSİYA**
"Sosial rollar və şəxsiyyət münasibətləri" mövzusunu müzakirə edərkən müxtəlif halları təhlil etmək olardı, məsələn: utancaq, sakit, dinc, düzgün adam rəhbər vəzifə tutur və bu, onun əqidəsini dəyişir və hətta həyata onun üçün məqbul olmayan münasibət yaradır. Qoyulan tələblərə - rüşvətalma və s. - uyğun yaşamaq istəyirsənsə, onda özün olmaq istəmədiyin bir adam olmalısan, dəyişməlisən, özün-özünə nifrət etməlisən, öz fərdiyyətinə, təbiətinə, həyat ideallarına zidd bir tərzdə yaşamalısan. Nəticədə ya özün, ya da rəhbərlik etdiyin kollektiv əziyyət çəkir.

**İNSANIN EHTİYACLARI VƏ DAVRANIŞ SƏBƏBLƏRİ**

Bu mövzunun müzakirəsi zamanı korrupsiyanın bizə göstərdiyi təsirə və bunun nəticələrinə diqqət yetirmək olar. Ehtiyaclar iyerarxiyası pilləkəni ilə aşağıdan yuxarı qalxdıqca korrupsiya ilə bağlı məqamlara mümkün qədər geniş baxmaq lazımdır. “Korrupsiya sap yumağı” diskussiya-oyunu təşkil etmək olar.

Oyun dəyirmi masa arxasında əldən-ələ keçən bir yumaq sap ilə oynanır. Hər bir diskussiyada olduğu kimi, burada da qaydalar var və bunlar oyunun əvvəlində elan edilir. Aparıcı sap yumağını götürərək, korrupsiya haqqında danışmağa başlayır: “Necə bilirsiniz, bu gün düzgün, korrupsiyasız yaşamaq mümkündürmü?” Söz demək istəyən yumağı alır və bu barədə öz fikrini söyləyir. Sonra yumağı başqa sözü olana ötürür. Beləliklə, yumaq əldən ələ fikrini bölüşmək istəyən hər bir oyunçuya keçir. Söhbətin sonunda nəticə çıxarılır. Burada müsbət və mənfi mövqeləri bildirən müxtəlif rəngli iki yumaqdan da istifadə etmək olar. Oyunun sonunda hansı mövqenin xeyrinə daha çox fikir söyləndiyi hesablanır. Yenidən müzakirə aparılır.

**“HİSSLƏR KVADRATI” OYUNU**

Şagirdlərin hərəsinə bir vərəq kağız verilir ki, bunlar da hissələrə doğranmış böyük bir kvadratın parçalarıdır. Bu vərəqlərdə şagirdlər onlarda yaranan hiss və ya hisslər haqqında yazırlar. Hamı yazıb qurtaranda vərəqlər böyük kvadratda öz yerlərinə qaytarılır və beləliklə hisslər kvadratı əmələ gəlir.

Müzakirə aparılır, nəticə çıxarılır. İki müxtəlif rəngli kagızdan da istifadə etmək olar - mənfi və müsbət hisslər üçün. Onda oyunun sonunda bilinəcək ki, hansı kvadrat daha böyükdür. Müzakirə aparılır.

# ƏLAVƏLƏR

## TƏNQİDİ TƏFƏKKÜR İNKİŞAFI SXEMİ ÜZRƏ MƏTNLƏRLƏ İŞƏ NECƏ HAZIRLAŞMAQ OLAR? EVALDAS BAKONİS

Mətn:

***Bogdanaviçius A. Korupsija sukuria valdzia (Boqdanaviçus A.*** **Korrupsiyanı hakimiyyət yaradır)**
*//http://www.lrinka.lt/Leidinys/korupsija/1998.6.andriusb/phtml*

*Korrupsiyadan söhbət düşəndə, çox adam bu barədə heç danışmaq istəmir: danışmağın nə faydası? Heç nəyi dəyişmək mümkün deyil.*
…………………………………………………………………………………
…………………………………………………………………………………
…………………………………………………………………………………
…………………………………………………………………………………
*tutmuş*
…………………………………………………………………………………
…………………………………………………………………………………
*qədər bütün üsullara əl atılıb, amma əslində heç bir şey dəyişməyib. Rüşvət alan alır, rüşvət verən "tariflərin" artmasına təəccüblənir. Rüşvətxorluqla bağlı vaxtaşırı yaranan qalmaqallar rüşvətlərin həcmi ilə heyrətləndirir, ona görə ki, risk artdıqca, onlar da şişir.*

*Korrupsiya faktları təkcə Litvada açılmır - bu, qlobal bəladır. Yəni doğrudandamı korrupsiya və rüşvətxorluq cəmiyyətin qaçılmaz rəmzidir? Bu bəladan canımızı qurtarmağa kömək edən vasitələri axtarmağa cəhd etməyə dəyərmi? Axı qanunvericiliklərini özümüz üçün nümunə hesab etdiyimiz demokratik ölkələr də bunları tapa bilməyiblər. Korrupsiyanın nəticəsi olan hallar:*
…………………………………………………………………………………
…………………………………………………………………………………
*yenə də bizi bu vasitələri axtarmağa vadar edir, ona görə ki, əldə edə biləcəyimiz nəticələr üçün bu mübarizəni aparmağa dəyər.*

**Korrupsiyaya qarşı tədbirlərin effektivliyi**

*Rüşvətxorluğa görə verilən cəza daha da sərt olsaydı, korrupsiyanın yoxa çıxmasını iddia etmək olardımı? Litva Sərbəst Bazar İnstitutunun apardığı sorğulara əsasən səmərəliliyinə görə bu vasitə bürokratizmin azaldılması və dövlətin iqtisadiyyata qarışmasının məhdudlaşdırılmasından sonra üçüncü yer tutur. Cəza ikibaşlı təsir göstərir. İmkandan istifadə edim ya etməyim sualına cavab tapmaqda çətinlik çəkən adamı bu doğrudan da saxlaya bilər. Digər tərəfdən, rüşvət almaq qərarına gələn adama cəza qorxusu birmənalı təsir edir: "xidmətin" qiymətini qaldırmağa məcbur edir. Buna görə cərimələr korrupsiya-*

*nın bir forması kimi rüşvətxorluğun azaldılması üçün əsas deyil, yalnız kosmetik bir vasitədir.*

*Məmurların maaşlarını və sosial təminatlarını yüksəldərək korrupsiyaya qarşı mübarizə aparmaq olarmı? Çox sərt cəza kimi, yüksək maaş da "almayanların" sayını artıra bilər. Digər tərəfdən, çətin sübut edilən vəzifədən sui istifadə maaşların artırılmasını korrupsiyanın azaldılması ilə deyil, "tariflərin" qalxması ilə əlaqələndirir. Sorğu nəticələri göstərir ki, elita maaşların artırılması səmərəliliyini dördüncü yerə qoyur. Maraqlıdır ki, ümumiyyətlə siyasətçilər kimi, hakim partiyanın təəssübkeşləri də bu tədbiri yüksək qiymətləndirir, və bu baxımdan hökumət tərəfindən məmurların maaşlarının artırılmasına bəraət qazandırmaq olar. Amma bu, korrupsiyaya qarşı mübarizənin ən əhəmiyyətli və ən səmərəli yolu deyil.*

**Korrupsiya ilə mübarizə resepti**

*Doğrudan da, korrupsiyanı dayandırmaq üçün ən təsirli vasitə insanların tərbiyəsi, cəzalar, şüurlu məmurların seçilməsi və ya hüquqmühafizə orqanlarının prinsipial fəaliyyəti deyil. Ən təsirli vasitə əsasını korrupsiya təşkil edən amillərin məhdudlaşdırılması və ləğv edilməsidir.*

*Nədən başlamaq lazımdır?*

- *Müxtəlif biznes növlərinin inkişafı, yeniləşdirilməsi, imtiyazlı kreditləşdirilməsi proqramları yaradılıb və həyata keçirilib. Bunları birləşdirən xüsusiyyət ondan ibarətdir ki, bunlardan hansının dövlət tərəfindən dəstək almağa layiq olması vəzifəli şəxsin qərarından asılıdır. Dövlət tərəfindən hər hansı dəstək bazar münasibətlərindən kənar "yüksək gəlirli biznesin" yaranması və yaşamasına imkan verir. Korrupsiyanı azaltmaq istəyən kəslər biznesi dəstəkləməkdən bir dəfəlik imtina etməlidir.*
- *İqtidar qərəzli vergi qanunları qəbul edərək vergi sistemi ilə manipulyasiya edə bilər. İqtidar, müxtəlif dövlət orqanlarını faktiki vergi tarifləri müəyyən etməyə, vergi imtiyazları verməyə məcbur edərək və elə bil qərəzlə vergi ödənilməsi qaydalarını qarışdıraraq vergi sistemi ilə manipulyasiya edə bilər. Bütün bunların nəticəsində vergi inzibatçısı vergi uçotunda əsas fiqura çevrilir. Vergilərin sayını azaltmaq, vergi qaydalarını dəqiqləşdirmək, vergi uçotunu sadələşdirmək, heç kim üçün istisna etməmək olduqca vacibdir.*
- *Dövlət bir sahibkar kimi bank və kommunal sektorlarında fəaliyyət göstərir, energetika, xəstəxanalar, məktəblər və s. haqqında heç danışmırıq. Dövlət bankı o qədər də uğurlu olmayan iş adamına kredit verə bilir. Dövlət müəssisəsi o qədər də ucuz və o qədər də keyfiyyətli olmayan xammal ala bilir. Dövlət müəssisəsi üçün səmərəsiz fəaliyyət problem təşkil etmir - onsuz da o, bazarda yerini saxlayacaq, axı dövlət onun üçün istisna şərait yaradır və bəzən dövlət sifarişləri verir. Dövlət müəssisələri sistemini ləğv etmək lazımdır - dövlət biznesdən çıxmalı, dövlət müəssisələri isə özəlləşdirilməlidir.*

*Bu siyahı heç də tamam deyil…*

**Seçim hüququ**

*Cəmiyyəti hələ də inandırmağa çalışırlar ki, korrupsiya ilə ancaq siyasi liderlərin öhdəlikləri, iqtidarın açıq olması kimi üsullarla mübarizə aparmaq olar. Bura cəzaların sərtləşdirilməsi, məmurların maaşlarının artırılması, sahibkarların yetişdirilməsini də əlavə etsək, korrupsiyaya qarşı mübarizə üçün "klassik" paket alınacaq. Bu üsullardan bir çox ölkələrdə istifadə edilir, amma bunların heç birində hələ korrupsiyaya son qoyulmayıb.*

*"Klassik" üsullar burada təklif olunanlardan daha səmərəlidir ya yox - bu suala oxucu cavab verəcək. Lakin heç bir tədbir görülməzsə, iqtidar nümayəndələri arasında populyar olmasa da, səmərəli vasitələrə göz yumularsa, bu bizə çox baha başa gələcək.*

Korrupsiyaya qarşı təhsil mövzuları yeni bir şey deyil. Buna aid biliklər də sanki kifayət qədərdir. Digər tərəfdən, bu mövzuları bir, iki dəfə ənənəvi qaydada "qaldırmaq" olar - amma çox yox… Buna görə xüsusi qaydada "işlənmiş" mətnlər təklif edilə bilər.

## MƏTNİN TƏHLİLİNƏ BU CÜR HAZIRLIQ NƏ FAYDA VERƏ BİLƏR?

**Iştirakçı-müəllimlərin fikirləri**

………………………………………………………………………………………

………………………………………………………………………………………

………………………………………………………………………………………

**Hadisələrin sonrakı gedişini güman edərək mətnin oxunuşu**

Məlumatı hissələrə bölərək şagirdlərdən xahiş etmək olar ki, hadisələrin necə cərəyan edəcəyini və ya (mətn məlumat xarakteri daşıyırsa) onlar nəyi öyrənəcəyini təsəvvür etsinlər. Belə iş bir az detektiv fəaliyyətini xatırladır…

Başqa sözlə, biz mövcud bilikləri "qaldırırıq", "dirildirik" + mətn təhlili + öz fikrinin, mövqeyinin əsaslandırılması. Əksər hallarda mətn bütövlükdə verilmir, yalnız bir neçə ardıcıl parça təqdim edilir. Tez-tez sual verilir: "Sonra nə olacaq (baş verəcək, yazılacaq)? Nə üçün belə düşünürsünüz?" Şagirdlər səhv edirsə, sual verilir: "Nə üçün siz deyən kimi olmadı, başqa cür yazıldı? Bu adi davranış, hadisə, nəticədirmi?" və s.

**Yuxarıda təqdim edilmiş mətnə aid məsləhətlər:**

I hissədə hərə düşünüb nöqtələrin yerinə nə isə yazır. Sonra fikirlər yazılıb müzakirə edilir.

II hissədə şagird qrupları müəllifin hansı üsulu təklif etdiyi haqqında, nə üçün belə hesab etdikləri haqqında, müəllifin fikri düzgün olub-olmaması haqqında qərar qəbul edirlər.

## Mətn:

**Knygnesys Bielinis: nusikaltelis ar didvyris?** // Knygnesys 1864-1904. - Vilnius: Valstybinis leidybos centras, 1992, səh. 50-51.

*Təqribən 1900-cu ildə Raseynəy yaxınlığında kitab dolu iki araba saxlandı. Belinis uryadnika 75 rubl rüşvət verdi və o, onu buraxaraq, meşəyə qaçmağı tapşırdı. Atlar və arabalar uryadnika qaldı<…>*

*Ən böyük rüşvəti sonuncu dəfə, 1902-ci ildə vermək lazım oldu. Onda Belinis Pumpen prixodunun Rimkunay kəndinə ədəbiyyat yaymağa gəlmişdi. Atı bir kəndlinin həyətində saxlayıb kitab bağlaması ilə həyətlərə onları paylamağa getdi. Evin birinə girəndə oradan çıxan uryadniklə üz-üzə gəldi. O, bura hansısa istintaq məsələsinə görə gəlmişdi. Uryadnik onu həbs edərək Pasvalisə, pristavın yanına apardı. Belinis dedi ki, adı Yonas Kalikasdır və kitab bağlamasını yolun qırağında tapıb.*

*Təhqiqat zamanı Belinis mətbəxə çıxmağa icazə aldı və orada rast gəldiyi pristav arvadına 50 rubl rüşvət verdi, bu rüşvət də öz işini gördü. Bir azdan pristav ciddi və acıqlı səslə (əlbətdə ki, rusca) arvadına dedi:*

*- Belə günahkarı ispravnikin yanına, Panevejisə göndərmək lazımdır.*

*Bu, Belinisə əl verirdi, çünki onu Birjay kəndinə göndərsəydilər, orada onu tanıyardılar və bunun nəticəsi çox pis ola bilərdi. Bundan başqa, Belinisi Rimkunay kəndində saxlayanda, onun atını və kitab dolu arabasını özünə götürən uryadnik bunları Pasvalisə aparmışdı, burada da kimsə atı araba ilə birlikdə oğurlamış, beləliklə Belinisin günahının sübutu da yox olmuşdu. Məlum deyil, burada əsas rolu nə oynadı - pristavın arvadına verilmiş rüşvət, yoxsa Belinisin dostlarının köməyi.*

*Panevejis ispravniki (ya da onun katibi), rüşvət alandan sonra Belinisi Birjaya, müstəntiqin yanına göndərmək qərarına gəldi və bu işi polisə deyil, desyatniklərə tapşırdı. Desyatniklərdən biri, Belinisi Panevejisdən müşayiət edən zaman ona dedi:*

*- Sənin hansı yuvanın quşu olmağını bilirəm, mən səni buraxmaram, bilirəm ki, sən kitab daşıyırsan.*

*Pasupenay kəndində Belinis axırıncı puluna desyatniki içirdi. Desyatnik Belinisi gecələməyə Talkonəy kəndinə, Yuzelünasın evinə apardı. Bundan əvvəl də qarovulçusundan necə qaçmağı haqqında daim düşünən Belinis qərara gəldi ki, məhz buradan qaçmaq lazımdır.*

*Heç kəsdə şübhə oyatmamaq üçün Belinis ayaqqabısını çıxarıb qurumağa asdı, çuxasını da başqa tərəfə atıb nasaz olmağı və yorulmağından şikayətlənə-şikayətlənə sobanın yanında uzandı.*

*Desyatnik bir az dala-qabağa gəzdi, sonra isə Belinisin soyunmağını görüb yenə içdi və möhkəm yuxuya getdi. Belinis özünü yuxuluğa qoydu, özü isə hamının yuxuya getməsini gözləyirdi. Hamı yuxlayandan sonra o yavaşca yerindən durub elə olduğu kimi, paltarsız evdən çıxdı. Soyuq fevral ayı idi. Evdən çıxıb bir topa şaxın üstündən keçib ayaqyalın, bir köynəklə var gücü ilə talaya qaçdı.*

Siz bu mətni necə təhlil edərdiniz?